ADİL CƏMİL

SEÇİLMİŞ ƏSƏRLƏRİ

(şeirlər, poemalar)

II

İKİ CİLDDƏ

“Elm və təhsil”
Bakı – 2014

Redaktoru: **Çingiz Əlioğlu**
əməkdar incəsənət xadimi

Adil Cəmil. Seçilmiş əsərləri, II cild.
Bakı, "Elm və təhsil", 2014, 424 səh.

Poetik istedadını dəyərli qələm məhsulları ilə təsdiq etdirmiş görkəmli şair Adil Cəmilin iki cildlik "seçilmiş əsərləri"nin ikinci cildinə onun şeir və poemaları daxil edilmişdir.

ISBN 978-9952-8176-8-3

© «Elm və təhsil», 2014

TANRI MƏNƏ YAR OLANDA

ƏLLİ YAŞIMA EPİQRAF

Heç bilmirəm bu vaxtacan
Daş qoydummu daş üstünə.
Ad günləri bayram deyil-
Yaş gətirir yaş üstünə.

Mən xəyallar adasına
Ömrümü sürgün bilirəm.
İçimdəki bu səltənət
Devrilər bir gün-bilirəm.

Dədəm Qorqud bica yerə
"Fani dünya" söyləməzmiş.
İnsan kimi yaşamağa
Bir ömür bəs eyləməzmiş...

Haçan gəldi, haçan getdi
Əlli qışım, əlli yazım?
Gedən ömrün bu yaşına
Əlim gəlmir "əlli" yazım.

Yaşamağı bacarana
Yer üzündə yer başdadır.
Nə yaşda bilsə özünü
İnsan elə o yaşdadır.

2004

SALAM, TÜRK ELLƏRİ

Salam olsun türk elləri,
Soydaşınız bilin məni.
Ya da türkün tarixindən
Birdəfəlik silin məni.

Mən Metenin,Atillanın
Od püskürən nəfəsiyəm.
Atatürkə ata deyən
Bilgə xaqan nəvəsiyəm.

Mən ölkələr fəth elədim,
Qoltuqlarda yaşamadım.
Tarixə qanla yazılıb
Qıpçaq adım, Oğuz adım.

Min illərdən keçib gələn
Əsillərin əslindənəm.
QaraTürkeş boyundanam,
Sarı Noqay nəslindənəm.

Canım, gözüm türk elləri,
Sizlər mənim arxadaşım.
Bir vəsiyyət kitabıdır
Yeniseydə məzar daşım.

Bozqırlarda yurta yapan
Dəliqanlı çöl oğluyam.
Öz elindən, obasından
Ayrı düşən el oğluyam.

Ata yurdum ulu Altay,
Ana yurdum-Anadolu.
Türk deyəndə bu qollarım
Sanki dönüb qanad olur...

Qartal kimi göy üzündə
Dövrə vurub süzürəm mən.
Türkün zəfər bayrağına
Ay-ulduzu düzürəm mən.

Canım, gözüm türk elləri,
Mənim arzum, istəyim-siz.
Tanrı türkü qorusun qoy-
Dayağım-siz, dəstəyim-siz.

BU KÖHNƏ DÜNYADA

Doğulan anında qışqırır cocuq-
İnsanın dünyaya fəryad borcu var.
Bir də baxırsan ki, yad oldu hamı-
Doğmanın doğmaya bir yad borcu var.

Namərdlik, comərdlik atadan gəlir,
Bir bəla bir kiçik xətadan gəlir.
Qismətim nağıldan, butadan gəlir-
Mənə nağılların "ağ at" borcu var.

El yolu borana, qara düşəndə,
Yurdun ağ gününə qara düşəndə,
Məmləkət balıq tək tora düşəndə
Hər kəsin vətənə cihad borcu var.

Adəmdən, Həvvadan qalan möcüzə
Bu köhnə dünyada deyil ha təzə...
Analar bölünmür yaxşıya, pisə,
Övladın anaya həyat borcu var.

YAŞADIM

Azər Turana

Ağappaq üzümə - ağ kətanıma
İçimin rəngini yapıb yaşadım.
Bu karvan yolunda aradığımı
İlğımllar içində tapıb yaşadım.

Nə olsun diriyəm, üzü bəriyəm,
Köhnə dəyirmanın sınıq pəriyəm...
Hələ də anamın südəməriyəm-
Mən ana bətnindən qopub yaşadım.

Atılmış təqvimdə bitdi fəsillər,
Bitib-tükənmədi bu bədəsillər...
Canıma, ruhuma hopduqca illər
Sözümün canına hopub yaşadım.

Soyuq su tökdülər isti aşıma,
Dərdə həmdəm oldum, qəmə aşina.
Bisütun çıxmadı mənim qarşıma,
Çapılmaz qayalar çapıb yaşadım.

Çınqıllı yoxuşlar soydu dizimi,
Sel yuyub apardı qanlı izimi...
Mən öz qismətimi, mən öz ruzimi
Canavar ağzından qapıb yaşadım.

Doğranıb bir doğru söz qabağında
Əyri əyrilərmiş düz qabağında.
Mənim ki həyatım göz qabağında
Kim deyər yolumdan sapıb yaşadım.

QOCALIR

Vaxt yetişir, vədə gəlir, yaş ötür,
Şir-pələnglər biləyindən qocalır.
Üşütdükcə göy üzünün qürbəti
Qərib quşlar lələyindən qocalır.

Payız gəlsə-budaqların budansa
Yarpaqların töküləcək, bu, cansa...
Diz bükülür, bel əyilir haçansa,
Alp-ərənlər kürəyindən qocalır.

Bu ömür-gün vəfasızmış dedikcə,
Sultanların zərli taxtı-kötükcə...
Gizli-gizli qəm içindən yedikcə
Dərdli insan ürəyindən qocalır.

Göy zəmini qara daşda görən yox,
Ruhu canda, əqli başda görən yox.
Bu cahanı körpə yaşda görən yox-
Qoca dünya bələyindən qocalır.

YAZI

Alın yazısından başqa
Nə varsa bir-bir oxunur.
Hələ sözə gedir millət-
Füzuli, Sabir oxunur.

Məzarıstan yol başında,
Ölənlər həyat yaşında...
Başdaşının yaddaşında
Minillik qəbir oxunur.

Ovçu üçün qış yaraqdır:
Şikarından bir soraqdır.
Bəyaz düzlər ağ varaqdır-
Qar üstdə ləpir oxunur.

Dərd insanı doyuranda
Can cövhəri qalmır canda.
Nadan məni buyuranda
Üzümə Sibir oxunur...

ONU BİLİRƏM Kİ

Büdrəmək bilmədim qarda, boranda,
Kimsə kef çəkəndə mən əzab çəkdim.
Hər günün ömrünü başa vuranda
Hər axşam özümlə haqq-hesab çəkdim.

Düşündüm: illərim getdimi hədər,
Bəxtin qumarında xal topladımmı?
Mən bütün ömrümü bir arı qədər
Sözdən şirə çəkib bal topladımmı?

Nə bilim, cavabsız suallarım çox,
Çox sirlər pas tutub qalar qınında.
Tanrım yaradanın bərabəri yox-
Yaşamaq haqqı var qarışqanın da.

Qarışqa yük çəkir özündən böyük,
Bir ürək dərdimi çəkə bilmirəm.
Təklənmiş insanam- dövranım dönük,
Bildiyim nə varsa bəlkə bilmirəm?

Bir onu bilirəm dağda, aranda
Kimsə kef çəkəndə mən əzab çəkdim.
Hər günün ömrünü başa vuranda
Hər axşam özümlə haqq-hesab çəkdim.

ÖZÜMƏ ELEGİYA

Saçımın ağ vədəsində
Düşümmü yolun ağına?
Qürbət eldə qərib olum-
Uzaqdan baxım yaxına?

Məni sovursa küləklər
Ağlayar göydə mələklər.
Alışıb yanar ürəklər
Ürəyimin bu ahına.

Bir qanadsız quş olmuşam,
Dərd oxuna tuş olmuşam.
Nə zamandır qoşulmuşam
Ömür adlı bir axına.

Bəlkə də vaxtsız gedirəm,
Talesiz, baxtsız gedirəm.
Amma günahsız gedirəm
Mən Tanrının dərgahına.

ALLAH UZAQDA DEYİL

Allah bizi yaradandan
bir az sonra
Biz də Allahı yaratdıq
öz beynimizdə.
Bizimlə bir doğulan ruhumuzu
bir ömür boyu
sürüdük əynimizdə.
Pul tapıb Həccə gedə bilmədik-
haqqa qovuşaq.
Bağışlasın belə kişini
arvad-uşaq.
Bir də hər şeyi görən Allah...
(Beləsini bağışlayırmı görən Allah?)
Yaxşı ki, Allah uzaqda deyil,
başımızın üstündə,
ürəyimizin içindədir.
Nə Amerikada,
Nə də Çindədir.

GÖZÜM SU İÇMİR

Bu at bir at deyil,
Qırat deyil, Dürat deyil.
Yorğa yeriş tökülməyir
Təpərsiz dizindən,
Üzər ayağımı üzəngisindən-
Bu kəhərdən gözüm su içmir.

Mənim həsrətimdən quruyub yəqin
Kəndimiz qısılan palıd meşəsi.
Neynək, yurddaşım, neynək,
Neynək, dərddaşım, neynək:
Dərd çəkmək özü də insan peşəsi-
Di gəl ki,
Bu kədərdən gözüm su içmir.

İstisi, işığı canında qalan,
Qapqara gecənin qınında qalan,
"Əqrəbi" xoruz banında qalan
Bu səhərdən gözüm su içmir.

Məni əzizlədi, məni böyütdü,
Dönüb dəyirman daşına
Aylarımı, illərimi üyütdü.
Urvası qondu başıma-
Bu şəhərdən gözüm su içmir.

İşsizləri artan ölkədə
Yaşamaq da bir işdir.
Həyatın sonu – sonsuzluğa girişdir.
Gah göydəyəm, gah yerdəyəm,
Ömür adlı səfərdəyəm.
Yarımçıq işlərim amanatı -
Bu səfərdən gözüm su içmir.

SÖZÜN DÜZÜ

Başıma gələnlər bu gen dünyada
Bəlkə də heç kimin başına gəlmir.
Ruhumu oynadan bu dərd, bu kədər
Yaxşı bilirəm ki, boşuna gəlmir.
İndiki zamanda ata olanlar
Bəs niyə atası yaşına gəlmir?
Yaman kəmfürsətdir ölüm mələyi-
Gələndə qaşına-qaşına gəlmir.
İlahi, düz sözü niyə yaratdın-
Deyəndə heç kəsin xoşuna gəlmir...

DÖRDLÜKLƏR

Həm sevinc, həm də ki, kədərdi ömür,
Əlləşib-vuruşma, hədərdi ömür.
Düşünmə kiminsə yolu uzundur,
Beşikdən tabuta qədərdi ömür.

***

Düşdü kəsərindən bəxtin qılıncı,
Yol çəkən gözlərim oldu narıncı.
Heç kəs ağlamasın ölən günümə-
Mən nə birinciyəm, nə axırıncı.

***

Dərd-bəla görəndə ürək aşınır,
Qan-qada görəndə günəş yaşınır.
Cənubdan Şimala meyvə-tərəvəz,
Şimaldan Cənuba meyid daşınır.

***

Ac qalsa tutmayır quşların dizi,
İsitmir onları yuva istisi.
Dünyada ən böyük davaların da
Sonu dən axtaran quş civiltisi.

***

Qəribəm-qəriblər adasındayam,
İtmişəm-itkinlər odasındayam.
Mənə diş qıcayır quduz dalğalar,
Özümlə özümün vidasındayam.

ÜRƏYİNDƏN GEDƏN KİŞİ

Camaat işdən qayıdanda
O, işsizliyindən
döndü evinə.
Arvadına "iş tapmışam" dedi
sevinə-sevinə...
Bir anda fağır qadın
soyuducunun boş günlərini unutdu.
Ayaqyalın uşaqlar
dərsdən qaldıqları
qış günlərini unutdu.
Qəfil ağrıdan
kişi ürəyini tutdu-
Sakitcə dəyişdi dünyasını.
Qohum-əqrabanın
Şəhərdə gücü çatmadı,
kəndə saldılar yasını.
Dedilər orda mollalar
ucuz oxuyur "yasin"i
...Kənddə doğulmuşdu,
kəndə qayıtdı.
Üstündə gəzdiyi torpağın
altına gömüldü.
Bu da bir ömürdü...
Ürəyindən gedən kişi
Ürəyincə yaşamadı bu dünyada-
Allah o dünyasını versin...
Amin!
Ya rəbbil-aləmin.

AĞLAYANA AĞLA, KÖNÜL

Ağlayana ağla könül,
Gülmə gülənin gününə.
Bu dünya bir bilməcədir,
Düşmə bilənin gününə.

Bar ağacı bəhs eyləməz,
Dolu çəllək səs eyləməz.
Bu azadlıq bəs eyləməz
Mən tək kölənin gününə.

Misra-misra ürək oydum,
Qəmdən bezdim, dərddən doydum.
Sürünməkdən qabıq qoydum-
Düşdüm ilanın gününə.

Gedən kəsləri bu şəhər
Yola salır axşam-səhər...
Qalan qalacaq birtəhər,
Yazıq ölənin gününə.

TƏSƏLLİ

Ələnir külli-bəşər-
Yer kürəsi ələkdir.
Ölümdən qorxma, canım,
Əzrayil də mələkdir.

Gedəsi insanları
Əcəl aparıb gedir.
Ruhlar məmləkətinə
Ruhumuz varıb gedir.

Bilmək olmur insana
Nə doğmadır, nə yaddır.
Ölümə yoxluq demə-
Ölüm də bir həyatdır.

XALQ ŞAİRİ QABİLƏ

Bir qala yapıbdır söz qürurundan,
Bu qala qalandır-nə bildi Qabil.
Yoğrulub göylərin günəş nurundan
Xalqının qəlbinə səpildi Qabil.

Bir sözü keçibsə yeddi qatından,
Bir sözü qalmayıb zarafatından.
İllərlə düşməyib ilham atından
Sevildi, oxşandı, öpüldü Qabil.

Keçdiyi yolların dağı-düzü var,
Onun öz gecəsi, öz gündüzü var.
İşıqlı ürəyi, nurlu üzü var,
Hər zaman hər şeyə qabildi Qabil.

BİR ŞƏHİDƏM

Bu dünyanı görə bilən
Eynəyimi verin mənə.
Gecəyarı yar qapısı
Döyməyimi verin mənə.

Söz ilişib lal vaxtıma,
Zəhər düşüb bal vaxtıma.
Siz gülməyin kal vaxtıma-
Dəyməyimi verin mənə.

Bu dağların gəlməz yazı,
Bu çayların yox avazı.
Qürurumla qurravazı
Əyməyimi verin mənə.

Ərzurumdan keçdim Qarsa,
Qar az qaldı məni qarsa.
Alın, gedin nəyim varsa-
Göynəyimi verin mənə.

Mənəm cansız, mənəm canlı,
Gecə-gündüz həyəcanlı...
Bir şəhidəm-qızıl qanlı
Köynəyimi verin mənə.

1999

DÜNYADI

Vətən-nalə, yurd-nalə,
Ərşə çıxıb dərd,nalə.
Öz atını dördnala
Çapa bilən dünyadı.

Yıxılsan, sağ- solundan
Kimsə tutmaz qolundan.
Adamları yolundan
Sapa bilən dünyadı.

Doyub dərdi-sərindən
Bir ah çəkdim dərindən:
- Gedənlərin əlindən
Qopa bilən dünyadı.

Bağlasan da bacanı
Dərd ovacaq bu canı.
Dünyasından qaçanı
Tapa bilən dünyadı.

Ucaldığım pillələr
Bir gün məni güllələr...
Kəllələrdən qüllələr
Yapa bilən dünyadı.

HACI SABİR HƏSƏNLİYƏ

Qoyuruq arxada qarlı qışları,
Təsəlli çiləyir yaz yağışları.
Görmək istəmirik yır-yığışları -
Ömür əldən gedir, gün əldən gedir.

Ulduz yiyələnir hilal yerinə.
Zəhər qaba girir zülal yerinə.
Haramı qoyurlar halal yerinə,
Beləcə bərəkət,bin əldən gedir.

Tamahın taxtına fironlar çıxır,
Şəhid zirvəsinə ərənlər çıxır -
Ömrünü bu yurda verənlər çıxır,
Eldən gedən oğul min əldən gedir.

İndiki dövranın küləyi başqa,
İndiki süfrənin çörəyi başqa,
İndiki insanın ürəyi başqa -
Millət əldən gedir, din əldən gedir.

1991

TAPMADIM

Dolandım didilmiş məmləkətimi
Qartalı şığıyan bir dağ tapmadım.
Zümrüd meşələrin səhra yerində
Yuvamı qurmağa budaq tapmadım.

Qurğuşun əridən körüklər gördüm.
Dönüklər əlindən periklər gördüm.
Malıma, mülkümə şəriklər gördüm,
Dərdimi bölməyə ortaq tapmadım.

Bulud laylarıdır başımın üstü-
Buludlar dərdimin gəzəri büstü.
Dünyada anamın qoynundan isti
Mən körpə özümə qundaq tapmadım.

İnsan nə balıqdır, nə də ət kimi,
Cəsarət sayılır cinayət kimi.
Gəzdim yer üzünü, bu millət kimi
Millətlər içində yaltaq tapmadım.

Nadandan söz aldım yara yerinə,
Qəm-qüssə qazandım para yerinə.
Yetişdim bostanın ura yerinə;
Əlim boşa çıxdı-bir tağ tapmadım.

1992

HƏYAT SAVAŞ DEMƏK

Zirvəsi qartallı dağlaradan soruş
Dərənin ömrünü, düzün ömrünü.
Həyat savaş demək, yaşamaq-yarış,
Əyrilər talayır düzün ömrünü.

Yaşayır dünyada hər növ olanlar,
Bir evdən ayrılıb ev-ev olanlar.
Bütün ömrü boyu bütöv olanlar
Uzadır çörəyin, duzun ömrünü.

Meşə ağac-ağac çəkilir dala,
Kəsilən palıda ağlayır tala.
Zirvələr sultanı məğrur qartala
Allah göstərməsin quzğun ömrünü.

Kim deyir hər eşqin sonu vüsaldır?
Hicran aralıqda dəmir hasardır.
Elə insanların özü qısaldır
Binəva insanın uzun ömrünü.

Gülən çox dünyanın düz adamına,
Hərə sahib çıxır öz adamına.
Mən də çevrilmişəm söz adamına
Beş kəlmə uzadım sözün ömrünü.

CAVİDİN MƏQBƏRƏSİ ÖNÜNDƏ

O illərdə əfəndim,
Sən hardaydın, biz harda?
Necə duruş gətirdin
Sibir adlı məzarda?
Ruhunu sıxmadımı
Qürbət adlı dar məzar,
Divarları qar məzar?
Vətənin həsrətilə
Sümüklərin üşüdü.
Bir gün döndün VƏTƏNƏ-
Bu, Tanrının işidi...
Gətirdilər nəşini
Uzaq-ucqar Sibirdən.
Hər yanı qar Sibirdən.
Qovuşdun Ana Yurda,
Qarışdın torpağına.
Bir təsəlli çilədin
Cavidsizlik dağına.
Torpağın alt qatında,
Zamanın üst qatında
Uyuyursan haçandır.
Bu-doğma Naxçıvandır...
Hələ Sibir soyuğu
Çıxmayıbdır canından.
Həsrətə ağı deyən
Araz axır yanından.
Ağ mərmərdən yapılan
Nur biçimli odan var,
Darıxmazsan, əfəndim,
Yanında el-oban var.
Mələklər hifz eləyir
Məqbərəni, türbəni.
Nəsil-nəsil yaşadıq
Sənə dəyən zərbəni.

...Dönəndə çərxi-dövran
Şər xeyiri əyirmiş,
Xalqa atılan güllə
Şairinə dəyirmiş...

ARAZ BOYUNDA

Alim dostum Məhərrəm Cəfərliyə

Araz boyu uyuyurdu Naxçıvan,
Bir niskilin hücrəsinə toxundum.
Mən Arazı gördüm elə yaxından,
Əl uzatdım məcrasına toxundum.

Qövr elədi ürəyimin yarası
Boylandıqca məftillərin ucuna.
Zaman-zaman qınamışıq Arazı,
Bu Arazın günahı nə, suçu nə?

Günəş deyil, mən batırdım qürubda,
Sərhədləşən Xan Araza baxırdım.
Xəyalımda bir məmləkət qurub da
Son arzuya, son muraza baxırdım.

Araz boyu uyuyurdu Naxçıvan,
Gözüm qaldı o tayıma dikili.
Ulu tanrım, bəs hardadır haq-divan,
Bir millətin ömrü niyə ikili?

NAXÇIVANIN DAĞLARI

Əfsanədi, əsatirdi,
Boz varaqda göy sətirdi-
Naxçıvanın dağları.

Üz-üzədi, diz-dizədi,
Özü boyda möcüzədi
Naxçıvanın dağları.

Dumanı, çəni saxlayar,
Ötüb-keçəni saxlayar-
Naxçıvanın dağları.

Başı bulud çətirlidir,
Yazda, qışda ətirlidir
Naxçıvanın dağları.

Kölgəsi düşmən incidir-
Sərhəd boyu keşikçidir
Naxçıvanın dağları.

Naxçıvan, 2004

AVTOPORTRET

Tanrım özü rüsxət verdi
Bir gün anadan olmağa.
Təzə qanla mən başladım
Başdan, binadan olmağa.

Böyüdükcə yandı içim,
Həyat dedi oddan keçim.
Çox şeylərə çatdı gücüm,
Çatmadı nadan olmağa.

Dilə gəlib ürək dindi:
Məyər bu da ömür-gündü?
"Adamlardan" qaçıb indi
Gedirəm adam olmağa.

MƏZARINA BAŞ ÇƏKƏN İNSAN

Sağ ikən qəbir yeri götürüb özünə adsız
abidə qoyan bir nəfərə

Hərdən "məzarına" salıb yolunu
Başdaşın önündə baş endirirsən.
Doyunca ağlayıb ölən gününü
Buludlu gözündən yaş əndərirsən.

"Məzarın" üstünə hər gəlişində
Sən gül gətirirsən,çiçək əkirsən.
Öləndən sonrakı xiffəti, dərdi
Elə bəri başdan özün çəkirsən.

Beləcə dönürsən quru budağa
Torpağı nəmişli yaş qəbir üçün.
Bəzən də pul verib fağır mollaya
Yasin oxudursan boş qəbir üçün.

Səni qınamıram,ay vətən oğlu,
Görünür öz arzun, öz niyyətin var.
O biri dünyanın astanasında
Qəm yemə, xüsusi mülkiyyətin var.

Bilirdin bahadır axirət evi,
Sən onu almısan zülümnən, qardaş.
Yerin var, yurdun var uyumaq üçün,
Qorxma bu dünyada ölümdən, qardaş...

MÜƏMMA

İlğımların yatağına ilişdim -
Boğdu məni bozqırlarda boğanaq.
Bu dünyanın arşınına girişdim-
Örkənindən uzun çıxdı doğanaq.

Kim deyər ki, ürəyimiz daş deyil?!
Şübhəm var ki, gözüm üstdə qaş deyil...
Başın haqqı baş açası baş deyil-
Çiynimizdə göyəribdir sağanaq.

Xəyal məni çox uzaqdan keçirir,
Güllü bağdan, qarlı dağdan keçirir.
Bəndəsini yüz sınaqdan keçirir
Göy üzündə günəş kimi doğan haqq!.

"ŞÜBHƏLİ ADAM"

Metroda məni də saxladı polis-
Bağlandı üzümə getdiyim yol-iz,
Bərabər tutuldum cinayətkara,
Düşündüm mən hara, cinayət hara?!

Yapışdı qolumdan yekəpər çavuş
Oğulsan bu yersiz bəladan sovuş.
"Tanışlıq" başladı cibimdən mənim-
Əlini vuranda əsdi bədənim;

Qorxdum ki, cibimdən nəsə çıxara,
Şeir əvəzinə nəşə çıxara.
Yoxlama çatanda sonuncu həddə
Dedi:-bax, tapmıram narkotik maddə,
Bu boyda hörmətə bir hörmət elə,
Biz də çörək üçün düşmüşük çölə...

Mən susdum-başıma vurmuşdu hirsim;
Beləsi batırır xalqın adını.
Torpağı tapdaqda qalan polisim
Ciblərdə aparır "kəşfiyyatını".

Hamı "çörək üçün" atılıb oda,
Bilmirəm günahkar kimdir əslində.
Polisi şübhəli olan metroda
Saxlandım "şübhəli adam" qismində.

ÜRƏYİM

Gecələr özümlə qalıb baş-başa
Bircə mən oluram, bir də ürəyim.
Köksümdən oyulmuş pəncərə kimi
Açılır kədərə, dərdə ürəyim.

Hərdən peşman olur öz əməlindən,
Hərdən düşmən olur düz əməlindən.
Hərdən balıq kimi çıxır əlimdən-
Şütüyür Arazda, Kürdə ürəyim.

Bəzən də boğulur-nəfəsi çatmır
Dənizi, dəryası, körfəzi çatmır.
Elə bil yaşamaq həvəsi çatmır,
Darıxır ürəksiz yerdə ürəyim.

Ürəyi yumşaqlıq alın yazımdır-
Ay Adil, bu xislət kimə lazımdır!
Mənim öz başıma öz qapazımdır
Yumruğa bənzəyən girdə ürəyim.

2003

ÖZÜNƏ QALDI

Bu dünyanı zil qaranlıq
Görməyin özünə qaldı.
Qürrələnib qanadını
Gərməyin özünə qaldı.

Bir calaqsan qandan qana-
Göyərmisən handan-hana...
İblis kimi dondan dona
Girməyin özünə qaldı.

Sənin üçün olub asan-
Göydə günəşi danasan.
İpdən açılmış danasan,
Kürməyin özünə qaldı.

Ona-buna axşam-səhər
Fənd qurursan sən birtəhər.
Çölü şəkər, içi zəhər
Dürməyin özünə qaldı.

Çatmır sənə həyat eşqi-
Nəzərində həyat heçdi.
Köç buruldu, karvan keçdi,
Hürməyin özünə qaldı.

2002

BU ÜRƏK Kİ MƏNDƏ VAR

Xəbislər, naqislər çıxıb qarşıma
Soyuq su tökürlər isti aşıma.
Çox şeylər gələcək hələ başıma-
Bu ürək ki məndə var.

Altda bir daş oldu, üstündə bir daş-
Yenə də tapıldı sirrimə sirdaş...
Dəyişə bilmərəm özümü, qardaş,
Bu ürək ki məndə var.

Yolumuz gah dağdan, gah düzdən keçər,
Ömrümüz gecədən, gündüzdən keçər.
Üz vursan çox şeyə çox üzdən keçər-
Bu ürək ki məndə var.

Hər kəsə bəllidir ünvanım, adım,
Mən belə doğuldum,belə yaşadım...
Elə öz atama gəlib oxşadım-
Bu ürək ki məndə var...

2002

FƏRİDƏ LƏMAN

Özünə bir ömür seçdin əbədi,
Çəkdi ağuşuna şerin məbədi,
Sözün dərgahına gətirdin iman-
Fəridə Ləman!

Misralar közərir qəlb ocağında,
Şeirdən ucalıq uman çağında
Dövran dönük çıxdı,dəyişdi zaman-
Fəridə Ləman!

Şair çiçəkləyər dərdin qarında,
Sevin ki xəyalın qanadlarında
Uçmağa göyün var, süzməyə səman-
Fəridə Ləman!

Bu ömür yoludur- dolanbacı var,
Dolanbac yollarda ağrı-acı var.
Ağrısız insandan aman, əl-aman,
Fəridə Ləman!

Bəxtindən küsməmiş barışan bacım,
Olmasın ovqatın pərişan,bacım,
Gün gələr yolundan çəkilər duman-
Fəridə Ləman!

TANRI DAĞLARINDA BİR ŞAMAN GÖRDÜM

Tanrı dağlarının ağ zirvəsində-
Dağların ən uca mərtəbəsində
Bir ocaq yanırdı-şaman ocağı,
Uzaqdan tanıdım həmən ocağı...
Ocağın başına dönürdü şaman,
Alışıb yanırdı, sönürdü şaman.
Dodağı altında nəsə deyirdi,
Dediyi sözləri kəsə deyirdi.
Yəqin danışırdı ruh dilində o-
Adəm dilində o, Nuh dilində o...
...Tanrı dağlarında bir şaman gördüm,
Zamanın içində mən zaman gördüm.

İssık-göl, 1995

GÖRƏN

Dənələyib sünbülü
Külək nə sayır görən?
Döyünüb aram-aram
Ürək nə sayır görən?

Odunum yaş-alışmır,
Ürəyim daş-barışmır.
Qarış işə qarışmır,
Çərək nə sayır görən?

Qaynamırsa qazanı
Qınama yol azanı.
Dara çəkib insanı
Çörək nə sayır görən?

Tamahda yox tayımız,
Gülüncdür ah-vayımız...
Bəllidir öz sayımız,
Fələk nə sayır görən?..

EŞİDİN, BİLİN ƏRKİMİ

Döy dizinə, döy başına,
Güləcəklər göz yaşına.
Öz doğmaca qardaşına
İndi qardaş ərk eləmir.

Savaşlarda mən qurd oldum,
Barışlarda Qorqud oldum.
Birdən-birə manqurt oldum-
Bu söz məni tərk eləmir.

Eşidin, bilin, ərkimi:
Yaşayın, ölün ər kimi...
Mən düşünən türklər kimi
Tarix bizi türk eləmir.

İlğımda vadi deyiləm,
Məhəmməd Hadi deyiləm.
Nə desəm adi deyirəm-
Millət məni dərk eləmir.

ÜZÜ DAN ÜZÜNƏ BƏNZƏYƏN ŞAİR

Ölməz Cabir Novruza elegiya

Bu qar havasından ayrılıq yağır,
Dilim topuq çalır, ürəyim əsir.
Üzü dan üzünə bənzəyən şair,
Yenə görüşünə millət tələsir...

Məclislər açardın-söz verib bir-bir,
Bəs niyə dinmirsən öz məclisində?
Üzü dan üzünə bənzəyən şair,
Şam kimi yanardın söz məclisində.

Şairi sükuta bələnən xalqın
Özü boynubükük, fağır olurmuş.
Dərdini içində çəkən insanın
Tabutu nə qədər ağır olurmuş...

Sonuncu mənzilə yola düzəldin-
Bu kədər karvanı yolları əyir.
Səni dan yerinə tapşırıb gəldik,
Üzü dan üzünə bənzəyən şair.

Göylərə çəkilən yer oğlu deyil,
İlham mələklərə bağlıdı, qardaş.
Şairlər eləcə "eloğlu" deyil,
Şairlər Allahın oğludu, qardaş!

Səni dan yerinə dəfn elədik biz,
Üzü dan üzünə bənzəyən şair.
Atəşi sönməyən bir ulduz olub
Sabah deyəcəksən:-Sabahın xeyir!

2002

İNDİKİ ZAMAN

Təzəni tapınca köhnə süzülür,
Yamaqlar vurulur yamaq üstünə.
Göynəyir kasıbın bağrının başı,
Göz yaşı yol çəkir yanaq üstünə.

Nə bilir qəm nədir kefin yiyəsi,
Düzlə düz gələrmi səhvin yiyəsi.
Baxır pəncərədən evin yiyəsi,
Köpək hücum çəkir qonaq üstünə.

Yoxdur yaxşılığa heç əli gələn,
Arxadan vurandır irəli gələn.
Çoban neyləsin ki, əcəli gələn
Keçilər sürtünür çomaq üstünə.

Dərdimiz başlayıb başdan aşağı,
Ömrümüz əllicə yaşdan aşağı.
Qazmağı qoyublar aşdan aşağı,
Soğanı töküblər sumax üstünə.

Dəyişib çərxini bu gərdiş daha,
İş bilən insana yoxdur iş daha.
Kiçilir kainat, artır iştaha
Tamah qalandıqca tamah üstünə.

1991

SAXTADI

O çaylar çay deyil, ilğımdı yəqin,
Gözümə görünən duman saxtadı.
Özümün özümə yazığım gəlir,
Vallah, ürəyimə daman saxtadı.

Koramal dedilər əfi ilana,
Aldanıb əl çaldım məni çalana.
Haqqı görə-görə uydum yalana,
Dövran belə gəlib, zaman saxtadı.

Məşhədə gedirlər, Həccə gedirlər,
Heç nəyi almayıb vecə gedirlər.
Gedənlər bilir ki, necə gedirlər,
Allah dərgahına iman saxtadı.

Mən belə bilməzdim kürreyi-ərzi,
Ay Adil, "düz" olub hər şeyin tərsi.
Bizə ömür adlı don biçən dərzi,
Bərq vuran bu libas yaman saxtadı.

1993

QIŞ GECƏSİNİN TRİLOGİYASI

I

Qələmimdən süzülən sözlər
qara cığır açammadı
ağ varaqda.
Gözüm qaldı çilçıraqda.
Gördüm tərpənir
işıq haləsi.
Titrəyir sarı işığın
büllur göz qapaqları.
Belə deyildi qabaqları...
İndi hər gün zəlzələdir -
Sakit yaşamaq olmur,
tükənib o imkanlar.
Yelləyir məni
xırda təkanlar.
Yelləyir nənni kimi,
bağırıram, səsim çıxmır-
səsi olmayan müğənni kimi.

II

Gilas yetişib, tut dəyəndə
Söyüdün barsızlığını
üzünə vurmadım.
Zirvəyə gedən yolda
dizin-dizin süründüm-
dizimə vurmadım.
Bu yolların sazağında
çoxu söndü,
çoxu sındı.
Qurd gözünün alovunda
ardıcların şaxı sındı-
Gilə-gilə əridi qar,
selə dönüb yeridi qar.

Gecəyarı
geyib qarı
ulayan qurd çəkdi yaxına
yaxınları, uzaqları...
Ay işığı altında,
qaranlığın birinci qatında
bir ağ kölgə peyda oldu-
qurd kölgəsi.
Bu kölgənin işığında
parıldadı Atillanın dəbilqəsi.
Sonra uçub getdi
uçan boşqablar kimi.
Bu qarlı gecədə
ağardım qar kimi...

III

Bu zülmətdə,
zinirikdə
adam adamı tanımaz.
Çöldəki qışın
şaxta-lazeri ilə
Kəsilən qulaqlar qanamaz.
Bu qarda qarsalanan
qarın ağlığında azar-
Azan ayaqları ilə
İkicə misra yazar...
Bu zülmətdə,
zinirikdə
adam adamı tanımaz.
Bir çıraq gərəkdir-
Diogen çırağı.
Günün günorta çağı
əlində çıraq
Adamlar içində
insan axtaran
Diogen!
Bilirəm, göydəsən,
yerə en!
Yaxın gəl, yaxın,
bəri tut o çırağı
özümə baxım-
Özüm üçün yaman darıxdım, of!..
... Hardan yadıma düşdün, qoca filosof...

28 dekabr, 2002

DƏVƏSİ ÖLMÜŞ ƏRƏB

Ay dəvəsi ölmüş ərəb,
Niyə öldü dəvən sənin?
Sarı səhradan keçirsən
Əynində ağ kəfən sənin.

Ölmüş dəvə-kəsik başın,
Ərşə çıxdı qan-qarğışın...
Pozuldu ilmən, naxışın-
Arğac kəsdi həvən sənin.

Səhra sonsuz, yollar uzun-
Qəsdinə bax bu qansızın...
Yol gözləyir oğlun, qızın,
Yol gözləyir nəvən sənin.

Ay dəvəsi ölmüş ərəb,
Asi düşsən çalar əqrəb...
Dön qibləyə, de ki, ya rəb,
Yoxdu mən tək sevən səni!..

2002

BÖLGÜ

Bu dünyanın
Adamları bölüb yer üzünü,
quşları bölüb göy üzünü,
balıqları çaylarını,
timsahları dənizini.

Son mənzilə köçənlərə
axirət satılır-
yaman bahadır məzarlıq...
Düşünür kasıb-
Bir aylıq qazancı bir səbət bazarlıq,
Di gəl yaşa,
di gəl öl!

Gözlərimin önündə
ağac kökündən quruyur,
dəniz dibindən quruyur,
kasıb cibindən quruyur,
Dilin qurusun, qarğış yiyəsi!

YAŞAMAQ OLMUR

Dünyanın damarını
Tutub yaşamaq olmur.
Vallah abır-həyanı
Atıb yaşamaq olmur.

Bu sənətin özü nə?-
Əzab qalır özünə...
Gecəni gündüzünə
Qatıb yaşamaq olmur.

Bir az soyuq olmasan,
Bir az sıyıq olmasan,
Ayıq-sayıq olmasan
Yatıb yaşamaq olmur.

Hamı çəkir kefini-
Alan, satan sevinir...
Fəqət ata evini
Satıb yaşamaq olmur.

Haçandır dərdim, qəmim
Kəsilib mənə qənim.
Dəryada batıb gəmim,
Batıb yaşamaq olmur.

Nə deyəsən batmışa,
Gözü açıq yatmışa.
Bir ömürdə altmışa
Çatıb yaşamaq olmur.

2003

BU MƏNİM QATARIM DEYİL

Nə mən vardım, nə sən vardın-
Adəm, Həvva var olanda.
Başa düşdük ömür keçib-
Saçlarımız qar olanda.

Həyat yoxuş-yeniş oldu,
Dünya gəliş-gediş oldu.
Ürəyimiz geniş oldu
Mənzilimiz dar olanda.

Paxırlara qalay yapdım,
Paxıllara saray yapdım.
Mən qışqırdım, haray yapdım
Adamlar lal, kar olanda.

Bir belə molla yox idi.
Bu qədər villa yox idi.
Var-dövlət vallah yox idi-
Namus, qeyrət, ar olanda.

Əyri dünya tarım deyil-
Bu mənim qatarım deyil...
Yarım mənə Tanrım deyir
Tanrı mənə yar olanda.

2003

MƏNİM ÜRƏYİMƏ YAXIN ADAMLAR

Ömür- gün yüküdür, tale qəhridir
Mənim ürəyimə yaxın adamlar.
Özləri bilmədən məni qəhr edir
Mənim ürəyimə yaxın adamlar.

Yolunda yandığım niyə yan keçir?
Bizimki damardan eyni qan keçir...
Yaxına gəlməyib uzaqdan keçir
Mənim ürəyimə yaxın adamlar.

Sinəmi dərd ilə silələdilər,
Bağrımı yandırıb kül elədilər.
Məni ürəyimdən güllələdilər
Mənim ürəyimə yaxın adamlar.

YARIMÇIQ

Niyə yetişməmiş, niyə dəyməmiş
İnsanı bu torpaq uda yarımçıq.
Hələ harayımız göyə dəyməmiş,
Haqqa körpü salan səda-yarımçıq.

İstər ulduz yağdır, istərsə gün düz
Sən görə bilməzsən yolları dümdüz.
Yarısı gecədir, yarısı gündüz-
Dünya dediyimiz oda-yarımçıq.

Soy adım boylanmır son adımızdan,
Qandallar asılır qanadımızdan.
Beləcə dönürük inadımızdan,
Yanırıq atəşə, oda yarımçıq.

Kölə olduğunu bu kölə bilmir,
Quruyan arxına su gələ bilmir.
Vətən bütövləşib dikələ bilmir
Yurdu gətirdikcə yada yarımçıq.

Yarpaq açılmasa xəzəli yoxdur,
Sonu olmayanın əzəli yoxdur.
Şahmayı balığın Xəzəri yoxdur,
Yarımcanlılar var suda yarımçıq.

Odu qoruyanın sönməz ocağı,
İstəsən göyərər səhra bucağı.
Əgər yarımçıqsa oğul-uşağı
Ana yarımçıqdır, ata yarımçıq.

Bu dəli ilhamın azğın çağında,
Bu qaynar ürəyin qızğın çağında,
Qana qaçan qəmin quzğun çağında
Vermərəm ömrümü bada yarımçıq.

YAŞIL HARAY

Təbiət ayrılıb öz məhvərindən,
Əriyir buz qatı okeanların.
Araz aşmaq istər Xudafərindən,
Xəzər daşqınıdır nahaq qanların.

Pozulub nizamı, itib ülgüsü-
Yerimiz, göyümüz tanınmaz olub.
Dəyişib meşənin ağac düzgüsü-
Yaz qışa oxşayır, qışda yaz olub.

Quruyur bulaqlar, batır kəhrizlər,
İnsanlıq ayılmır fil yuxusundan.
Çoxalır günbəgün ölü dənizlər,
Balıqlar boğulur suda susundan.

Qovurur torpağı günəş yağışı,
İlğıma çevrilir yaşıl bağ-bağat.
Qocalar deyinir hər addımbaşı:
-Dəyişib təbiət, dəyişib həyat...

Biz hara gedirik-haray salan yox,
Tapılan günü var itən çayların.
Bir də görəcəyik olan-qalan yox,
İzini gəzirik ötən ayların...

Ağac öz kökündən qopsa odundur,
Daş qaya bağrında canlıdı vallah.
Hünərin çatırsa di gəl ovundur-
Təbiət insanla qanlıdı vallah.

QƏLBİMİN SELİYƏM, GÖZÜMÜN GÖLÜ

Mən öz ürəyimdən başlayan seləm,
Ürəyim təntisə selim səngiyər.
Vaxtını itirmir vaxtında ölən-
Həyat şirin olsa ölüm ləngiyər.

Mən öz gözlərimə yığışan göləm-
Gözümə yığmışam ağrı-acımı.
Bilmirəm nə üçün yarandım belə-
Ağrıyan ürəyim ağrı acımı?

Qəlbimin seliyəm, gözümün gölü,
Gör hardan başlayıb, harda bitirəm.
Mən də bu aləmdə bir novruzgülü-
Baharın eşqiylə qarda bitirəm...

***

Olumdan ölümə gedən yolda
min dəlil, min fakt.
Özüm yaşa dolduqca
Qocalır köksümdə infarkt.

Haçansa məni çalası
Bir ilan bəsləyirəm sinəmdə.
Geriyə dönməkmi var
bu dönəmdə?!

Gedirik irəli,
yalnız irəli!
Ölüm bizə yaxınlaşmır,
Biz ölümə yaxınlaşırıq deməli...

YIXILMIŞAM ÖZ İÇİMDƏN

Dopdolu sünbül kimiyəm,
Küləklər sovurur məni,
Dənələyib dənə-dənə
Sac üstdə qovurur məni.

Bu qiyafə, bu biçimnən
Boylanıram söz içindən.
Yıxılmışam öz içimdən,
Tale təzdən qurur məni.

Ürək dönüb daş yumağa-
Gücüm çatmır daşımağa.
Vallah qoymur yaşamağa
Bu şahanə qürur məni.

Nə umasan yalan gündən,
Qürub çağı solan gündən?
Sahildə tək qalan gündən
Qasırğalar vurur məni.

BİR GÜN QİYAMƏT GÜNÜ VAR

Yer üzündə yer qalmayıb
Ölənləri dəfn etməyə.
Zülm etməyə hazır insan
Öyrəşməyib rəhm etməyə.

Dilənçilər, milyonçular...
Dünyanın təzadına bax.
Köhnə acın, yalavacın
Sən bir təzə adına bax.

Yerdə yeriyə bilməyən
Qanad açıb göylə gedir.
Çox görmüşük beləsini-
Hayla gəlib küylə gedir.

"Müsəlmanam" deyən kəsin
Nə imanı, nə dini var.
Düşünən yox bu dünyanın
Bir gün qiyamət günü var.

1992

VARLILAR, KASIBLAR

Varlılar köçəri quşa bənzəyir,
İsti ölkələrə uçub gedirlər.
Millət dar ayaqda ələnir bir-bir,
Yurdu sevməyənlər qaçıb gedirlər.

Kasıblar vəfalı sərçə kimidir-
Torpaqdan ayrılmaz, daşdan ayrılmaz.
Bilməz ki, vətənin sazağı nədir,
Ona qılınc çəkən qışdan ayrılmaz.

1992

SUALLI MİSRALAR

Başımı götürüm hayana gedim-
Dünyanın hər yeri beləmi görən?
Bu ömür qısaldan ömür-gün yükü
Hamının çiynində şələmi görən?

Yerimiz yer üzü yaxşı-yamanlı,
Dünyaya gəlirik bəxtə gümanlı.
Niyə gözlərimə dəyir dumanlı-
Səadət bürünüb tüləmi görən?

Şeytan bazarında şər satan çoxdur,
Qəpiyə-quruşa ər satan çoxdur.
Torpağa nırx qoyub yer satan çoxdur-
İnsanlar hələ də köləmi görən?

Deyirlər özünə təzə peşə seç,
Hamının keçdiyi bu körpüdən keç...
Tərəzi qulpundan yapışarmı heç
Sözdən saray yapan qələmi görən?

Mən külə dönəsi ocaq deyiləm,
Tumurcuq tutmayan budaq deyiləm.
Tanrımın gözündən uzaq deyiləm-
Məni yaxşı görür aləmi görən.

1993

TƏZADLI MİSRALAR

Böyük imarətlər yapılan yerdə
Divarı torpaqdan daxmalar da var.
Ömür bəzəyidir minnətsiz çörək,
Boğmaya çevrilən loxmalar da var.

Ağarar gecəsi qara qulun da,
Sağaldan gücü var bir "sağ ol"un da.
Yananlar "uf" deməz haqqın yolunda,
Nahaqdan yandırıb-yaxmalar da var.

Alovlar nə qədər, odlar nə qədər.
İşıqlı, kölgəli adlar nə qədər.
Doğmalar içində yadlar nə qədər,
Yadların içində doğmalar da var.

ÜNVANSIZ ŞEİR

Ağrıyan ürəyin üstündə əsin-
Böyük ağrıların kökü dərində.
Gecəni yuxusuz keçirən kəsin
Dan üzü doğular bəbəklərində.

Doğular dan üzü-nurlanar dünya
Nurlu adamların baxışlarından.
Kədərli-kədərli fırlanar dünya
Asılıb bu payız yağışlarından.

VAXT ƏLƏNİR

Mən dünyaya göz açmışam
Sazla sözün arasında.
Çığır salıb, iz açmışam
Dağla düzün arasında.

Ömür gedir- ləpir qalır,
Vaxt ələnir, xəlbir qalır.
İnsana bir səbir qalır
Geclə tezin arasında.

Nə qədər namərd var imiş
O qədər də dərd var imiş...
Axirətdə fərq var imiş
Ağla bezin arasında.

Qəm qəlbimi silələyir,
Dərd köksümü kül eləyir.
Əcəl məni girələyir
Qaşla gözün arasında.

BİZ BİR OLSAQ

Dinimiz-bir,
Dilimiz- bir.
Ayağımız,
Əlimiz- bir.

Dinbir deyilik,
Dilbir deyilik,
Əlbir deyilik,
Deməli
Biz-bir deyilik...

"Heyratı"mız,
"Cəngi"miz-bir.
Tale eyni,
Rəngimiz- bir.

Ayrı-ayrı zərrəsiyik
Bir Günəşin.
Birləşib Günəş olmağı
Fikirləşin...fikirləşin...

1993

VƏTƏN MƏNƏ QÜRBƏT OLDU

Qoca dünya allı-güllü nağıldı,
Bu nağıla inanmayan oğuldu...
Yurdum yandı, xanimanım dağıldı,
Zəhər mənə "şərbət" oldu içəmmi?

O atlılar indi atdan düşübdür,
Dil hörmətdən, ağız daddan düşübdür.
Sənət gözdən, söz urvatdan düşübdür,
Ömrüm-günüm bərbad oldu-heçəmmi?

Möhtəkirin, rüşvətxorun sayı yox,
İşbazların, aşbazların tayı yox...
Adam gördüm adamlıqda payı yox,
Vətən mənə qürbət oldu köçəmmi?

GÖRÜNMƏZLİK

Göy üzündə sonsuz sayda
Görünməyən ulduzlar var...
İynə ulduzu boyda
İşığını, şəfəqini
Biz görmürük.

Üzü gündoğan tərəfə
Boylanırıq neçə dəfə
Üfüqlərin üfüqünü
Biz görmürük.

Ana bətnində uşağa
Həyat qabaqcadan bəlli-
Ölümdən o yana nə var
Biz görmürük.

Zaman-zaman ağlımızla,
Gözümüzlə öyünsək də,
Özümüzlə öyünsək də
Çox şeyləri düz görmürük.
Günəşdən savayı günəş
Bəlkə də var- biz görmürük...

O - SƏN, BU - MƏN

Mənim qəm karvanım daş yoldan keçir,
Sənin kef karvanın baş yoldan keçir.

Yağlı dilim yoxdur-həsrətəm yağa,
Sən məddah çörəyi yeyirsən ,qağa!

Kiminin ürəyi, kiminin çibi,
Sənə də qismətdir boşqabın dibi...

Yarınmaq, yalmanmaq missiyan olub;
Bundan bu millətə nə ziyan olub?!

Elə sən özün də "el adamı"san,
Əkinçi, biçinçi, çöl adamısan.

Apardı naxırçı dədəni həyat,
Başladı sənin çün mədəni həyat...

İndi böyüklərin böyük qulusan,
Simlərə tazənə vuran qolusan.

BİRİSİ VAR

Şahmar ilan kimi fısıldayar o,
Tökər zəhərini yüzünün üstə.
Nadanın davası on qarış yerin,
Beş arşın ağının, bezinin üstdə.

Hərədən bir təzə söz alıb gedər,
Qalmaqal olmasa sozalıb gedər.
Arvadı ayaqda toz olub gedər,
Mə"şuqə dırmaşar gözünün üstə.

Nə mərfət anlayır, nə ayıb qanır,
"Təmizəm" söyləyib özünü danır.
Onun əvəzinə çörək utanır-
Namərdin çörəyi dizinin üstdə.

Ürəyi çay daşı, sinəsi qəfəs,
Çatmır ciyərinə aldığı nəfəs.
Hamıya kişilik dərsi verən kəs
Kişitək durmayır sözünün üstdə.

Piy tutan qarnını tutmur qucağı-
Özgə çırpısıyla yanır ocağı.
Baxır özünə də üstdən aşağı-
Özü dayanıbdır özünün üstdə.

BELƏSİNİ GÖRMƏMİŞDİM

Gözü göydür, dişi seyrək-
Beləsini görməmişdim.
Sinəsində vurmur ürək-
Beləsini görməmişdim.

Hay verib harayçı olur,
Pay bölsələr payçı olur.
Dost arası qayçı olur-
Beləsini görməmişdim.

Adam barmağını dişlər:
Harda bitir bu qəmişlər?
Çox görmüşdüm görməmişlər,
Beləsini görməmişdim.

Səsi yoxdur, sədası var,
Boydan uca ədası var.
Dünyanın çox gədası var-
Beləsini görməmişdim.

Yaltaqlıqda geri qalıb,
Bir sümük, bir dəri qalıb.
Başda güllə yeri qalıb-
Beləsini görməmişdim...

YER ÜZÜ-ODLU KÜRƏ

Şərqdən Qərbə, Qürbdən Şərqə
İnsan köçü baş alıbdır.
İynə atsan yerə düşməz
Yerlər indi boşalıbdır.

Suçu nəymiş insanların,
İçi nəymiş vulkanların?
Acılmayan kurqanların
Üz-gözünü daş alıbdır.

Bu dünya öz avazında-
Sevgi var saz havasında.
Yatırıq yaz havasında,
Qapımızı qış alıbdır.

Yer üzü, odlu kürəsən-
Dəyişdin birdən-birə sən...
Mən hara köçüm görəsən-
Ömrü-günü yaş alıbdır...

DAVUD NƏSİB

Gözəlliyi gözlərinə
Yığıb getdi Davud Nəsib.
Dostu, doğmanı yandırıb,
Yaxıb getdi Davud Nəsib.

Hərdən qışıq, hərdən yazıq,
Dərdli köksüm qazıq-qazıq...
Mən yazığa yazıq-yazıq
Baxıb getdi Davud Nəsib.

Bu gördüyüm yuxumudur?
Çox niskili yuxum udur.
Şair şimşək çaxımıdır -
Çaxıb getdi Davud Nəsib.

O dumanlı yaz səhəri
Tapdı qəzavü-qədəri.
Qayıtmadı üzü bəri,
Çıxıb getdi Davud Nəsib.

Tələsdi yalqız olmağa,
Kəhkəşanda iz olmağa.
Bir tənha ulduz olmağa,
Axıb getdi Davud Nəsib.

AĞLARAM

Yaddan çıxmır dağlarımın düzümü,
Əsir düşən dağ, düzümə ağlaram.
Yurd yerindən itirdilər izimi,
Günü batmış gündüzümə ağlaram.

Yersiz tufan bar-bəhrəni heç elər,
Gecikən yaz yağışını gec ələr...
Bu həsrətdən çevrilərək gecələr
O üzümə, bu üzümə-ağlaram.

Başım üstdən çəkilmədi çən-dözdüm,
Düzüldükcə saçlarıma dən-dözdüm.
Nə dedilər mən inandım, mən dözdüm,
İçimdəki bu dözümə ağlaram.

Ulu babam Tanrısına Göy deyib,
Yer üzünü qılıncınla əy, deyib.
Gücüm yetər bir ona ki, hey döyüb
Gah başıma, gah dizimə-ağlaram.

Zirvələrdə qara rəngli qara bax,
Dağlarımın ağ çalması-qara bağ.
Əldən getdi, eldən getdi Qarabağ,
Ağı deyib mən özümə ağlaram.

DƏDƏ ŞƏMŞİR

Sən dağlardan ayrılmadın-
Yağdı leysan, Dədə Şəmşir.
Biz atıldıq ayrılığa,
Vurdu xəzan, Dədə Şəmşir.

Köçən ellər demə gülüb,
Gör bir fələk kimə gülüb?
Bir zamanlar qəmə gülüb,
Dərdi yozan Dədə Şəmşir.

Niyə daşdan daşa dəydik,
Zülm önündə boyun əydik?
Belə yazıb-nə biləydik
Yazı yazan, Dədə Şəmşir.

Bu əriyən qış deyil ha,
Axı ürək daş deyil ha.
Gözümüzdən yaş deyil ha
Qandır sızan, Dədə Şəmşir.

Yurdun varı, yoxu sənsən,
Gerçək olan yuxu sənsən.
Kəlbəcərin ruhu sənsən,
Ulu ozan-Dədə Şəmşir.

1993

GƏLMİŞƏM

Yurd yerində od-ocağım sönübdü-
Sac altında soyuq külə gəlmişəm.
Xəzan vurub baharımı, yazımı,
Bu çəməndə solmuş gülə gəlmişəm.

Şeh düşərdi, çən gələrdi oylağa.
Çay daşardı, sel gələrdi çaylağa.
Mil-Muğandan el gələrdi yaylağa,
O yaylaqdan indi Milə gəlmişəm.

Kəlbəcərim, gözdən uzaq gözəlim,
Öz boynuma qılınc vurdu öz əlim.
Belə getsə inanmıram düzəlim.
Dərdə qulam, zülmə kölə gəlmişəm.

Bəndə düşdüm, bənd-bərəni kəsmədim,
Tapdalandı ulu torpaq ismətim.
Bu da mənim alın yazım, qismətim-
Bu dünyaya mən də belə gəlmişəm.

Deyəcəklər biri vardı, biri yox,
Bir el vardı-ərəni yox, əri yox...
...Döyüş gərək, ağlamağın yeri yox-
Dərd əlindən vallah dilə gəlmişəm.

BU ÜRƏKLƏ

Sızladıqca, göynədikcə ürəyim
Duyğuların bitən yeri soyuyur.
Heç bilmirəm bu ürəklə neyləyim-
Nəğmələrin ötən yeri soyuyur.

Ağ yuxuda uyuduqca bu dünya,
Yaxşıları hey udduqca bu dünya,
İldən-ilə soyuduqca bu dünya
Adamların gedən yeri soyuyur.

Göyərmədi bu torpağın çəltiyi,
Ərimədi Murovun buz gədiyi.
Görünmədi qanlı tüfəng tətiyi...
İtginlərin itən yeri soyuyur...

Yanmış yurdum mənə baxıb "yan " deyir,
Bu zillətə dözə bilən can deyil...
Damarımda dövr eləyən qan deyil,
Ürəyimdə vətən yeri soyuyur...

1994

AĞLAMA, ANA TORPAĞIM

Duman qalxar, çən yeriyər-
Ağlama ,ana torpağım.
Sinən üstdə dən yeriyər-
Ağlama, ana torpağım.

Dağ göyərər, düz göyərər,
İtənlərdən iz göyərər.
Gecədən gündüz göyərər-
Ağlama ,ana torpağım.

Yollar qanlı ləpir oldu,
İsti qoynun qəbir oldu.
Nə ayrıldıq, nə bir olduq,
Ağlama, ana torpağım.

Yaraladı yad qılıncı -
Qəfil oldun xıncım-xıncım.
Sönər bir gün bu qığılcım,
Ağlama, ana torpağım.

Sən bilirsən- mayam səndən,
Rəngim səndən, boyam səndən.
Səngərimsən- qayam səndən,
Ağlama, ana torpağım.

Çevriləm inam yerinə,
Alışıb- yanam yerinə.
Dil deyib anam yerinə
Ağlama, ana torpağım.

1993

ALIN YAZIM

Gün soyudan göy meşələr itirdim,
Bu şəhərdə ağacım yox, kolum yox.
Dağlar özü ürəyimdən asılıb,
O dağlara gedib çıxan yolum yox.

Yanıb -sönən arzuların külüyəm
Öz qanıma yerikləyən zəliyəm.
Bu "dirilər" dünyasında ölüyəm-
Sağlığımda sağım yoxdur, solum yox.

Quzğunların başı leşə qarışıb,
İşsizlərin başı "işə" qarışıb.
Neçə sənət, neçə peşə qarışıb-
Bu qürbətdə vətən oğlu olum, yox?

Bir ümidli sabah varmı açmağa,
Daha məndə qanad varmı uçmağa...
Bir kimsəni qardaş deyib qucmağa
İndən belə o sarmaşıq qolum yox...

YAŞAMADIM

Bilməm neyləmişəm bu zalım fələk
Düşübdü mənimlə ləc-yaşamadım.
Ey həyat, verildin yaşamaq üçün,
Barı günahımdan keç-yaşamadım.

Torpağım silindi el yaddaşından,
Saxlancım qalmadı çopur daşından.
O qarlı, qartallı dağlar başından
Elə ki, başladı köç-yaşamadım.

Məni haraylayan səsdə qalmışam,
Əriyib beş kəlmə sözdə qalmışam.
Yaxşı ki, düz olub düzdə qalmışam-
Dünyaya bic gəlib, bic yaşamadım.

Keçmişə baxmışam gələcəyimdən,
Bildiyim az olub biləcəyimdən.
Ürəyim zərifdir gül ləçəyindən,
Gücsüzə göstərib güc yaşamadım.

Bir sevgi bəzəyir qəlb sarayımı;
Verdim uşaqlara ömür payımı,
Onlar da itirsə haqq-sayımı
Demək bu dünyada heç yaşamadım.

KƏLBƏCƏRİ XATIRLAYARKƏN

Dünyanın bir gözəl vaxtı var idi,
Oba yerindəydi, yurd yerindəydi.
O vaxtkı çobanın bəxti var idi-
Quzu yerindəydi, qurd yerindəydi.

Dağlardan qızıl da, mis də çıxardı,
İstisu qışda da isti çıxardı,
Ruzili evlərdən tüstü çıxardı-
Ocaq yerindəydi, od yerindəydi.

Bulaqlar saf idi, çaylar dupduru,
Cana məlhəm idi günəşin nuru...
Yenilməz dağ idi kişi qüruru-
Kişilik deyilən ad yerindəydi.

Nakəsi obada saxlamazdılar,
Namərdi öləndə ağlamazdılar,
Ovsarı quyruğa bağlamazdılar,
Ulaq yerindəydi, at yerindəydi...

SƏN-UZAĞIM, SƏN-YAXINIM

Bilməm məndən nə istəyir
Hey yuxuma girən dağlar?!
Zirvəsi ağ, döşü yaşıl,
Əl- ətəyi kürən dağlar.

İtdi cığır, getdi gədik-
Qanımızla bəzəmədik...
Niyə sənə bənzəmədik-
Olduq pərən-pərən, dağlar.

Gözümdə heykəlin durur,
Boyun-qürur, qəddin-qürur.
Şimşəklərə məğrur-məğrur
Sinəsini gərən dağlar.

Gül üzünü bu duman, çən
Qoymaz görsün ötüb-keçən.
Koroğlunun oylağı sən-
Bəs hanı o ərən, dağlar?

MƏMMƏD ASLAN

Bu şəhərdə bir az şəhər,
Bir az kənddi Məmməd Aslan.
Kəlbəcərdən söz düşəndə,
Himə bənddi Məmməd Aslan.

Gözü qalır doğan ayda,
Ötüb keçir gün də, ay da,
Bu həsrətdən özü boyda,
Bir qürbətdi Məmməd Aslan.

Söz ömrünü ömür seçdi,
Dedi ömrüm onsuz heçdi,
Misra-misra ötüb keçdi
Neçə səddi Məmməd Aslan.

Üz-gözündən nur tökülür,
Avazından dür tökülür,
Ömrü boyu dərdə gülür,
Gülən dərddi Məmməd Aslan.

Dağların düzə verdiyi,
Tanrının sözə verdiyi,
Allahın bizə verdiyi,
Əmanətdi Məmməd Aslan.

1999

KƏLBƏCƏRİ UNUTMAYIN

Əyilməyən dağ bildiyim adamlar,
Şəhidini sağ bildiyim adamlar,
Bu dünyada unutqanlıq yamandı,
Kəlbəcəri unutmayın, amandı!

Yurd yerində əsir düşdü ərənlər...
Aman Allah, bu başıma gələnlər
Nə zamansa ürəyimə damandı-
Kəlbəcəri unutmayın, amandı!

Gecə-gündüz qınayırıq bəxti biz:
Qaçqın olduq, bizdən qaçır bəxtimiz.
Neyləyək ki, bu da belə zamandı,
Kəlbəcəri unutmayın, amandı!

Bilməmişik o torpağın qədrini...
Mən duyuram çiçəklərin ətrini,
Mən görürəm yenə dağlar dumandı,
Kəlbəcəri unutmayın, amandı!

Qəriblikdə qan ağlayır yurd yerim,
Kəlbəcərdi daha mənim and yerim.
And içək ki, kimsə pozmaz bu andı,
Kəlbəcəri unutmayın, amandı...

UNUTMUŞUQ QARABAĞI

Qəlpə-qəlpə çıxartmışıq canımızdan kinimizi,
Yurda həsrət bir adam yox-yığsan əgər minimizi.
Biz də belə yaşayırıq ömrümüzü, günümüzü,
Ötəriymiş, keçəriymiş qəlb ağrısı, sinə dağı,
Unutmuşuq Qarabağı, unutmuşuq Qarabağı.

Ağır ellər ağır gündə obasından köç elədi,
Ruzigarın sərt tufanı varlığımı heç elədi.
Bu torpağın oğlu-qızı çadırlarda gecələdi...
Gərək çoxdan qaralaydı günahkarın od-ocağı,
Ağ günlərdə görməmişik qara günlü Qarabağı.

Hər gün milli efirimdə təzə söz var, təzə səs var,
Qarabağı qaytarmağa sönüb getmiş bir həvəs var.
Ölənəcən gözləyirik, hələ bizdə son nəfəs var...
Səbrimizlə "silahlansaq" təslim olar bir gün yağı,
Düşmən elə bilməsin ki, unutmuşuq Qarabağı.

Bu savaşda qan tökdülər yurdu sevən mərd oğullar,
Güllələrdən yan keçdilər çalıb-çapan çapovullar,
İndi gəlib torpaq satır bəstə boylu siçovullar,
Girov gedib, əsir düşüb, qırılmayıb solu, sağı-
Mənim kimi nə duyacaq qan qoxuyan Qarabağı?

Okeanın o tayında tədbir tökür qoca xərçəng,
Qətnamələr qollayırlar geyinərək qara əlcək.
Deyən yoxdur:-cənab, əl çək, xanım, əl çək.
Məndən alıb mənə vermə mənim olan bu torpağı,
Vaşinqton göylərində bayraq etmə Qarabağı.

Gecə-gündüz can hayında bu yurda can verənlərim,
Millətimin zillətini görməz olub görənlərim.
Ehey! Harda yubandınız, dəli-dolu ərənlərim,
Altımızın atı gedib, başımızın yox papağı-
Unutmuşuq Qarabağı, unutmuşuq Qarabağı...

DÜNYAM MƏNİM

Ömür yaman əyləncəli,
Elə bil ki, yox əcəli...
Mən yanmağa öyrəncəli-
Yandırıb-yax, dünyam mənim.

Ev yıxılıb, dam dağılıb,
Neçə arzu-kam dağılıb.
Yurdumdan adam dağılıb-
Başıma qax, dünyam mənim.

Yoluma tikan düzüldü,
Əlim əlindən üzüldü.
Dərdin gözümdən süzüldü-
Qismətə bax, dünyam mənim.

Bu ümmanda tək adayam,
El haraylı səs- sədayam.
Mən bir nahaq dünyadayam,
Kəlbəcər - haq dünyam mənim.

GÖRÜNÜR

Bir havada köklənməyib bu rüzgar-
Hərdən bəmi, hərdən zili görünür.
Yurd yerində yanıb-sönən ocağın
Uzaqlardan bəyaz külü görünür.

Axar çaytək gedər ömür, gedər gün,
Qəlbimizi qəməsiylə didər gün.
Dər-divara dirənibdir didərgin-
Son addımın son mənzili görünür.

Qəm dağının ətəyində gedirik,
El-obanın itiyində gedirik.
Yad əllərin yedəyində gedirik,
Doğma əldən əl üzülü görünür.

Bu dövranda kimə necə yarayım,
Mən mənəmsə məni məndə arayın...
Ağ mərmərdən yapılan ağ sarayın
Çürük himi, boş özülü görünür.

Bu zirvənin qartalı var səmasız,
Bu torpağın övladı var kumasız.
Adil Cəmil, boğulursan havasız-
Tərəqqinin tənəzzülü görünür.

1993

ÜZÜ DÖNÜKLƏRƏ

Üzü dönüklərə üzümü tutdum,
Üzüldüm, süzüldüm-üz vermədilər.
Gördüyüm zirvəyə ucalmaq üçün
Çığır vermədilər, iz vermədilər.

Yetişən olmadı haya,haraya,
Çevirdim üzümü Allahtalaya...
Dünya düşərgəymiş qonaq -qaraya-
Mənə də "qalmağa" söz vermədilər.

Gedən keçmiş üçün döydüm dizimə,
Gələn gələcəyin düşdüm izinə.
Birisi dərd tapdı, biri xəzinə,
Heç kəsin payını düz vermədilər.

Deyirəm nə qalır görən insana?
Köksünü gülləyə gərən insana,
Ömrünü bu yurda verən insana
Öləndə beş arşın bez vermədilər.

1993

MİLLƏT VƏKİLLƏRİNƏ

Səsimizi toplayıb sizə verdik-
Bu xalqın səsi hanı?
Sözümüzü toplayıb
Sizə verdik-
Bu xalqın sözü hanı?

Adda-budda yollar keçib
Bənd aldınız parlamanda.
Tufanda azan gəmiçi
Lövbər salmaz hər limanda.

Mənim millət vəkillərim,
Namus, qeyrət vəkillərim,
Xalqa sözünüz var isə-
Barı hərdən xatırladın
Nə deməkdir mübarizə.

Nə deməkdir yurd yanğısı,
Nə deməkdir bu firqətlər.
Nə vaxtacan yaşayacaq
İçi paxır, çölü qalay həqiqətlər.

Səsimizi sizə verdik-
Səsimizdən səs-soraq yox.
Sözümüzü sizə verdik
Heç bilmirik gəlib sizdən
Bircə kəlmə söz soraq, yox...

Mənim millət vəkillərim,
Namus, qeyrət vəkillərim...

1993

ARXALI KÖPƏYƏ

Arxalısan-arxan, tayfan mübarək,
Əynindəki hərbi soyxan mübarək.
Çay daşından sürtük imiş səndə üz,
Kişisənsə çıx döyüşə üzbəüz.
Qanımıza yerikləyən həşərat,
Torpağıma nə böhtan de ,nə şər at.
Bir gün səni başa salan tapılar,
Düz yolunu daşa salan tapılar.
Hələ sənə yal verirlər hürəsən,
Yal qurtarsa nə olacaq görəsən?..
Elə bilmə tarix səni tanımır -
İlk yurdunu bir erməni tanımır,
Yazmadığın hörgü daşı qalmadı,
Qızmadığın ocaq başı qalmadı.
Harda gördün qışqırdın:-bu yer mənim,
Ona görə adın qalıb erməni...

1993

BİR DƏ

Dərd yatıb marığa,qəm gözləyir ki,
Ömrümü-günümü ələyə bir də.
Bəxtimə biçilən alın yazımı
Yazdıran deyiləm fələyə bir də.

Yollarım bağlıdır-yola çıxımmı?
Yamaca çıxımmı, yala çıxımmı?
Yurda həsrət qalan alaçığımın
Ulas çubuğunu kim əyə bir də?

Oğul istəyirəm yana torpağa,
Şığıyıb şahintək qona torpağa.
Əllərim çatmasa ana torpağa
Çatmaram arzuya, diləyə bir də.

Güllü baharımı heç eyləmişəm.
Bir olan dərdimi üç eyləmişəm.
Vətəndən vətənə köç eyləmişəm-
Düşmərəm mən belə tələyə bir də.

Sifətlər bozara-bozara gedir,
İnsan bu gedişlə bəs hara gedir?
Yollar ki beşikdən məzara gedir
Qayıdan deyiləm bələyə bir də...

KƏLBƏCƏR

Səni itirəndə bildik qədrini,
Ey anam Kəlbəcər, atam Kəlbəcər.
Dünya cənnət ola verməz ətrini,
Qayıtmaz süfrəmə o tam, Kəlbəcər.

Dilim yox mən səni dindirmək üçün.
Leysanam bu dərdi hönkürmək üçün.
Həsrət yanğısını söndürmək üçün
Zirvəndə bir ocaq çatam,Kəlbəcər.

Keçəm o dağların kəsə yolundan,
Üzümə iz düşə moruq kolundan.
Cökə budağından,palıd qolundan
Yıxılsam əl atıb tutam, Kəlbəcər.

Elim obasından köç eyləyən gün
Sən mənim köksümdə alışdın,söndün.
Axırda bir şirin yuxuya döndün-
Yuxuda gördüyüm butam Kəlbəcər.

Adiləm, qoy sənə deyim sözümü:
Ürəyin tabı yox,qəlbin dözümü...
Gəzəri torpağam,bir gün özümü
Sənin torpağına qatam, Kəlbəcər...

ŞUŞAM, AY ŞUŞAM

Həsrət havasında heyim qalmayıb,
Uçmağa fəzam yox, göyüm qalmayıb.
Mən ki qanadları qırılmış quşam,
Şuşam ,ay Şuşam!

Çıxıb Kəlbəcərdən, Laçından bəri
Sənə yol gəlirəm haçandan bəri.
Röyalar içində çox ovunmuşam-
Şuşam,ay Şuşam!

Bilməzdim torpaqdan pay bölgüsü var,
Bulaq bölgüsü var, çay bölgüsü var.
Satdılar səni də qəpik-quruşa-
Şuşam, ay Şuşam!

Dedilər biryolluq susa bulağın,
Coşub-çağlamaya İsa bulağın...
Bu dərdi çəkəndən bir qara daşam,
Şuşam, ay Şuşam!

Firqətin mənimlə yola gedərmi,
Sən ki qala idin-Qala gedərmi?!
Baharsan-yolunu gözləyən qışam,
Şuşam,ay Şuşam!

Natəvan ruhusan, Nəvvab qəzəli,
Əlçatmaz, ünyetməz dağlar gözəli,
Vəslinə yetməkçün gərək vuruşam-
Şuşam, ay Şuşam.

BƏHMƏN VƏTƏNOĞLUNA

Taleyin səni də çəkdi sınağa-
Yuvasız qalmısan, ay Vətənoğlu.
Göyərməz misrası qərib şairin,
Havasız qalmısan, ay Vətənoğlu.

Bu nə imtahandır ömrün bu çağı,
Qəmin qılıncı var, dərdin bıçağı.
İsitməz canını özgə ocağı,
Sobasız qalmısan, ay Vətənoğlu.

Ömür-gün fərmanı Kəlbəcərdədir,
Dağların loğmanı Kəlbəcərdədir.
Dərdinin dərmanı Kəlbəcərdədir-
Şəfasız qalmısan,ay Vətənoğlu.

Bizə qarğayanın dili qurusun,
Bir həsrət çəkirik ömürdən uzun.
Dağılıb çöllərə elin,ulusun,
Obasız qalmısan,ay Vətənoğlu.

Adiləm,ey yurdun şair balası,
Bizdən qeyrət umur "qeyrət qalası".
Niyə "silahlanmır" Bəhmən misrası?
"Davasız" qalmısan,ay Vətənoğlu.

1993

ÖZÜNÜ QAYADAN ATAN QIZLARA

Kəlbəcərin işğalı zamanı bir neçə qız-gəlin düşmənə əsir düşməmək üçün əl-ələ tutub özlərini qayadan atmışdılar...

O gün sinəmizi düşmən dağladı,
Zamanın özü də ayaq saxladı...
Dəlidağ yas tutub, Tərtər ağladı
Özünü qayadan atan qızlara.

Mənim el qızlarım saflıq aynası,
Namusdan yoğrulub əzəl mayası.
O gün qanad verdi yurdun qayası
Özünü qayadan atan qızlara.

Qalacaq yurdumun bu əfsanəsi:
Yağsa da başına yağı gülləsi
Tor ata bilmədi düşmən hiyləsi
Özünü qayadan atan qızlara.

O qızlar Tərtərin göz yaşı oldu,
Tarixin pozulmaz yaddaşı oldu.
Göydələn zirvələr başdaşı oldu
Özünü qayadan atan qızlara.

1993

VƏTƏN OĞLU, VƏTƏN SƏNİN DEYİLMİ

Bu savaşda bərə gedib, bənd gedib,
Qurduğumuz şəhər yanıb, kənd gedib-
Atam oğlu, gedən sənin deyilmi?
Vətən oğlu, vətən sənin deyilmi?

Düşüb başdan namus-qeyrət tacımız,
Əsirlikdə inildəyir bacımız,
"Oğul" deyən dədən sənin deyilmi?
Vətən oğlu, vətən sənin deyilmi?

Kəlbəcərin zirvəsindən yıxılan,
Xan Arazın sularında boğulan,
Cəbrayılda itən sənin deyilmi?
Vətən oğlu, vətən sənin deyilmi?

Qaçqın olduq- arzuları sovrulan-
Qış gəlməmiş qar içində qovrulan
Çadır sənin, çətən sənin deyilmi?
Vətən oğlu, vətən sənin deyilmi?

Çatmır bizə haray, həşir, qışqırıq,
Bu torpağın sinəsindən fışqırıb
Məzar-məzar bitən sənin deyilmi?
Vətən oğlu, vətən sənin deyilmi?

1993

ANAM HƏSRƏT QALIB ANA YURDUNA

Haçandır baş açmır bu çək-çevirdən,
Doyub xəbərlərdən, bezib efirdən...
Göz yaşı sellənib axır qəfildən,
Obası, oymağı düşür yadına-
Anam həsrət qalıb ana yurduna.

Vətəndə vətəni soruşur müdam,
Bu yerdə söz tapıb nə desin adam...
Mən də belə oğul, belə övladam,
Kiçik bir təsəllim çatmır dadına-
Anam həsrət qalıb ana yurduna.

Dağında gölləri ala Kəlbəcər,
Gözəlliyi başa bəla Kəlbəcər,
"Qüdrətdən səngərli" qala Kəlbəcər
İblis xəyanətin getdi badına,
Anam həsrət qalıb ana yurduna.

Yağıya qalıbdır yağı-pendiri,
İndi şor satanı gedib dindirir...
Alışmır ocağı, yanmır təndiri-
Yanır, bu hicranın yanır oduna-
Anam həsrət qalıb ana yurduna.

Yurd-yuva həsrəti ağırdan ağır,
Torpaqdan ayrılan olurmuş fağır.
Ümidsiz günlərə qaramat yağır,
İlahi, rəhm elə sən bu qadına-
Anam həsrət qalıb ana yurduna...

1994

QARLI QIŞ GECƏSİ

Bu gecə yuxuma Kəlbəcər girib
Bu gecə gördüyum yuxu üşüyür.
Qərib məzarlara qar yağır indi-
Nənəmin, babamın ruhu üşüyür.

Yaxşı bilirəm ki, belə havada
Qardı, sırsıradı, qırovdu yurdum.
Kiminsə günahı-mənim faciəm,
Yağılar əlində girovdu yurdum.

Çiçəkli çöllərim, güllü çəmənim,
Zümrüd meşələrim viranə qalıb.
Murovun qaşında buz-heykəl olub
Körpəsi köksündə bir ana qalıb...

Bu qış mənim qışım, baharım gəlməz,
Bu qar mənim qarım-yağır beləcə.
Ayrılıq uzanır, ürək usanır,
Ömrün fəsilləri axır beləcə...

Açılan sabahlar açmır eynimi,
Səsi qulağımda yetim ruhların.
İlahi, məni də ruha çevir ki,
Gedim görüşünə, gedim ruhların.

Bu gecə yuxuma Kəlbəcər girib,
Bu gecə gördüyüm yuxu üşüyür.
Qərib məzarlara qar yağır indi-
Nənəmin, babamın ruhu üşüyür...

1994

ÇIXIB GETDİLƏR

Bu ana torpağın, ulu diyarın
Gərəyi olanlar çıxıb getdilər.
Ərənlər görmürəm canlı, cüssəli-
Kürəyi olanlar çıxıb getdilər.

Duyar ovqatımı, duyar əhli-hal,
Dərdi olmayana çatmaz bu məlal.
Haram harınlayıb, bəs niyə halal
Çörəyi olanlar çıxıb getdilər.

Şübhələr boylanar bu görünüşdən-
Dərinə gedərsən iş çıxar işdən.
Gözümün önündə qızıl-gümüşdən
Dirəyi olanlar çıxıb getdilər.

Mən Adil Cəmiləm-deyim düzünü:
Tanrı dərd çəkənə verər dözümü...
Kimə söyləyəsən ürək sözünü-
Ürəyi olanlar çıxıb getdilər.

1994

ÇADIR ŞƏHƏRCİYİ QIŞ GÜNLƏRİNDƏ

Üzür qar içində Mil düzəngahı,
Soyuq çadırların sobası yoxdur.
Donur dodağında didərgin ahı,
Köçgün ellərimin obası yoxdur.

Bu qışı tay tutur ömrün qışına
Bahara gümanı itirən fağır.
Qar yağır bəlalı qaçqın başına,
Bəlkə də qar deyil,qaramat yağır.

Qartopu oynamır qaçqın uşağı,
Demir buz üstünə çıxım sürüşüm.
Qar yağır qurşaqdan, dizdən aşağı,
Qarda qarsalanır körpə gülüşü...

Çadır gözlüyündən təpilir şaxta,
Yel vurur-yengələr oynayır burda.
Parçadan "tikilən" bu"şəhər" saxta,-
"Dalanlar", "döngələr" oynayır burda.

Oynayır çadırda ölüm havası,
Həyat dedikləri gözə görünmür.
Qalıb qar içində qaçqın yuvası
Gör necə millətik bizə görünmür...

1994

MƏNİM

Niyə kədərliyəm, soruşma, ey dost,
Dinlə hansı dərdim deyim var mənim.
Həsrət gilə-gilə içir qanımı-
Dağılmış kəndim var, köyüm var mənim.

Məni isitmədi bu isti aran,
Dağlardı ruhumu çəkib aparan,
Bağrımın başında fəryad qoparan
Dəli bir kamanım, neyim var mənim.

Bu qəm ovunmazdır,bu dərd qaçılmaz,
Bir də üzüm gülməz,eynim açılmaz.
Üzümə gün doğmaz, şəfəq saçılmaz-
Həmişə buludlu göyüm var mənim.

Zamanı ötürdüm , vaxtı ötürdüm,
Elə bil gül əkdim qanqal bitirdim.
Zirvəsi göy dələn dağlar itirdim,
Daha itirəsi nəyim var mənim?!

1994

GETDİ ƏLİMİZDƏN, KƏLBƏCƏR GETDİ

Doxsan üçüncü il aprelin biri
Aşdı ellərimiz Murovdan bəri.
Çarəsiz yurddaşım yurdu tərk etdi,
O gün əlimizdən Kəlbəcər getdi.

Yurd oğlu əkindən, biçindən keçdi,
Xəyanət millətin içindən keçdi,
Altı qızı layı, üstü zər getdi-
Getdi əlimizdən, Kəlbəcər getdi.

Dağlarda elimin obası qaldı...
Torpaqda babamın babası qaldı...
Toy-düyün sovuldu, xeyir-şər getdi,
Getdi əlimizdən, Kəlbəcər getdi.

Kişnəyən görmədim kəhər atları,
Yayan elə yaydı təxribatları
Davasız-şavasız neçə ər getdi,
Getdi əlimizdən, Kəlbəcər getdi.

Qorxub ismətindən, abır- həyadan
Qız-gəlin özünü atdı qayadan-
Qönçə güllərimiz təzətər getdi,
Getdi əlimizdən, Kəlbəcər getdi.

Silsilə qayalar sipər olsa da,
Dağlar özü boyda çəpər olsa da,
O sipər dağıldı, o çəpər getdi,
Getdi əlimizdən, Kəlbəcər getdi.

...Gələnlər ruhunu qoyub gəlirdi,
Varını-yoxunu qoyub gəlirdi,
Elim obasından dərbədər getdi,
Getdi əlimizdən, Kəlbəcər getdi.

Körpənin üzünü qar qovurmuşdu,
Qocanın dizini şaxta vurmuşdu.
Murovun başında çox əcəl yetdi,
Getdi əlimizdən, Kəlbəcər getdi.

Qartallar yuvası saramı qaldı?
Daha almadığım yaramı qaldı?..
Mənə də taleyim belə "ərk" etdi,
Getdi əlimizdən, Kəlbəcər getdi.

Didərgin ellərim, pərən-pərənsiz,
Siz ki, deyilsiniz ərsiz, ərənsiz.
Daha çəkdiyimiz dərdi-sər getdi,
Qaytaraq o yurdu -Kəlbəcər getdi...

1993

VƏTƏN XAİNİ

Yardımı bazara çəkən nanəcib,
Necə xain çıxdın əsgər payına?
Namusdan yüksəkdə dayanırsa cib
Tökər zəhərini rüzgar payına.

Xəyanət satırsan qardaş-bacına,
Sən -vətən xaini, sən-milli satqın.
Çəksinlər qoy səni dar ağacına-
Yoxsa çox çəkəcək bu"alqı -satqın".

Bilirəm-kəsilər kökü sizlərin,
Bilirəm-dayanar bu qanlı alver.
Görünə-görünə "görünməzlərin"
İlahi, sən özün cəzasını ver...

Yanıram, sönürəm, dönürəm külə-
Millətin içində beləsi də var.
Sən demə bu xalqın öz əli ilə
Özünə atılan gülləsi də var.

Orda Qarabağı qoruyan oğlan,
Payını satanı qoruyursanmı?
Bu "övlad" uğrunda tökürsənmi qan,
Bu xain" atanı" qoruyursanmı?

Qəm yemə, vətənin döyüşən oğlu,
Sənin zəfərlərin yurduma qalır.
Dolaşıq dükçədir ömür-gün yolu-
Yardımı satanlar yardıma qalır...

VƏZİFƏ DAVASI

Bilir, hamı bilir-bu torpaq üstdə
Haçandır Qarabağ qovğası gedir.
Çəkirlər sinəmə dağı dağ üstdən-
Bakıda vəzifə davası gedir.

Mərmi yağışında qədim Şuşamın
Cana məlhəm olan havası gedir.
Sozalır şöləsi daha bu şamın-
Bakıda vəzifə davası gedir.

Orda qan tökülür, evlər dağılır,
Xalqın yurdu gedir, yuvası gedir,
Burda kim deyər ki, keflər dağılır-
Bakıda vəzifə davası gedir.

Harayı çatmayır hökumətinə,
Millətin Allaha duası gedir.
"Vətəndaş sevgisi" budur vətənə-
Bakıda vəzifə davası gedir.

Kimsə hünərlidir, kimsə hünərsiz,
Kiminsə bu yurda vəfası gedir.
Vətən davasından xəbər-ətərsiz
Bakıda vəzifə davası gedir.

1992

İTƏN QEYRƏTİM

Beləcə barışdıq taleyimizlə,
Beləcə yox oldu vətən qeyrəti.
Yardıma yalmanan gileyimizlə
Qaytara bilmədik itən qeyrəti.

Mən yaza bilmədim yaz gəlişindən,
Ömrümü, günümü qış alıb getdi.
Çadırlar qurulan dağlar başından
Çadır şəhərciyi baş alıb getdi.

Göyərdi talada tökülən qanlar-
Şəhidlik boylandı nar ağacından.
Vətəni, torpağı darda qoyanlar
Niyə asılmadı dar ağacından?..

Satdılar yurdunu Dədəm Qorqudun,
Bu xalqa bu boyda xəyanət olmaz.
Hanı, ey millətim,alovun, odun-
Belə dözüm olmaz, dəyanət olmaz...

İsti vədləri var soyuq üzlərin,
Yardımlar bu xalqın güvənci olub.
Qülləsi göy dəlir natəmizlərin,
Təmizlər tərtəmiz dilənçi olub.

Beləcə barışdıq taleyimizlə,
Beləcə yox oldu vətən qeyrəti.
Canımız, qanımız, ürəyimizlə
Qaytara biləydik itən qeyrəti...

1993

İLLƏR

Sözüm ürəyimdə qaldı gizlicə,
Səsimi aləmə yaymadı illər.
Bir günün içində qocaldım necə-
Ağaran saçımı saymadı illər.

Gəldim bu dünyaya qonaq yerinə,
Döndüm dönüklərin qınaq yerinə.
Mən ürək yandırdım ocaq yerinə-
Duyğulu könlümü duymadı illər.

Tərtərim, Qarqarım, Həkərim-deyə,
Murova boylanıb hönkürüm deyə,
Mənə görk olanı mən görüm deyə
Təkcə gözlərimi oymadı illər.

Gecənin sübhü var, zülmət ucu-dan,
Budur bir ömürdə məni acıdan:
Ərməğan etdiyi ağrı-acıdan
Niyə usanmadı, doymadı illər?..

Ömürdən günləri seçib sanadım,
Adilə kəc baxan bəxti qınadım.
Çırpdı qayalara, sındı qanadım-
Məni mən olmağa qoymadı illər.

1993

SÜCAƏTİN MƏZARI ÖNÜNDƏ DÜŞÜNCƏLƏR

Heç bilmirəm hansı güman
Saxlar bizi, saxlar bizi.
Fani dünya, dəli dövran
Yoxlar bizi, yoxlar bizi.

Övladların ey Kəlbəcər,
Səni deyib bir-bir köçər...
Yersiz görüb yersiz əcəl
Haqlar bizi, haqlar bizi.

Qaçqınlıqdan hara qaçaq?
Sönür ürək, sönür ocaq.
Ağlamağa qalmayacaq
Sağlar bizi, sağlar bizi.

Ağla qara fərq etmədi,
Ulu tanrım görk etmədi,
Adil Cəmil, qərq etmədi
Dağlar bizi, dağlar bizi.

15 aprel 2002,
Gəncə

BİR GÜN KƏLBƏCƏRƏ QAYITMAQ ÜÇÜN

Dağlara boylanan sonam var mənim,
Gözləri yol çəkən anam var mənim.
Dərdli ürəyimdə inam var mənim-
Bir gün Kəlbəcərə qayıtmaq üçün.

Qara ləkə düşdü ağ gündüzümə,
İlahi, təpər ver titrək dizimə.
Mən gərək qaytaram məni özümə-
Bir gün Kəlbəcərə qayıtmaq üçün.

Murovun göz yaşı qanlı bulaqdı,
Vətən necə yaxın, necə uzaqdı.
Didərgin ellərim yaxşı ki ,sağdı
Bir gün Kəlbəcərə qayıtmaq üçün.

Dağların dağ boyda dərdi, yası var,
Gülü açılmamış solan yazı var.
Yurd oğlu, hazır ol, yurd davası var
Bir gün Kəlbəcərə qayıtmaq üçün.

Qəlpəyə çevirəm donmuş hirsimi,
Bağlı yollarımdan açam tilsimi.
Oğluma keçirəm VƏTƏN dərsini
Bir gün Kəlbəcərə qayıtmaq üçün,
Bir gün Kəlbəcərə qayıtmaq üçün...

1994

YURD YERİM – DƏRD YERİM

TANRIYA XİTABƏN

Sən açırsan hər düyünü,
Göyə bağlı Yer düyünü.
Aldığını, verdiyini
Sən bilərsən, Sənə şükür!

Babalardan nəvəyəcən,
Qarışqadan dəvəyəcən,
Nə varsa yerdən göyəcən
Sən bilərsən, Sənə şükür!

Gedəndə gəlməz olmuşuq,
Ruh olub ölməz olmuşuq.
Nəyi ki bilməz olmuşuq
Sən bilərsən, Sənə şükür!

2011

YURDA YALVARIŞ

Ruhum səndə qalıb, canım a dağlar,
Məni torpağına, daşına çevir.
Səni xilas üçün hər birimizi
Bir bölük əsgərə, qoşuna çevir.

Başımız altından al mütəkkəni -
Tufanda yellənsin ömrün yelkəni.
Bizə qan udduran hirsi, hikkəni
Düşmənə atılan qurşuna çevir.

Qarşıda nələr var, hələ bilmirəm,
Yaşaya bilmirəm, ölə bilmirəm.
Gül açan yazına gələ bilmirəm,
Qibləmi qar yağan qışına çevir.

Sərhədlər bağladı gəliş-gedişi,
Fələyə bəllidir fələyin işi...
Çevirə bilmədim çərxi-gərdişi,
Məni qurban bilib başına çevir.

2010

BU DÜNYA

Gələn bilir, gedən bilir, ay lələ,
Vallah gəldi-gedər imiş bu dünya.
Zaman-zaman əzrayılın atını
Tumarlayan mehtər imiş bu dünya.

Hərənin öz ulduzu var, bürcü var,
Qapılardan boş qayıdan elçi var.
Toya, yasa gül bağlayan gülçü var -
Nə təzəymiş, nə tər imiş bu dünya.

Hər ölənin ucalmayır türbəsi...
Gözlərində yaş doğulur körpəsi.
Addımbaşı dayanıb qıl körpüsü -
O dünyadan betər imiş bu dünya.

Vaxt ayırıb vaxtsız gələn əcələ,
Çoxlarını tora salıb bu cələ.
Bir ömürdə bir baxımlıq pəncərə -
Bilən varmı hədər imiş bu dünya?!

Kimsə durub öyünməsin - əsli var,
Yer udandan, göy çəkəndən səsmi var?
Yaşayırıq - hələ insan nəsli var,
Səndən mənə qədər imiş bu dünya.

2002

QARABAĞ

Məmləkət boyu
bütün əyintilərə əsas,
qiyamətə qalan qisas.

Sulanan sulux,
Qurumayan göz yaşı.
Bütün dərdlərimizin başı,
Yaxud,
ümüdümüzə başdaşı.

Könülsüz müharibə,
məcburi seçim.
Doğanaqdan keçməyən örkən,
ya da uzanan sicim.
… Babamı öldürmüşəm ki,
goruna and içim.…

.2011

DÖZÜLMƏZ DÖZÜMƏ

Yaz gələndə pöhrələnir niskilim -
Dağın-düzün dərdi yatır içimdə.
Mən Doğudan Batıyacan yolçuyam,
Ay da, gün də doğur, batır içimdə.

Hanı mənim o zamanım, o çağım,
Ayrılığa açılıbdır qucağım.
Yurd yerində söndürülmüş ocağım
Gecə-gündüz ocaq çatır içimdə.

Atam getdi bu dərdlərin əlindən,
Kəlbəcəri heç düşmədi dilindən.
Toxum tutub bu yanğının külündən
Köhnə dərdim budaq atır içimdə.

Üzmü qoydum dağlar baxsın üzümə,
Edam hökmü oxuyuram özümə.
Zaman-zaman bu dözülməz dözümə
Unutqanlıq məni satır içimdə.

2011

YURD YERİM - DƏRD YERİM

İlahi, yurd yerim dərd yerim oldu,
Torpaqla sınağa çəkilməyəydim.
Dağlara baxıram dağlanır sinəm -
Bu dağla sınağa çəkilməyəydim.

Gəzir xəyalımda gəzdiyim yaylaq,
Saralmış yarpağam, qurumuş budaq.
Ürəyim deyəni demir ha dodaq,
Dodaqla sınağa çəkilməyəydim.

Bilmirəm qorxduqmu bir qaşıq qandan -
O torpaq uğrunda keçmədik candan.
Kişilik çıxmadı bu imtahandan,
Papaqla sınağa çəkilməyəydim.

Adiləm, özümdən bəzən küsdüm də.
Yansam «Vətən» deyər göydə tüstüm də…
Düyüşdə öləydim ayaq üstündə,
Yataqla sınağa çəkilməyəydim.

2012

ATAMIN XATİRƏSİNƏ

Bir dəstə gül,
Bir surə yasin,
Bir cüt göz yaşı…
Mənə həyat verənə
Həyatda borcum bumu?
Başdaşına toz qonub,
Külək sovurur qumu.
Nə ilə sübut edim
Mən oğlun olduğumu?!
Ələyib göz yaşımı
Öpürəm başdaşını.
İsti öpüşlərimin
Soyuq daşın üstündə
Bir anlıq yeri qalır.
Torpağın qucağında
Qəbir də diri qalır.…

2009

AĞLAYA BİLMİRƏM

Atamın məzarı önündə düşüncələr

Ağlaya bilmirəm qəbrin önündə -
Göz yaşım gizlicə axır içimə.
Səndən ayrı düşən ağlar günümdə
Ağlaya bilmirəm, məndən incimə.

Məni ovundurar göz yaşı çətin,
Xəyalım yolundan yığışmır, ata.
O qədər böyükdür sənin həsrətin
Gözümün yaşına sığışmır, ata.

Ağlaya bilmirəm, bilmirəm üzdə,
Sən - "daş sinəlisən", mən - daş ürəkli.
Kölgən ki, var idi başımın üstdə,
Evim sütunluydu, komam dirəkli.

Tükənib taqətim, azalıb gücüm -
Elə bil candərdi yaşayıram mən.
Soyuq torpaq altda yatdığın üçün,
Isti çarpayımda üşüyürəm mən.

Ayrıldın bizlərdən bir qış axşamı,
Əcəl şirin dilli, xoşqılıq imiş.
Yandı qəbrin üstdə ayrılıq şamı,
Ölümün bir adı ayrılıq imiş.

Yuxuya getmisən... yox bir oyadan,
İndi sən hardasan, mən harda, ata?!
"Vətən" deyə-deyə getdin dünyadan,
Qürbət var sən yatan məzarda, ata.

2008

DAHA NƏ SƏN VARSAN, NƏ KƏLBƏCƏR VAR

Kəlbəcər həsrətilə dünyasını dəyişən
atam Savalanın əziz xatirəsinə

Köçdün bu dünyadan bir qış axşamı,
Bilməzdim atasız gələn səhər var.
Kəlbəcər adıyla adın qoşamı -
Daha nə sən varsan, nə Kəlbəcər var.

Xəlvətə çəkilib ağlayır anam,
Üzündə silinməz qəm var, kədər var.
Bu gündən mən sənin yetim oğlunam,
Daha nə sən varsan, nə Kəlbəcər var.

Kimi qaytarıb ki, bu göz yaşları?
Olum var, ölüm var - gəldi-gedər var.
Sənsiz gül bitirməz yaz yağışları,
Daha nə sən varsan, nə Kəlbəcər var.

Deyirdin o yurda dönməliyik biz,
Deyirdin dizimdə hələ təpər var.
Sən idin bir parça Kəlbəcərimiz,
Daha nə sən varsan, nə Kəlbəcər var.

14 fevral 2008

TƏBRİZƏ GƏLDİM

Gəldiyim bu yollar qol-qanad yolu,
Həm murad yoludur, həm inad yolu.
Dağlar qucağında göy düzə gəldim -
Təbrizə gəldim.

Öpüb torpağını qoydum gözümə,
Tanrıdan bir taqət gəldi dizimə.
Sevgisi qaynayan kəhrizə gəldim -
Təbrizə gəldim.

Aldım ulduzları qollarım üstə,
Əhriman əridi yollarım üstdə.
Aləmə nur saçan Hörmüzə gəldim -
Təbrizə gəldim.

Qonaq deyiləm ki, qəriblik çəkəm,
Qərib deyiləm ki, qürbətdə çökəm;
Bilənlər bilir ki, mən bizə gəldim -
Təbrizə gəldim.

Şəhriyar türbəsi ziyarətgahım -
Öləndə pir olub sənətdə şahım.
"Ayrılıq" adında bir sözə gəldim -
Təbrizə gəldim.

Gördüm qardaşımı, bacımı burda,
Unutdum ağrımı, acımı burda.
Elə bil dünyaya mən təzə gəldim -
Təbrizə gəldim.

Təbriz, 9 avqust 2010

CİNASLI BAYATILAR

Ləkə düşdü,
Kotanım ləkə düşdü.
Göydə Ayın üzünə
Yerdənmi ləkə düşdü?

***

Ər idim,
Bir əyilməz ər idim.
Dərd əlində doğrandım,
Qəm odunda əridim.

***

Gün yarı,
Ömür yarı, gün yarı.
Bulud ilə yaşmanır
Görən kimi Gün yarı.

***

Ara bir,
Axtar məni, ara bir.
Aramızda ayrılıq -
Sərhəd birdir, ara bir.

***

Dolusu,
Baxdım gözüm dolusu.
Saçıma qar yerinə
Yağdı dərdin dolusu.

***

Qalana,
Sönmüş ocaq qalana.
Torpaq vətən qoxuyar
Öz yurdunda qalana.

***

Çalmadı,
Başındakı çalmadı.
Balasına dəymədim,
İlan məni çalmadı.

***

Alma de,
Yanağına alma de.
Qadanı alım sənin,
Hünərin var "alma" de.

***

Aranı,
Gün yandırır Aranı.
Vətən qürbətdə qaldı,
Açan varmı aranı?!

***

Düzünə,
Çıxdım Taxta düzünə.
Bilmək olmur dünyanın
Əyrisi nə, düzü nə.

***

İl bizə
Yaş gətirir il bizə.
Sən Allah bülbül demə
Hər oxuyan ilbizə.

***

Adam yox,
Körfəzim yox, adam yox.
Bu dünyada yalqızam -
Məni duyan adam yox.

***

Bir yana,
Hərə düşüb bir yana.
Doğma odur, dost odur
Bir alışa, bir yana.

***

Torpaqlar,
Talan oldu torpaqlar.
O dağlara, düzlərə
Həsrət gözüm tor bağlar.

***

Sərindi,
Dağ havası sərindi.
Yurduna yiyə çıxan
Yada süfrə sər indi.

***

Yarı qəm,
Yarı sevinc, yarı qəm.
Bilsə ki, mən ölmüşəm
Öldürəcək yarı qəm.

***

Hər dəfə,
Bir cür olma hər dəfə.
Yerli-yersiz oynama
Hər zurnaya, hər dəfə.

***

Bəyazdı,
Qarlı dağlar bəyazdı.
"Bəy" dedik bəyənmədik -
Bəy əsilli bəy azdı.

***

Yaşama,
Yaşatmasan yaşama.
Qonşu qonşuya gedər
Ya çırağa, ya şama.

***

Nədəndi,
Ürək dözür - nədəndi?
Qarlı fəsillər bilir
Saçımdakı nə dəndi.

***

Küründü,
Kürlük yenə Küründü.
Gözün baxdı gözümə
Üstümdən qəm küründü.

***

Sər darı,
Xırman üstə sər darı.
Yerə enməz bayrağı
Qoşun saysa sərdarı.

***

Dər-divar,
Quzulayıb dər-divar.
Dərdsiz adam görmədim -
Hər kəsin öz dərdi var.

***

Dərə gül,
Yamac güldür, dərə gül.
Aşiq ona deyərəm
Tikanlıqdan dərə gül.

***

Hər ada,
Yaşıl olmaz hər ada.
İtməsin insanlığı
İnsan çatsa hər ada.

***

Damdımı,
Dəyədimi, damdımı?
Nə bildim yar gələcək -
Ürəyimə damdımı?

***

Daşdımı,
Sellər-sular daşdımı?
Əridim həsrətində -
Yar ürəyi daşdımı?

***

Qızar dan,
Gün çıxanda qızar dan.
Dağların havasıymış
Yanağımı qızardan.

***

Gecə yarı,
Oyağam gecəyarı.
Heyif, gəlib çıxmadı -
Gözlədim gecə yarı.

***

Yar odunu,
Yar bilər yar odunu.
Versələr kor baltanı
Oğulsan yar odunu…

***

O dinə,
O danışa, o dinə.
Yar imanım-dinimdir,
Qurban olum o dinə.

***

Yaş oduna,
Od düşməz yaş oduna.
Mən yanan görməmişəm
Qurunu yaş oduna.

***

Üzdə gül,
İç ağlasa üzdə gül,
Yanaqların lələdir -
Açılıbdır üzdə gül.

***

Yara danı,
Gün çıxa yara danı.
Hər aldığın nəfəsdə
Yad elə Yaradanı.

***

Düy məni,
Gəl zülfünə düy məni.
Bağla ki, qan düşəcək
Sinən üstdə düyməni.

***

O da yağı,
Bu dostdur, o da yağı.
Haqq əyilməz sütundur -
Kim əyər o dayağı?!

***

Bir diyara,
Həsrətəm bir diyara.
Bu yaralı sinəmdə
Sanma ki, birdi yara.

***

Yay-oxdu,
Qaş-kipriyin yay-oxdu.
Hardadır o məhəbbət -
Ya sönübdü, ya yoxdu…

***

Butası,
Sevgi ömrün butası.
Köhnə hamam, köhnə tas,
Kim qoyubdur bu tası?!

***

Yaraşanı,
Yar geyər yaraşanı.
Bu bağı xəzan vursa
Saxlaram yara şanı.

***

Əriyini,
Bağ sovub əriyini.
Oğul-uşaqdan alar
Dul qadın ər iyini.

***

Həyasıza,
Baş qoşma həyasıza.
Həyalı kəs o kəsdir
Üzündən həya sıza.

***

Yandır ocaq,
Çərşənbə yandır ocaq.
Keçsən odun üstündən
Şər qüvvə yan duracaq.

***

Qara dama,
Qar üstə qara dama.
Bu qar elə yağır ki,
Dönmüşəm qar adama.

***

Yaradımı,
Qövr edən yaradımı?!
Vaxt-vədəsiz ölməzdim
Çəksəydi yar adımı.

***

Yaş üstdə,
Quru yanmaz yaş üstdə.
Gözlərin yaşarmasın
Yaş gəlirsə yaş üstə.

***

Ala bulud,
Ağ duman, ala bulud.
Bu qurumaz yaşımı
Gözümdən ala bulud.

***

Alasan,
Sınıq könlü alasan,
Sənsiz ölmək çətindir,
Gəl canımı al asan.

***

Yaşa dol.
Ya qəmli ol, ya şad ol.
Yaş odun satma xalqa -
İnsan kimi yaşa dol.

***

Qıyma, qıyma.
Cavanam - qıyma, qıyma.
İlqarımdan dönmərəm
Doğrasan qıyma-qıyma.

***

Bir dənəm,
Sənsən mənim bir dənəm.
Yalvarıram, görməyim
Gözlərini bir də nəm.

***

Həmədan,
Yerin-yurdun Həmədan,
Ay qız, məni öldürən
Həm nazındı, həm ədan.

***

Kamala,
İnsan yetə kamala.
Arzuları çin ola,
Muradınca kam ala.

***

Əlincə,
Bir qalam var - Əlincə.
Yaramı yar sağaldar -
Barmaq zərif, əl incə.

***

Kim vara,
Bu mənzilə kim vara?!
Əldən gedər varlığı
Tamah salsa kim vara.

***

Hədiyyə,
Qəlbim yara hədiyyə.
İllər boyu gözlədim
"Yox" yerinə "hə" diyə.

***

Baldadır,
Arı ömrü baldadır.
Hər kəsin öz balası
Özü üçün bal dadır.

***

Busəni,
Əsirgəmə busəni.
Könül vermə əğyara
Xar edəcək bu səni.

***

Gülən davar,
Qoyuna gülən davar.
Bu ömür yollarında
Ağlayan, gülən də var.

***

Hasarı,
Araz hicran hasarı.
Yaram sağalan deyil -
Ha məlhəm qoy, ha sarı.

***

Qəm - dəniz,
Fikir - ümman, qəm - dəniz.
Bəxtin üzə güləndə
Heç qalarmı qəmdən iz.

***

Otağı,
Ürəyim qəm otağı.
Dərd içimdə tağ atıb,
Kim qoparsın o tağı?!

***

Dağ adaşı,
Dağımın dağ adaşı.
Dağ arana köçübdür,
Aranı dağa daşı.

***

Yazı qəm,
Yurdun qışı, yazı qəm.
Bəxtimə düşən - kədər,
Alnımdakı yazı - qəm.

***

Çal məni,
İlan kimi çal məni.
Yelə verdik illəri
Gəlib gördün çal məni.

***

Yan ağı,
Yan, bayatı, yan, ağı!
Öpüşümə həsrətdir
Dəlidağın yanağı.

***

Daşına,
El yurduna daşına.
Dizi tutan diz çökə
Torpağına, daşına.

***

Bu cağı,
Yurdun isti bucağı.
Kim poladdan hörübdür
Bu qəfəsə bu cağı?!

***

Dən izi,
Qəlbim həsrət dənizi.
Yurd yerində qalmayıb
Sünbül izi, dən izi.

***

Dil qəmi,
Çal dillənsin "Dilqəmi".
Bayatıya, ağıya
Çevirərmiş dil qəmi.

***

Dərəsi,
O gülü kim dərəsi?!
Qəlbimin qəm tacıdır
Yurdun yetim dərəsi.

2010-2012

BƏXTİN BİÇİMİ

Libasım başqadır, qiyafəm başqa,
Əynimə düz gəlmir bəxtin biçimi.
Məndə sevinc başqa, məndə qəm başqa,
Şairlik bəndə yox, Tanrı seçimi.

Ayrıldım sultanlıq təxti-tacımdan,
Ağ duman yol salıb qara saçımdan.
Hər gün asılıram dar ağacından,
Cəllad ağrılarım soyur içimi.

Gözümü yandıran yaş mənə qaldı,
Baharı gecikən qış mənə qaldı.
Babamdan qalanlar düşmənə qaldı -
Qurda yem elədim qoyun-keçimi.

Harayım, fəryadım dünyanı tutar -
Haqqın dərgahına gedib də çatar.
Səhra yolçusuyam - dodağı cadar,
Hanı Yüzbulağın bircə içimi?

Düz sözü qulaqda sırğa bilmişəm,
Puç ömür sürəni qarğa bilmişəm.
Dağları özümə arxa bilmişəm,
Gün gəlsin yurduma çəkim köçümü.

NƏSƏ GÖZLƏYİRƏM MƏN BU HƏYATDAN

Təzə dərdləri var təzə dünyanın,
O köhnə kişilər düşübdü atdan.
Uçruma gedirik, durun, dayanın,
Bir az şübhəliyəm mən bu həyatdan.

Bu ölüm, bu qalım savaşlarında
"Koroğlu" saxtadır, "Nəbi" saxtadır.
İblis qəh-qəhi var göz yaşlarında,
Məddah şairlərin təbi saxtadır.

Layla deyənlərin dili qan olub,
O beşik, o yüyrük, o nənni yoxdur.
Yerindən hər duran oxuyan olub,
Dünyada bu qədər müğənni yoxdur.

Gerçəyə baxırıq yuxulu kimi,
Nə yuxu çəkilir, nə mürgü keçir.
Nağıl yox bu həyat nağılı kimi,
Gələcək gəlincə ömür-gün keçir…

Yaman yad olmuşuq yaddaşımıza -
Yaralı yurd yeri çıxdımı yaddan?!
Bəlkə də qayıtdıq dağ-daşımıza -
Nəsə gözləyirəm mən bu həyatdan.

MƏN ÇƏKƏSİ NƏ QALDI

Tanrı mənə bir dərd verib, neyləyim -
Ay uzunu, il uzunu çəkmişəm.
Dərin-dərin dəryaların dibindən
Gül bildiyim göy yosunu çəkmişəm.

Qara bulud ağ donunu geyməyib,
Yaxşı xəbər heç qapımı döyməyib.
Mən bu yurdun ağrısına göynəyib,
Mən bu elin namusunu çəkmişəm.

Hər günümüz bir cavabsız sualdı,
Biz görməyən döyüş gedir sualtı.
O dünyaya mən çəkəsi nə qaldı?!
Bu dünyada hamısını çəkmişəm.

HƏYAT YOLLARDADIR

Azərbaycan avtomobil yollarının fəal qurucularından olan əməkdar mühəndis Xəqani Kazımova

Gözümü açandan gürmüşəm ki, mən
Bir maşın yolu var, bir at yolu var.
Enmişəm arana o zirvələrdən -
Yollarda doğulan həyat yolu var.

Ey mənim qardaşım, mənim yurddaşım,
Yol çəkmək əzəldən ər işi olub.
Güllü bir xalıya dönüb dağ-daşım,
Bu yollar arğacı, ərişi olub.

Sən çəkən yollardan çox keçsək də biz
Yolumuz gah hava, gah su yoludur.
Yollarda göyərib əməllərimiz,
Bu yollar gül açan arzu yoludur.

Mühəndis qardaşım, sənin zəhmətin
Kimsənin yadından çıxmasın barı.
Bu qədim ölkənin, bu məmləkətin
Bakıya qovuşur yol damarları.

Torpağa bağlanan o ürəyində
Vətən məhəbbəti, yurd qanı varmış.
Hər gün iş başında səni görəndə
Deyirəm nə yaxşı Xəqani varmış.

Çəkdiyin yolları sən zaman-zaman
Cadarlı çöllərə, susuz yerə çək.
Yol çəkir gözlərim, yol çəkən oğlan,
Bir gün bu yolları Kəlbəcərə çək!

GERÇƏKLİK

Gözümü açandan, ağlım kəsəndən
Mənim kürəyimdə qəm şələsi var.
Görəsən görürmü qurban olduğum -
Bu boyda dünyada bir beləsi var?!

Adətə xor baxmaq düz adət deyil,
Yalandan diz çökmək ibadət deyil.
Meşə bir ağacdan ibarət deyil -
Palıdı, cökəsi, şam, vələsi var.

Gələnə-gedənə baca dünyanın,
Yolları yolçuya haça dünyanın
Bu cavan görünən qoca dünyanın
Leysanı, daşqını, zəlzələsi var.

Yaxından xəbəri yox uzaqların,
Öləndən fərqi yox qalan sağların.
Dumana bürünən qarlı dağların
Sinəmə dağ çəkən silsiləsi var.

Sabaha uçmağa yoxdu qol-qanad,
Kimə nə faydası - ha yaz, ha yarat!..
Yaman hiyləgərdir gözəlim həyat -
Hər addım başında bir tələsi var.

Alın yazısıdır xeyir də, şər də,
Bir xoşbəxt görmədim külli-bəşərdə.
Göydəki quşun da yuvası yerdə -
Nə yaxşı yerimiz Yer kürəsi var.

Bu qoca dünyanın təzadına bax -
Qəfəsdə çırpınan "azadına" bax.
Ay Adil, əyrinin düz adına bax -
Nə mizan qalıbdır, nə tərəzi var.

ƏRİDİM ÖMÜR KİMİ

Döyüldüm dəmir kimi,
Qaraldım kömür kimi.
Əridim ömür kimi -
Bir şama piltə oldum.

Məni çöldən tapdılar,
Qurd ağzından qapdılar.
Yoğurdular, yapdılar
Küt gedən kündə oldum.

Fələk yazı yazanda
Vardım - doğulmasam da…
Vallah, nə olmasam da
Tanrıya bəndə oldum.

17 iyul 2012

KƏLBƏCƏRDƏ

Çəmən-çəmən çiçəkləyən
Yağış vardı Kəlbəcərdə.
Bir qarışda min çalarlı
Naxış vardı Kəlbəcərdə.

Unutmayıb cavan olan -
O dağlarda çoban olan:
Göylərə nərdivan olan
Yoxuş vardı Kəlbəcərdə.

Hər yan məclis-mərəkəydi,
Kənd qızları tünəkəydi.
Oğul gərək tum əkəydi -
Çox iş vardı Kəlbəcərdə…

Yaylaqlar eşqin əzəli,
Bulaqlar dağlar gözəli.
Gün çıxanda möcüzəli
Doğuş vardı Kəlbəcərdə.

Adil Cəmil dolub yenə -
Ürəyi titrəyən nanə.
Bu dünyaya şairanə
Baxış vardı Kəlbəcərdə.

2012

GİLEYLİYƏM

Aylar gedir, illər gəlir,
Baxıram sıra seyrəlir…
Ürək yanır, qəlb köyrəlir
Ayrıldıqca dost-tanışdan.

Yer qazırsan kurqan çıxır,
Nar çiçəyi al-qan çıxır.
Qanqal bitir, tikan çıxır,
Gül göyərmir hər yağışdan.

Qoca tarix, nədir mürgün?
Yoxsa bəxti yatıb türkün?
Başlayırmış bu ömür-gün
Şirin-şəkər aldanışdan.

Yoza bilsən min yozu var,
Qurda təpinən quzu var.
"İsgəndərin buynuzu var" -
Eşidirik qar-qamışdan.

Quzeyliyəm, Güneyliyəm,
Sevgimlə haylı-küylüyəm.
Allahıma gileyliyəm
Mən bir Allah saxlamışdan.

2012

HƏR XIRMANDA DÖYÜLMƏDİM

Çoxlarına dəstək oldum,
"Çox sağ ol"u çox gördülər.
Varlığıma göz yumanlar
Məni varkən yox gördülər.

Bir əmim, dayım olmadı,
Sərvətdən payım olmadı.
Çörəyim, suyum olmadı,
Yenə məni tox gördülər.

Hər xırmanda döyülmədim,
Hər daş altda üyünmədim.
Sındım, amma əyilmədim -
Qamətimi şax gördülər.

2012

BALASI

Xəlvət açan söz çiçəyim
Qəlbimin fidan balası.
Sözdür mənim taleyimin
Başdan-binadan balası.

Molla yasda şadlıq edir,
Abadı bərbadlıq edir.
Şəyirdkən ustadlıq edir
Nadanın nadan balası.

Yolçu yoxdur - əyləməyə,
Ovçu yoxdur - küyləməyə.
Dərdlərimi söyləməyə
Tapmıram adam balası.

Yaşayırıq dözə-dözə,
Hər şey köhnə, günəş təzə...
Nə yaxşı boylanır bizə
Dan üzü o dan balası.

Elə ki, şər əyir səni,
Heç axtarmır xeyir səni.
Onsuz da qəm yeyir səni,
Qəm yemə, atam balası.

SAXTA ADAM

Ömrüm boyu səndən qaçdım,
saxta adam.
Niyə Allah bizi saldı
bir zamana, vaxta, adam?!

Qəlbinin qoru tükənib,
Üzünün nuru tükənib -
qalmısan lap Nuh-Nəbidən.
Saxta-saxta gülümsəmək
öyrənmisən əcnəbidən.

Yox sözündə səmimiyyət,
a bədniyyət.
Üzündə üz bitib sənin,
dizində diz bitib sənin,
əl-ayağı taxta adam,
saxta adam.

İnsan deyil, robotsan sən,
Robotlardan obortsan sən.
Boğulursan öz içində,
Duyğuları axta adam -
saxta adam.
Bu sifətə mükafatdır
Yal içərək hey köpdüyün.
Düyünə düşsə də işin
Sənsiz keçməz bir toy-düyün.
Əriməz bahar eşqinə
İçindəki şaxta, adam,
saxta adam, saxta adam...

AĞI

dirilər üçün

Bağ becərdim, ağac əkdim -
O bağçam hey, o bağım hey!
Kafirlərin tapdağında
İnildəyən torpağım hey!

Yoxsul olduq var içində,
Öldük umudlar içində.
Qara buludlar içində
Qara gələn sabahım hey!

Unutqanlıq adətdimi?
Bunu tarix öyrətdimi?
Qeyrətsizlik "qeyrətdimi?"
Başdan düşən papağım hey!

MƏNƏ SADİQ DOST TAPILMAZ

Qızılım, gümüşüm hanı
Bu itən vaxtdan savayı?!
Taxtımmı var, xəyallarda
Qurduğum taxtdan savayı.

Bədöy atlarım çapılmaz,
Sınıq ürəyim yapılmaz.
Mənə sadiq dost tapılmaz
Çəkdiyim ahdan savayı.

Çoxmu çəkər ah, bu ahım,
Haqq divanı - son dərgahım.
Yox ümidim, ümidgahım
Bağlı sabahdan savayı.

Nə deyib küsüm, küsənəm,
Mən ki özümdən küsənəm.
Bu dünyada bir kimsənəm
Varmı Allahdan savayı?!

ÇOXDUR AĞRI-ACIMIZ

Pərvanələr kül olub
Qalır odun başında.
Qantarğadan qan sızır
Ayğır atın başında.

Ar bilənlər arlanır,
İsmətlilər nurlanır.
Fəlakətlər fırlanır
Kinli qadın başında.

Çoxdur ağrı-acımız,
Yoxdur bir əlacımız.
O Kəlbəcər tacımız
Niyə yadın başında?!

Sərt qayalar çapılmır,
Deyilənlər yapılmır.
Kişi adı tapılmır
Hər soyadın başında.

Bir başqa yola varsam,
Məni məndən qovarsan -
Tanrım, nə yaxşı varsan
Bu həyatın başında.

BİZİ YAVAŞ-YAVAŞ ÖLDÜRÜN BELƏ

Genetik modifikasiya əməliyyatından keçmiş meyvə-tərəvəz və digər qida məhsulları Azərbaycana idxal olunur. Vaxtında bunun qarşısı alınmasa yaxın gələcəkdə genefondumuz məhv ola bilər.

Baş açа bilmirəm bu zəmanədən,
Bizim başımıza gör nələr gəlir.
Gözün görə-görə çürüyür bədən -
Xaricdən zəhərli meyvələr gəlir.

Almanı alırlar əqrəb genindən,
Bu sirri anlayıb, bilən tapılmır.
Xurmanı alırlar dəvə gönündən,
Odur ki, qocalıb ölən tapılmır.

Armudun, üzümün sümük saplağı
Bənzəyir zəhərli ilan dişinə.
Yuxudan ayılıb vətən torpağı
Son qoymur dünyanın bu gərdişinə.

Elə bil fəsillər heç ötüşməyir -
Hansı ay nə desən bitərmiş demə.
Həşarat kartofa yaxın düşməyir,
İnsan həşaratdan betərmiş demə.

İndi bilmişəm ki, əvəzi yoxmuş
Bizim o kənddəki xoruz-beçənin.
Sən demə bu günü yekə toyuqmuş
Dünən yumurtadan çıxan cücənin.

İnsanın tamahı yaman dərində,
Nəfsinə qul olan yüz yerə dönür.
Bakının mərkəzi küçələrində
Pakistan camışı dönərə dönür.

Sirri tez açılır qəfil ölənin,
Bizi yavaş-yavaş öldürün belə.
Ey tacir, haqqı yox sizə gülənin,
Milləti dünyaya güldürün belə,
Təki cibinizi doldurun belə.

SOYUQ HAVALARA

Hər yer soyuq -
Yer soyuqdur, səma soyuq.
Saray soyuq, koma soyuq.
Planetin o başında
Meşələr istidən yanır.
Planetin bu başında
İnsanların buz bağlamış
Damarında qan dayanır.
Bir tərəfdə od dilimi,
Bir tərəfdə qar uçqunu.
Düşünürəm bu havada
Məhv olmayan qarışqanı.
Zəlzələlər ocağında,
Qasırğalar qucağında
İnsan qarışqadan kiçik -
Ən kiçikdən adam kiçik.
Hər yer soyuq - üşüyürəm
Od tutan meşəni görüb.
Xəyalımda Kəlbəcəri,
Yuxumda Şuşanı görüb.
Utanıram yurd qoxulu
Qarışqanın qeyrətindən -
Mən kimlərə öyrədim nə?!
Hər yer soyuq -
Yetimin göz yaşı kimi.
Hər yer soyuq -
Elə qəbir daşı kimi.
Hər yer soyuq...
Qısılıram
Ürəyimin istisinə.
İnanmıram
İçimdəki isti sına.

GÜNƏŞƏ MƏHƏBBƏTLƏ

Yalqız qaldığım gecələr
Divarlar üstümə gəlir.
Tufanda batır qayığım -
Avarlar üstümə gəlir.

Kim deyir ki, aylı gecə
Gündüzlərə tən doğulur?!
Bircə günəş doğularkən
İnsan təzədən doğulur.

Nə gəlirsə Göydən gəlir,
Əlayi-ərşdən süzülür.
Beşiyimiz Yer üzünə
Həyat Günəşdən süzülür.

ADİ HEYRƏT

Lənətə gəlmiş adamın
Acından erməni çıxır.
Avropanın ağa çalan
Saçından erməni çıxır.
Eyfel adlı qüllənin də
Ucundan erməni çıxır.
Senatdakı senatorun
Qucundan erməni çıxır.
Romadakı papasının
Xaçından erməni çıxır.
Lap elə Tac-Mahalın da
Tacından erməni çıxır.
Fərməşə qalmayıb inam,
Xurcundan erməni çıxır.
Bir millətin o birinə
Borcundan erməni çıxır.
Düz deyiblər: - qaraçının
Köçündən erməni çıxır.
Donuz hara, zirvə hara -
Laçından erməni çıxır.
Əkindən erməni çıxır,
Biçindən erməni çıxır.
Yer kürəsi kal qarpızdır -
İçindən erməni çıxır.

BU ÖMÜR-GÜN

Kədər olub barım, bəhrəm,
Dərdimdən bəhər çəkirəm.
Qara sudan qaymaq kimi
Gecədən səhər çəkirəm.

Həyat - eşqin əzabında,
Əzab - ömrün hesabında.
Hər siqaret qullabında
Canıma zəhər çəkirəm.

Dərd sevincdən böyük imiş,
Sevinc üzü dönük imiş,
Bu ömür-gün bir yük imiş -
Onu birtəhər çəkirəm.

İNDİ

Dağı dağ üstünə qoyardım bir vaxt,
Dağ uçub, qalmışam altında indi.
Yorulmuş xəyalım heç nə aramır
Göylərin yeddinci qatında indi.

Bir zaman gözləri şehlim var idi,
Məni Məcnun edən Leylim var idi.
Qızıla, gümüşə meylim var idi,
Daha kara gəlməz altun da indi.

Yamandan yaxşıya calaq qoyurlar,
Yaltağın önünə yalaq qoyurlar.
Adını dəyişib ulaq qoyurlar
Cilovu gəmirən atın da indi.

Həvəsin qalıbsa vurul təzədən,
Qüdrətin yetirsə qurul təzədən.
Hünərin çatırsa durul təzədən
Qarışıq dünyanın xıltında indi.

Adilin ürəyi qubar bağladı,
Yazmaqdan barmağı qabar bağladı.
Bu hansı qandır ki, damar bağladı -
Ərinə bəy demir "xatun" da indi.

BÜTÜN DOĞULANLAR ŞAİR DOĞULSA

Arada-bərədə görürsən tez-tez
Deyirlər: nə çoxdur şairlərimiz,
Bizə həkim gərək, mühəndis gərək,
Bunun qarşısını alaq biz gərək.
Mən isə deyirəm şair çox olsun,
Bütün doğulanlar şair doğulsun.

Bəxtiyar Vahabzadə

Bütün doğulanlar şair doğulsa
Heç ümid işığı öləziyərmi?
Sonuncu sözünü deməmiş insan
Sonuncu mənzilə tələsiyərmi?

Bütün doğulanlar şair doğulsa
Ehkamı çin olar bu şəriətin.
Açılar üzünə cənnət qapısı
Günahsız, bakirə bəşəriyyətin.

Bütün doğulanlar şair doğulsa
Qalmaz ayaq altda bu qarışqalar.
İnsanlar Allaha yaxın yaşayar,
Tanrı dərgahına bir qarış qalar.

Bütün doğulanlar şair doğulsa,
Ay ustad, bölünmüş yurd olardımı?
Cüyür şaqqasına yerikləyən şir,
Quzu parçalayan qurd olardımı?

Bütün doğulanlar şair doğulsa,
Demək dəryalarda su pərisi var.
Təbiət özü də bir cəmiyyətdir -
Burda bal arısı, it arısı var.

Bir fateh ömrünün bütün mənası
Şairin beş kəlmə sözündən keçir.
Külli-kainatın açılmaz sirri
Şairin bəsirət gözündən keçir.

Alın yazısı var, Tanrı payı var,
Hər yetən insana bəxti yar olmur.
Bəxtiyar o kəsdir şair doğulur,
Fəqət hər şair də Bəxtiyar olmur.

BİR DÜNYAN VAR - TÜRK DÜNYASI

Türkün böyük alimi Nizami Cəfərova

Tarixinə işıq salıb
Tanıdırsan türkü türkə.
Dildə gəzir, sözdə gəzir
Səs-sorağın ölkə-ölkə.

Gözlərinin aynasında
Tanrıdağın səması var.
Sevgi dolu saf ruhunla
Böyük Çölün təması var.

Keçir sənin süzgəcindən
Qədim türkün daş yazısı.
Ürəyində millət eşqi,
Yazdığın - qardaş yazısı.

Axtarırsan, arayırsan
Sən Altaydan Çinə kimi.
Türkün ilkin əcdadından
Lap elə bu günə kimi.

Keçir sənin qələmindən
Ər Atilla, Bilgə Xaqan.
Vəsiyyət də qoyub gedib
Əbədilik türkə Xaqan.

Kitabələr kitab olur
Qələminin qüdrətilə.
Soyumuzda ruh dirilir
Sən alimin fitrətilə.

Bozqırların yovşan ətri
Hər sətrinə səpələnir.
Türk sevdası xəyalının
Ümmanında ləpələnir.

Dünənimsən, sabahımsan,
Bir dünyan var - Türk dünyası!
Bəlkə də səni yetirib
Sonuncu şaman duası…

14 sentyabr 2009

ARILAR ÖMRÜNÜ TOXUYAR ŞANA

Arılar bal çəkən bu çiçəklərin
Hələ şirəsi var, hələ şəhdi var.
Ölsə də qəm yeməz ana arılar -
Beçə biçimində "vəliəhdi" var.

Qonar min çiçəyə, uçar min yana,
Arılar ömrünü toxuyar şana.
"Bal" adlı "əsəri" qalar nişanə -
Onun da həyatda yəqin əhdi var.

Günlərlə yol gedər çiçəyə sarı,
Verər başqasına yığdığı varı.
Deməzdim gözəldir bal çəkən arı -
Gözəl o kəsdir ki, gözəl bəxti var.

2008

***

Axşamın hüznü var səhər yelində -
Elə bil Günəş də çevrilib Aya.
Şəhərli qalmayıb şəhər yerində -
Köçüb Avropaya, Amerikaya.

Boş günlər keçirmək kimi yaşadır,
Niyə xatırlatsın boş rəfi insan?
Dünyanın təklənmiş vətəndaşıdır
Külli-kainatın əşrəfi insan.

16.06.08

NƏSİHƏT ƏVƏZİ

Meydanı görmədən
Meydana girmə -
döyüş yiyəsi.

İkisi vuruşsa
harayçı olma -
olma havayıdan
söyüş yiyəsi.

Sən də bil,
başına paya dəyəcək -
yaş odun satanda,
höyüş yiyəsi.

Ay insan,
dünyada nə işin qalıb
əgər deyilsənsə
bir iş yiyəsi?!

2009

UZAQDA BİR İŞIQ YANIR

Səndən, məndən uzaqlarda,
Sapsarı bir işıq yanır,
"saçları" pırtlaşıq yanır.

Uzaqlarda yanan işıq,
Sən bir ümid işığısan,
Yoxsa həsrət haləsisən?
İçində bu yanğı hardan,
Günəşinmi giləsisən?

… Atam ata yuvasından,
Öz suyundan, havasından
Bir gün didərgin düşəndə
Ev damının dirəyində
Çırağı yanılı qoyub…
O sənsənmi, sarı işıq?
Öləzimə, barı, işıq.

2011

O ZƏMANƏ DEYİL

Bir gedimlik yol gəzirəm -
Duman dumana qarışıb.
Ürəyim insaf ocağı -
İman imana qarışıb.

Vətən dərd versə qürbətdir,
Dil bal olsa söz şərbətdir.
Yaxşılar yaxşıya bənddir,
Yaman yamana qarışıb.

"Can" deyən çox, can verən yox -
Bu xislətə son verən yox.
Gəmim batır, yan verən yox -
Liman limana qarışıb.

Əsən ürək nanə deyil,
Ömür bir boş xanə deyil.
Daha o zəmanə deyil -
Zaman zamana qarışıb.

2011

KİLSƏNİN ARQAN MUSİQİSİ

Kilsənin arqan musiqisi
Adamı çəkir özünə
Qız şıltaqlığı kimi,
Rus bataqlığı kimi.

Kilsənin arqan musiqisi
Gerçək edir xəyalları.
Bu ovqatın paklığından
Sıyrılıb çıxır
Rahiblər, rahibələr -
Əbədi Allah qulları…

2011

NƏ DEMƏK

İstedadlı dostum Aşıq Nemətə

Qoca dünya, hər zamanın hökmü var,
Bilirsən ki, yalan vədlər nə demək.
Ehtiramla baş əyilən ehramlar,
Haqdan uzaq "həqiqətlər" nə demək.

Çox itkinlər vətən seçib qürbəti,
Çox fatehlər unudubdur mürvəti.
Kimə qalıb bu dünyanın sərvəti,
Tarix bilir qənimətlər nə demək.

Qanımızda ana yurdun mehri var,
Canımızda ilham adlı nəhri var.
Ruhumuzda sazın-sözün sehri var -
Nemət bilir bu nemətlər nə demək.

Yer üzündə yaxşı azdır, yaman çox,
Yamanlardan yaxşılıq da uman çox!
Allah birdir, dinlər boldur, iman çox,
Təfriqələr, təriqətlər nə demək?!

Adil Cəmil, yaylaq sanma aranı -
Gül bitirməz boz torpağın şoranı.
Neştər vurub sızıldatma yaranı,
Bilirsən ki, köhnə dərdlər nə demək.

2010

YAZIQ

Şöhrətin xumarında
Elə bilmə dahisən.
Sən saray havasında
İşrətin məddahısan.
Mənim qəm tişəsiylə
Ürəyim qazıq-qazıq,
Vallah yazdığım şeri
Yaza bilməzsən, yazıq.

Çiynindədir hələ ki,
Tanrımızın bir əli.
Sən necə yaşayırsan,
Belə ikitirəli?!
Kim olsan da
olmayıb
azadlığın azacıq.
Mənim yazdığım şeri
Yaza bilməzsən, yazıq.

Üstünə dən atılan
Qəmli qəfəs quşusan.
Sən - sözün alverçisi,
Möhtəkir tay-tuşusan.
Getməzsən bu dunyadan
Üzüağ, alnıaçıq.
Mənim yazdığım şeri
Yaza bilməzsən, yazıq.

Demirəm ki, dərd səni
Mənim kimi dağlasın.
Demirəm ki, şerini
Oxuyanlar ağlasın.

Biz ki özgə adamıq,
Biz ki başqa avazıq.
Mənim yazdığım şeri
Yaza bilməzsən, yazıq.

2009

ÖMÜRNAMƏ

Gəldim, göründüm, getdim,
İlan tək süründüm getdim.
Bir ağ gün görməsəm də
Ağa büründüm getdim.

NƏ VAR, NƏ YOX

Mənim kimi dərdli olsan
Bilərsən ki, nə var, nə yox.
Gülümsəyib göz yaşını
Silərsən ki: - nə var, nə yox?

Günü aya düzə-düzə,
Bir gün düyən çıxar düzə.
Dünyanı gecə-gündüzə
Bölərsən ki, nə var, nə yox.

Duman gedər, çiskin gələr,
O dünyadan bəs kim gələr?!
Yazıq Adil, bir gün gələr
Ölərsən ki, nə var, nə yox…

2010

ŞEİR YAZMAQ

Mənim üçün şeir yazmaq
İçimdə ağlamaqdır.
Mənim üçün şeir yazmaq
Dərdi sığallamaqdır.

Mənim üçün şeir yazmaq
Səhrada tapılan sudur.
Mənim üçün şeir yazmaq
Öləndən sonra
Sağ qalmaq arzusudur…

2011

QLOBAL İSTİLƏRƏ

Çoxalır istisi Yer kürəsinin,
Buzlaqlar əriyir, nəhrlər daşır.
Təbiət hayında dağ-dərəsinin,
Meşənin alovu başından aşır.

Bəlkə də haqlıdır bu xislətində -
Günəşin torpağa "payı" çoxalır.
İsti havaların hərarətində
Soyuq adamların sayı çoxalır.

Belə havalarda çıxıb yuvadan
Zəhər hazırlayır əfi ilanlar.
Bu zülmün əlində neyləsin adam -
İstidə çəkirsə kefi ilanlar?!

Şimalda rus bezib alın tərindən,
Ərəb ölkəsində sərin meh əsir.
İlahi, yer çıxıb öz məhvərindən
Günəşə dönməyə yoxsa tələsir?

Çoxalır istisi Yer kürəsinin,
Qızışan dünyanın dərdi-səri çox.
Görünür bu günəş kirkirəsinin
Hələ üyüdəsi zəmiləri çox...

DAĞLARMI QƏRİBDİR, MƏNƏMMİ QƏRİB

Bu dərdin nə yaman ac xisləti var -
Qanımı içdikcə "doydum" demir ha.
Özüm diksinirəm öz fəryadıma,
Bircə kəs "eşitdim, duydum" demir ha.

Qürbətdən boylanır qərib dağlarım,
Gəzir sahibini yurd ocaqlarım.
Mənzilə yetməyən bu ayaqlarım
"Səni yarı yolda qoydum" demir ha.

İllərin üstünə illər calanır,
Dərd-qəm parçalanmır, qəlb parçalanır.
Yurda can atıram yol haçalanır,
Ayrılıq "dərini soydum" demir ha.

Dağlarmı qəribdir, mənəmmi qərib?
Ay Adil, kül oldun yanıb, közərib.
Tanrının özü də halallıq verib
"Bu ömrü mən sənə qıydım" demir ha.

BU KARVAN YOLU

Göz qamaşdıran Çin ipəyi vaxtilə türk tacirlərinin başına çox bəlalar gətirib

Səni yanıltmasın zınqırov səsi,
Yolun hayanadır, a karvanbaşı?
Bu qızmar səhranın odlu nəfəsi
Görürsən yandırır torpağı, daşı, -
Yolun hayanadır, a karvanbaşı?

Mənzili haradır bu qafilənin,
Hayandan gəlirsən, hara gedirsən?
Yoxmu bəxt oxuyub, qismət bilənin,
Düşmüsən bir ipək tora, gedirsən -
Hayandan gəlirsən, hara gedirsən?

Yoxsa yol gəlirsən Çinü Maçindən,
İpək yoludurmu bu karvan yolu?
Səhra göyərməyib ümid içindən -
Bozaran bozqırlar qızıl qan dolu,
İpək yoludurmu bu karvan yolu?!

YORĞUN QAYIQÇIYAM

"Əmi" deyənlərim artır günbəgün,
"Dayı" deyənlərim çoxalır yaman.
Doğrumu göstərir məni bu güzgüm,
Baxıram ürəyim yuxalır yaman.

Ötən gəncliyimə indi təşnəyəm,
Səhralar qoynunda - quraqdayam mən.
Bir yalqız yamacda yapılıb dəyəm -
Gözəllər gözündən qıraqdayam mən.

.
İçimdə el dərdi, yurd həsrəti var,
Torpaq əyir məni, daş əyir məni.
Əlimdə qələmdir çəkdiyim avar,
Yorğun qayıqçıyam, yaş əyir məni.

Düşüb misra-misra haqqın izinə
Şairlər sabaha gözü qan çıxır.
Təzə öyrəşirkən "ata" sözünə,
"Baba" deyənin də bu yandan çıxır.

Bu ömür tarixi, gün olayıdır,
Qarşıdan qocalıq zirvəsi gəlir.
Övlad da, nəvə də Tanrı payıdır,
Görəndə yaşamaq həvəsi gəlir.

XƏSTƏXANADA

Xəstəxana pəncərəsindən
Günəş solğun gürünür,
Ay yorğun.
Şipşirin həyat elə bil
dadını, tamını itirir,
Özünü itirmək qorxusu ilə
Adam az qala hamını itirir.
Xəstəxana divarından
asılmış saatın
əqrəbləri "dayanır" gecələr.
Ümidlər yatır,
ağrılar oyanır gecələr...

MƏNİM LƏZGİ DOSTLARIM

Tələbə yoldaşım Vidadi Sevzixanova

Qartal kimi can atar
Dağların zirvəsinə.
Haramı yaxın qoymaz
Halalca süfrəsinə
Mənim ləzgi dostlarım.

Dost üçün gözlərinin
İnan ki, ağını verər.
Bağında almanı yox,
Lap alma bağını verər
Mənim ləzgi dostlarım.

Qocalıb əldən düşər,
Amma düşməz atından.
Ac qalar, susuz qalar,
Qalmaz zarafatından
Mənim ləzgi dostlarım.

Hərdən də göz-qaş ilə
Qanmazları qandırar,
Oynayanda şaqqaşaq
Sümüyünü sındırar
Mənim ləzgi dostlarım.

Cığırlar Şahdağından,
Yollar Samurdan keçir.
Hardasız, darıxmışam -
Günlər ömürdən keçir,
Mənim ləzgi dostlarım,
Mənim ləzgi dostlarım.

KƏPƏNƏKLƏR - GÜL LƏÇƏYİ

Bir çiçəyin rəngindədir
Çəmən boyu hər kəpənək.
Zərifliyin heykəlidir
Qanadları zər kəpənək.

Kəpənəklər çiçəklərin
Qol-qanadlı gələcəyi.
Kəpənəklər havalanıb
Göydə uçan gül ləçəyi.

Kəpənəklər göy çəmənin
Gül ətri, gül qoxusudur.
Kəpənəklər çiçəklərin
Allı-güllü yuxusudur.

Zənn etməyin kəpənəyin
Ay ömrü var, il ömrü var.
Gül üstündə süzən "gülün"
Özünün də gül ömrü var...

YETİMİ AĞLAR GÖRƏNDƏ

Ağacları ağlayanda görmüsüzmü -
Payız gəlsə, xəzan vursa
"Göz yaşları" yarpaq-yarpaq tökülər,
Təbiətin yaşıl bağrı sökülər.

Buludları ağlayanda görmüsüzmü -
Şimşək-şimşək kirpik çalıb
Min yerindən leysan tökər,
Bu leysandan yer yarılar, torpaq çökər.

Yetimləri ağlayanda görmüsüzmü -
"Ata" deməz, "ana" deməz.
Dərdini Allaha deyər -
Ona deməz, buna deməz...

Ağacın da, buludun da
"Göz yaşına" kövrəlmirik.
Yetimi ağlar görəndə
Özümüzə heç gəlmirik...

BİR SƏHRA YOLÇUSUYAM

Mən ki gözə girmədim,
Qıraqlara çəkildim.
Zülmətə zülm eləyən
Çıraqlara çəkildim.

Donmuş havayam, suyam,
Vallah, nəyəmsə buyam.
Bir səhra yolçusuyam-
Quraqlara çəkildim.

Cıdırlarda yarışdım,
Uduzanda barışdım.
Misra-misra alışdım,
Varaqlara çəkildim.

Bilməm ürək haradı-
Mənim ruhum yaradı...
İllər yaman daradı-
Daraqlara çəkildim.

Mənəm dərdə aşina,
Həsrətəm dağ-daşıma.
Dönübən göz yaşına
Bulaqlara çəkildim.

Görəsən kiməm, nəyəm,
Həyat beləmi bəyəm?!
Tanrım sevən bəndəyəm-
Sınaqlara çəkildim.

İŞĞAL

Zəncirində bağlı qalan itimiz,
Quruyan meyvə ağacları.
Boğucu barıt havası,
Uçuq evin eyvanında
yellənən qaranquş yuvası.
Xoruz banıyla açılmayan
səhər,
Gönü suya verilmiş yəhər.

Kol kosun,
ot-ələfin
altında qalan damlar,
heyrətdən dikələn
qəbir-adamlar...
Körpüsündən keçilməyən,
bulağından içilməyən,
Cəngəlindən seçilməyən
bir kənd.
Torpağa dən yerinə
Səpilən qurğuşun.
Ara-sıra səsi gələn
bayquşun
bülbüldən fərqi.
Şərqin məzlum müsəlmanı,
məzlum müsəlman Şərqi...
Su quyusuna dönmüş təndir,
Külü göyə sovrulan ocaq.
Bundan artıq nə olacaq!..
Yanmır ocaq,
yanmır təndir.
Hanı dar ağacı,
hanı kəndir?!.

DİDAKTİK ŞEİR

Bu fani dünyada insan odur ki,
İnsanın dərdinə, sərinə qalır.
Yaxşılıq yaşayır- çıxmayır yaddan
Neçə əsr qalır, qərinə qalır.

Başdan çəkilməsə dərdin dumanı
Bil ki, yetişibdi səbrin zamanı.
Ümidsiz adamın axır gümanı
Köhnə dəyirmanın pərinə qalır.

Yaşamaq istərsən gəl nəfsini boğ-
Qəlbi düz olanın gözləri də tox.
Ata varyətinə varis çıxan çox,
Axırda sahiblik birinə qalır.

Əxz elə nəsihət, götür ki, ibrət
Zəhərə dönməsin içdiyin şərbət.
Ağılsız kişinin yığdığı sərvət
Arvadın ikinci ərinə qalır.

Bağlamaz yolunu qar bu dünyanın,
Olmarıq əlində xar bu dünyanın.
Ərənlik körpüsü var bu dünyanın-
Oğullar atanın yerinə qalır.

Dinsiz, imansızın başqa dini var,
Hər kəsin həyatda yolu, yönü var.
Adil Cəmilin də köçən günü var-
Bu canlı aləmdən diri nə qalır?..

BİOQRAFİK ETÜD

Xalq şairi Nəriman Həsənzadəyə

Dağı arana daşıdı,
aranı dağa.
Sonsuz səma verdilər,
qanad vermədilər uçmağa.

"Su" deyib yandı
bulaq başında.
Yetimlik göynədi
uşaq yaddaşında.

Ürəyindən tuta-tuta böyüdü,
Sıldırımlar sındırmadı əzmini.
Ağ varağı kətan bilib köçürdü
Tanrı yazan taleyinin rəsmini.

Qocaman yaşında da
qaldı büllur kənd uşağı kimi.
O qaçdı səadət arxasınca,
Səadət ondan qaçdı-
göyqurşağı kimi...

...Bu da bir şair ömrü-
Belə şeylər çox olur.
Hər doğulan şeirlə
Şair bir də doğulur!

AŞAĞI

Göydələn zirvələr səssiz-səmirsiz,
Dərələr hay salır düzdən aşağı.
Bəzən başqasının üstdə dikələn
Baxır adamlara üstdən aşağı.

İstəsək hamını duya bilərik,
Günahı tövbəylə yuya bilərik.
Bu yurda bir ömür qıya bilərik-
Sancılsaq torpağa dizdən aşağı.

Qərib məzarların türbəsi sözdür,
Doğunun, Batının qibləsi sözdür.
Külli kainatın zirvəsi sözdür,
Bütün ucalıqlar sözdən aşağı.

İtməyən, batmayan səs var, səda var,
Dalğalar qoynunda sirli ada var.
Torpağın altında bir dünya da var,
O bizdən yuxarı, bizdən aşağı...

SUSMAQ QİSAS DEYİL

Mənim ürəyimdə bir dağ dikəlib
Boylanır o Murov dağına qarşı.
Hələ vaxt deyilmi çıxım meydana
Düşmənin qəlb oyan dağına qarşı?!

Uşaqlıq izlərim dağ-daşdan itir,
Bu başdan tapdığım o başdan itir.
Kəlbəcər kəlməsi yaddaşdan itir-
Gör necə uzağam yaxına qarşı.

Bir özgə vaxt gəlib, dövran yetişib,
Yurda can qıymayan insan yetişib.
İçimdə bir dəli üsyan yetişib
Millətin soluna, sağına qarşı.

Susmaq qisas deyil, qana-qan deyil,
Dözmək yurd oğluna şərəf-şan deyil.
Dağlarsız bu həyat firavan deyil,
Bir üzən tapılmır axına qarşı.

BÖYÜDÜKCƏ

Dumana döndü
Çən böyüdükcə.
Sünbülə döndü
Dən böyüdükcə.

Ürək sozaldı,
Sevgi azaldı,
Ömür qısaldı
Gün böyüdükcə.

O çən keçildi,
Sünbül biçildi,
Vətən kiçildi
Mən böyüdükcə.

KASIB OĞLU

Kasıblıq içində
doğular kasıb oğlu.
Uşaq olar- oyuncaqsız,
Böyüyər-umacaqsız.
Olmaz beşiyi,
Olmaz çarpayısı,
Baharda qarşılayar
payızı.
Ömür-gün hanasına
Kədərini ilmə-ilmə toxuyar.
Dərdin dəmi gələndə
"kefli-kefli" oxuyar.
Çatar həddi-buluğa
bir şüvərək şiv kimi.
Çıxar həyat yoluna
yenilməyən div kimi.

Kasıb oğlu
bu torpaq uğrunda
canından keçər,
ağciyər olmayıb
"bir qaşıq qanından" keçər,
Qoruyar Vətəni kasıb malı tək.

Kasıb oğlu
suda batmaz,
odda bişməz.
Kasıb oğlu
varlı qıza elçi düşməz.
Ayağını yorğanına görə uzadar,
südünə görə mələyər.
Sabaha körpü salan körpələrini

isti arzularına bələyər.
Kasıb oğlu
Var-dövlət kimi
baxar ata-anaya.
Qazandığından pay verər
yetimxanaya...

...Dediklərim həqiqətdir,
qərar verin qulaq asıb-
Kimdir varlı, kimdir kasıb?!

BU QIŞ

Kasıbın olanı əlindən getdi,
Varlının əlində var ərimədi.
Tamah çoxaldıqca dünya malına.
Gözləri bağlayan tor ərimədi.

Kəsdi əlimizi şaxta ülgücü -
Şəhərdə buraxdı hamı iş-gücü.
Gecələr upuzun, günlər üzücü,
Qış elə gəldi ki, qar ərimədi.

Hər yaşın özünün ovqatı varmış,
Taleyin qəribə sovqatı varmış.
Soyuq ürəyində buz qatı varmış -
Eşqimin oduna yar ərimədi.

MƏNİ SEVMƏYƏNLƏRƏ

Niyə xoşunuza gəlmirəm, deyin,
Mən də sizin kimi adamam axı.
Necə manqurt olum, necə kütbeyin,
Hərcayı sözləri udamam axı.

Üz dönür astara, astar üz olur,
Düz dönür dərəyə, dərə düz olur.
Əgər yalandırsa, niyə düz olur
Mənim ürəyimə bu daman axı?

Arxam yox seçilim, haqqım yox - seçim,
Suyu da qıymazlar mənə bir içim.
Necə alovlanıb yanmasın içim -
Tamama dərs keçir natamam axı.

Fələk də baş açmır bu kəm-kəsirdən,
Əslində nə qalıb zatı əsildən?...
Naqislik gözləmən bizim nəsildən -
Mən elə tərtəmiz atamam axı.

MƏN YAŞAMAQ İSTƏDİM

Bu dünyaya göz açdım, dünya açdı gözümü,
Körpəcə varlığımda gizləndi fil dözümü.
Haqsızların içində haqqa tutdum üzümü,
Mən yaşamaq istədim,
Mən yaşaya bilmədim.

Uşaqlığım sovuşdu ata-anadan uzaq.
Onlara uzaq oldum başdan-binadan uzaq...
Adamlara uzaqmış demə bu adam, uzaq -
Mən yaşamaq istədim,
Mən yaşaya bilmədim.

Gəncliyimə gəlincə öz oduma alışdım,
Bəşərə dil açdıran söz oduna alışdım.
Yavaş-yavaş dünyanın təzadına alışdım,
Mən yaşamaq istədim,
Mən yaşaya bilmədim.

Saçlarıma dən düzdü illərimin düzümü,
Qəm əydi qamətimi, kədər bükdü dizimi.
Qara buludlar aldı bəmbəyaz gündüzümü -
Mən yaşamaq istədim,
Mən yaşaya bilmədim.

Bir də gördüm, ilahi, tayalarım taylanıb,
Gedən ömrüm sən demə gələnlərə paylanıb.
Doğulduğum torpağa yetim-yetim boylanıb
Mən yaşamaq istədim,
Mən yaşaya bilmədim.

BİR DƏFƏ

Yazın yazısını yaşayan çiçək,
Bir dəfə açırsan, cəmi bir dəfə.
Əsarət, cəsarət bölgüsü varsa
Kimi min yol ölür, kimi bir dəfə.

El ağlar dalınca eldən getmişin,
Yoxsa nə mənası altmış, yetmişin.
Vədəsi gəlmişin, vaxtı yetmişin
Tapılmır çarəsi, çəmi bir dəfə.

Ayaq basdığımız bu tin, bu dalan
Böyümək istəsən deyir xırdalan...
Yalançı dünyada sevinmək yalan,
Güləşsən yıxmazsan qəmi bir dəfə.

Sinəmin dağları həsrət dağıdır,
Qurduğum qalanı həsrət dağıdır.
Mənim bu ürəyim dərd qaynağıdır -
Qurumur gözümün nəmi bir dəfə.

Nəfsi tox olanlar ölməz acından.
Yolları keçirər ayaq ucundan.
Ümid yox əyilən dor ağacından
Bir dəfə qərq olur - gəmi bir dəfə.

HAÇANSA

Kölgəm kimi izləməkdə
Bir qəfil olacaq məni.
Üstündə gəzdiyim torpaq
Altına alacaq məni.

Ruhum uçsa can soyuyar,
Damarımda qan soyuyar,
Öləndə insan soyuyar -
İsitməz od-ocaq məni.

Sözümdən sətir bilənlər,
Dəyərim nədir bilənlər,
Hal əhli, qədirbilənlər
Axtarıb bulacaq məni.

BU HAVADA

Hər şeyə vaxt tapıram
Vaxt itirə-itirə.
Başıma tac qoyuram
Taxt itirə-itirə.

Bu havada havam yox -
Boğur məni boğanaq.
Ömür örkən misallı,
Əcəl də ki, doğanaq...

GEDƏN BƏRƏ QAYITDI

Tanınmış türkmən şairi Oraz Yağmurun oğlu Bakıya - atasının gənclik xatirələrini yaşadan şəhərə gəlmişdi...

Oraz Yağmur, oğlun gəldi Bakıya,
Gəncliyinmi bu şəhərə qayıtdı?!
Layla çaldı göy Xəzərin nənnisi,
Aşqabada gedən bərə qayıtdı.

Ömür keçdi - kim günləri sayandı?
Öz yerində indi oğlun dayandı.
Xatirələr bircə-bircə oyandı,
Ötən illər sənə görə qayıtdı.

İntizarın cəfası var gözündə,
Ayrılığın havası var sözündə.
Səni gördüm öz oğlunun üzündə -
Nə qəribə bir mənzərə qayıtdı.

Şümal oğlun şam-çırağın, muradın,
Hara getsə, adı üstdə var adın.
Bu şəhərdə qonaq deyil övladın -
Doğma yurda, doğma yerə qayıtdı.

KEÇİB GƏLDİM

Yol bağlandı, cığır itdi,
Çəhlimlərdən keçib gəldim.
Gah göyərdim, gah qurudum,
İqlimlərdən keçib gəldim.

Fəna keçdi ayım, ilim,
Mən hardayam, hardan bilim?
Alov qalxdı dilim-dilim,
Dilimlərdən keçib gəldim.

Axtardım sözün düzünü,
Aradım haqqın özünü.
Kim böldüsə yer üzünü
Bölümlərdən keçib gəldim.

Tufan - küləyin əlində,
Həyat - ürəyin əlində.
Zülüm - fələyin əlində,
Zülümlərdən keçib gəldim.

Vaxtım yox - baş qaşımağa,
Halım yox - dərd daşımağa.
Mən bu ömrü yaşamağa
Ölümlərdən keçib gəldim.

GEDİRƏM İŞIQ GƏLƏNƏ

Bu baharın nəfəsini
Məndən qabaq güllər udur.
Gedirəm işıqgələnə,
Ayağımı yollar udur.

Ağartdım qara saçımı,
Hər ağ telin bir açımı.
Min illik ağrı-acımı
Gözümdəki göllər udur.

Bu yaşıma gəlib vardım,
Odunlara odun yardım.
Təkbaşına boğulardım -
Mən çəkəni ellər udur.

Bu ömür-gün qovğasımı,
Yoxsa pozulmaz yazımı?
Saçlarımın dalğasını
Baş aparan yellər udur.

Sönüb getdi bəxt ulduzum,
Qalmayıbdı dadım-duzum.
Nə uddum ki, nə uduzum,
Daha məni illər udur.

SONUCLAMA

Saçlarımın ağında
Qara günüm gizlənib.
Onu tumarlayanda
Kədərim əzizlənib.

Üzümün qırışları
Keçdiyim həyat yolu,
Çöldən baxan nə bilir
İçim var həyat dolu.

Ürəyimin odunda
Cavanlıq ehtirası.
Ölməklə sonuclanır
İnsanın etirazı…

SEVİNCİMİN ORTAĞI OL

Şair dostum Ağacəfər Həsənliyə

Sevincimin ortağı ol həmişə,
Dərdlərimə şərik olma, qardaşım.
Kim deyər ki, bu torpaqdan güc alıb
Özün boyda Lerik olma, qardaşım?!

Söz kül olur insan eşqi sönəndə,
Millət ölür şair bəxti dönəndə.
Alov yanır, od püskürür sinəndə,
Boş misraya körük olma, qardaşım.

Söndürdülər ocağımı, sobamı,
Qəhr etdilər o bəxtiyar obamı.
İtirmişəm dağlar boyda yuvamı -
Mənim kimi perik olma, qardaşım.

Öz yeri var baharın da, qışın da,
Tarix yatır torpağında, daşında.
Ağacəfər, lap elə yüz yaşında
Əllərində çəlik olma, qardaşım.

Çox sevirsən bu dağları, düzləri -
Hər qarışda uşaqlığın izləri.
Söz düşəndə sən unutma bizləri,
Adil deyər: dönük olma, qardaşım.

Lerik, 30 noyabr 2012

GÖRƏ-GÖRƏ

Baş-ayaq görürük hər şeyi, qardaş,
Ağıl kəsə-kəsə, göz görə-görə.
Düzün ünvanına hədyan söyləyib,
Əyri danışırıq düz görə-görə.

İçimdə bürkü var, çöldə yel əsir,
Çadırda soyuqdan bizim el əsir.
Bir Allah bilir ki, hara tələsir
Hərə öz işini tez görə-görə.

Səngimir dünyada qan ocaqları,
Daha dərk edirik olacaqları...
Heyrətdən ağarır kənd uşaqları
Şəhərdə ağappaq diz görə-görə.

Mənim gördüklərim yuxudu, vallah,
Zaman öz torunu toxudu vallah.
Onda belə şeylər yoxudu vallah -
Bu yaşa gəlmişik biz görə-görə..

Ömür bilməcədir - yüz yerə yozdum,
Adımı dandılar dinmədim, susdum.
Ey alim qardaşım, tənqidçi dostum,
Məni görmədiniz siz görə-görə.

Bu haça yolların birisində biz,
Qabağı çəkənin gerisində biz...
Yaxşı ki, qalmışıq yer üzündə biz
Yaxşı adamlardan üz görə-görə.

ÇÖKÜRKƏN YAŞAMAQ

Çökdü, qaranlıq çökdü -
Yetişdim şər vaxtına.
Dönüb həsədlə baxdım
Ər oğlu ər vaxtına.

Çökdü, kəndimiz çökdü,
Qaçqın dedilər qaçana.
Yazıq kəndim,
Qazıq kəndim,
Qəddin düzələr haçana?!

Çökdüm, mən də çökdüm,
Qocaldım yaşın əlində.
Yaşamağın sirri varmış
Torpağın, daşın əlində.

İçimdəki vulkanları,
Axıtdığım al qanları
Bəs niyə görməz oldular?
Məni görən Əhrimənlər
Yalandan Hürmüz oldular.

...Çökdüm, mən də çökdüm,
Yol getdim başım əlimdə,
Gedirəm,
Yenə gedirəm,
Baharım qışın əlində...

BU YOL

Kim nə deyir desin, qardaş,
Yurda oğulluq başqadır.
Tanrıya tapınmaq özgə,
Şeytana qulluq başqadır.

Əlim yetmir dağ-daşıma,
Duman çökür yaddaşıma...
Xəlvətdə mənim başıma
Bu dəyən yumruq başqadır.

Ötən ömür - su içimi,
Axtarıram söz incimi.
Mələklər yazır içimi -
Barəmdə "qovluq" başqadır.

Əzab varmı - dözülməyən?
Hesab varmı - çözülməyən?
Haq yoludur üzülməyən,
Bu yol biryolluq başqadır.

AĞDƏNİZDƏ ÜZƏN GƏMİ

Ağdənizdə üzən gəmi,
Söylə, səfərin hayana?
Dalğa vurur, ləpə döyür,
Çoxmu qalıbdır limana?

Ağdənizdə üzən gəmi,
Qanad açır ağ yelkənin.
Üzmək necə mutlu imiş
Dənizində bu ölkənin.

Gedirsən ağ cığır açıb,
Düzənlənir dalğa çin-çin.
Tanrım, gör necə yaraşır
Ağ dənizə "ağ göyərçin".

Bura dəniz məmləkəti -
Su quruyla üz-üzədir.
Quruda ölməyə nə var,
Suda doğulmaq təzədir!

Türkiyə-Alanya
17 noyabr 2011.

BU ADANIN ADAMLARI

Rauf Denktaşın ölməz xatirəsinə

Bir az balıq kimi çevik,
Bir az yosun ətirlidir.
Xatircam olun, dostlar,
Dost yanında xətirlidir
bu adanın adamları.

Su üzündə şəhər gördüm,
Dünyanı birtəhər gördüm.
Hər qarışda zəfər gördüm -
Əyilməyən bir dağ idi,
Özü boyda bayraq idi
bu adanın adamları.

Dağ döşündə sayrışırdı
Türk oğlu türkün bayrağı -
Ay-ulduzu üzə gülən
Dünyanın gülgün bayrağı.

Bu adanın adamları
Boylanır o dağa tərəf.
Qibləsi bayraqdır türkün -
Baş qoyar bayrağa tərəf.

Quzey Kıbrıs Türk Cümhuriyyəti
2 dekabr 2011

ŞƏHİD GÜL

Can bacı, qanlı yanvar bizlərə gör neylədi?!
Bakı qərənfilini yas çiçəyi eylədi
Əjdər Ol

Çalın-çarpaz bu dağla
"Ağla, qərənfil, ağla".
Sən ağla öz gününə -
Dönmüsən yas gülünə.

Ağla ki, sən o gecə
Nələrə şahid oldun.
Şəhidlərin xətrinə
Özün də şəhid oldun.

Gülümsəyən güllərin
Ey mükəddər bacısı.
Sənəmi qonmalıydı
Bu dərdlərin acısı?!

Nişana qoyulmazsan,
Toy-bayram sənlik deyil.
"Ağla, qərənfil, ağla" -
Səninki şənlik deyil.

…Bir gül idin - yaz gülü,
Dönüb oldun yas gülü.
Çalın-çarpaz bu dağla
"Ağla, qərənfil, ağla".

20 yanvar 2012

YARIDAN KEÇİB

(təcnis)

Ömrümün-günümün fəsillərindən
Yarı zülmət keçib, yarı dan keçib.
Ay ürək, gözləmə vüsal dəmini,
Yar səni danırsa, yarı dan, keçib…

Baxt yazan baxtıma dönüb baxdımı?
Ay baxtı olanlar, bu da baxtdımı?
Mələklər beləcə yazıb baxtımı -
Məni yarıtmadı yarıdan, keçib.

Bir baxan olmadı gözümdə yaşa,
Ay Adil, oğulsan gəl belə yaşa.
İnana bilmirəm çatdığım yaşa -
Deyəsən bu ömür yarıdan keçib.

2 fevral 2012

BOĞULAN FƏRYAD

"Hər şeyin zamana ehtiyacı var" -
Belə deyirsiniz inanıram mən.
Fəqət gözləməkdən solur arzular,
Səbrim də daşanda qınanıram mən.

Hədəfə dəyməyən kəlməmiz hədər,
"Qarabağ" sözünün əyarı yoxdur.
"Qırmızı kitab"a düşən quş qədər
Yurdsuz bir insanın dəyəri yoxdur.

Bu ömür mənimçün divan qurmasın,
Kimdən yarıdım ki, kimə yarayam?!
Dost deyil səhvimi üzə vurmasın,
Düşmənin yanında üzüqarayam.

Ayvuran, Kolabad düşür yadıma,
Şırşırın yoxuşu yuxumdan keçir.
İçimdə boğulan bu fəryadıma
Torpaq üz çevirir, yurdum yan keçir.

…"Hər şeyin zamana ehtiyacı var" -
Belə deyirsiniz, inanıram mən.
Fəqət gözləməkdən solur arzular,
Səbrim də daşanda qınanıram mən.

27 dekabr 2011

QIŞIN OĞLAN ÇAĞI

Körpə ətrinə tamarzı
ev kimi
soyuqdur hər yan.
Yarpağı sovulmuş
ağaclar büryan…

Bəyaz kurqanları xatırladır
qar təpəcikləri.
Havada donur
Sevən gənclərin "öpücükləri".

Nizamsız küçələrin
Qadın səliqəsinə ehtiyacı var.
"Ağ günə" düşmüşük -
Bu qışın bəyaz tacı var…

Hələ eşidilmir
yazın addım səsi…
Körpəsiz,
Qadınsız,
Günəşsiz
məhv olar Yer kürəsi…

19 fevral 2012

DONMUŞ ZAMAN MƏKANINDA

Məzarıstan - bir gülüstan,
"Daş sinədə" gül yeri var.
Donmuş zaman məkanında
Ay yeri var, il yeri var.

Torpaq Adəm, Hatəm yeri,
Qəriblərin vətən yeri.
Ömürlərin bitən yeri -
Ocaq sönüb, kül yeri var.

Ölümdən sonrakı həyat
Həqiqətmi, ya zarafat?!
Çin olsaydı bu xurafat
Ölməzliyə əl yeri var…

19 mart 2012

TƏNHALIQ HÜCRƏSİNDƏ

Hərdən çəkilirəm özüm-özümə,
Baş-başa qalıram duyğularımla.
Görünmür doğma da, yad da gözümə,
Qalıram dağ boyda qayğılarımla.

Çəkilib tənhalıq hücrəsinə mən
Səmadan inciyib, yerdən küsürəm.
Baxanda ev yıxan məcrasına mən
Arazdan inciyib, Kürdən küsürəm.

Harda əylənəcək ömür karvanım?
İlğıma aldanan bəzirganam mən.
Təzə görünsə də evim, eyvanım
Təzəlik içində köhnə qanam mən.

Qanı qanımdadır babalarımın,
Perikən ruhları ruhuma köçüb.
Dərdi çiynimdədir obalarımın,
Hər gecə kəndimiz yuxuma köçüb.

…Hərdən çəkilirəm özüm özümə,
Hərdən yadlaşıram dosta, tanışa.
Küləklər səhvimi çırpır üzümə,
Varam ömür adlı bu aldanışa…

12 aprel 2012

DAĞILDI DURNA QATARI

Bağdadı, Kərkükü, Dəcləni, Fəratı və ümumən İraqı bizə sevdirən görkəmli ziyalı, professor Qəzənfər Paşayevə

Abi-zəmzəm qaynağı var -
O səhralar quraq deyil.
Düz deyirsən, professor,
"İraq bizə iraq deyil."

…Dağıldı durna qatarı,
Soğuldu xurma qatarı.
Səpildi qırma qatarı -
Yersiz ölüm sınaq deyil.

Dərdimiz var dağ adlayan,
Ahımız var qəlb odlayan.
Başımızda bu çatlayan
Kim deyir ki, çanaq deyil?!

Nələr oldu, Allah, oy dad!
Kimsədən gəlmədi imdad.
Korun-korun yandı Bağdad,
Bu alov çil-çıraq deyil.

Qoparmadıq haray-həşir,
Dedik dünya fikirləşir…
"Sülh məramlı" o mürdəşir
Xoş niyyətli qonaq deyil.

Füzulinin qəbri qərib,
Başdaşında qəm göyərib.
Bu dərd bizi yuyub, sərib,
Günümüz kef-damaq deyil.

Dəyişibdir orda həyat -
Qanlı axır Dəclə, Fərat.
Alim qardaş, sən yaz-yarat,
Gələcək gün uzaq deyil.

12 dekabr 2012

ORTA NƏSİL

Yaşı fərmana düşmür,
Pulu dərmana düşmür.
Sünbülü taya-taya,
Vəli xırmana düşmür.

2007

DAHA NƏ İSTƏYİM

Ey fələk, sinəmə sancıldı süngün -
Uşaqlıq izlərim itdi taladan.
Bir gün verdiyini alırsa bir gün
Daha nə istəyim Allahtaladan?!

2010

MUROVUN BU ÜZÜNDƏ

Başım üstdə qara bulud,
Üz-gözümdə sazaq gəzir.
Yarama duz basıbdılar -
Dərd canımda duzaq gəzir.

Həsrətdən yandım, oy, ana,
Güman yox bəxtim oyana.
Burdan bir addım o yana
Nəyim varsa uzaq gəzir.

Bulaq başı yarpız qaldı,
Xəyalımda bir qız qaldı.
Kəlbəcərim yalqız qaldı,
Yurdumda yalquzaq gəzir.

Bir qəzadır - gəlib, gedib,
Bir bəladır - bölüb, gedib,
Adil Cəmil ölüb-gedib,
Deyirlər ki, bu, sağ gəzir.

Gəncə, 4 noyabr 2012

SƏRHƏD YURDUN SİPƏRİDİR

Üstündən quş keçə bilməz -
Sərhəd yurdun sipəridir.
Ər oğullar keşik çəkir,
Oğul düşmən çəpəridir.

Keşik çəkən sərhədçilər
Nə dağ bilər, nə düz bilər.
Bu yuxusuz yurddaşlarım
Gecəni də gündüz bilər.

Vətənə sərhədçi eşqi
Vətənimin özü boyda.
Bu sınırdan sızmaz nəsə
İynənin ulduzu boyda.

Zaman-zaman babalarım
Qılınc-qalxan qurşayıblar.
Torpaq üçün torpaq olub
Gələcəkdə yaşayıblar.

Adı - Vətən, özü - torpaq
Miras qalan əmanətin.
Sərhədçilər - "cangüdəni"
Bu anamız məmləkətin.

14 aprel 2012

ÇATDIR

Evlənmək istəyən Vusalın atası
Mirabı əfəndimizə

Cavandır, qəlbində arzuları var,
Sən onu o şirin xəyala çatdır.
Toy elə, düyün qur günlərin biri,
Səsini mahaldan-mahala çatdır.

İnan fərq eləmir payız da, yaz da,
Fəsillər yer almır arzu-murazda.
Evlənmək üçündür oğul da, qız da,
Tələsib oğlunu bu hala çatdır.

Zamanı saxlayın, vaxtı əyləyin,
Sözümdə haqq yoxsa, mənə söyləyin.
Sizə ərkim çatır rica eyləyim -
Sən Allah Vüsalı vüsala çatdır.

2011

ÖYRƏNDİM

Məni qucaqlayan fırtınalarda
Boğula-boğula üzmək öyrəndim.
Dar gündə səbr edib darıxmadım heç,
Gen gündə darıxıb, bezmək öyrəndim.

İnsan vicdanına gərək tapına,
Dönməyə əllərdə balta sapına...
Tanrının verdiyi ilham sapına
Haqqın kəlamını düzmək öyrəndim.

Təmənnalı gördüm dost-sirdaşı da,
Bilsəydim yeməzdim yağlı aşı da.
Mən ki kəsməmişdim toyuq başı da,
İndi ilan başı əzmək öyrəndim.

Duyğusuz adamın ürəyi daşdır,
Duyğulu adamın gözləri yaşdır.
Ömür dedikləri dava-dalaşdır,
Yaşamaq-dözümdür, dözmək öyrəndim.

PARADOKS

Küçələrdə sülənən,
Çaxır pulu dilənən
Ortabab bir yazarı
qaldırdılar göylərin
yeddinci mərtəbəsinə.
Yazar döydü təpəsinə:
-Yüz qram almaqdansa
Yüz dəfə təriflәyirlər.
Allahsızlar
Məni hərifləyirlər...

GÖRMÜŞƏM

Obamızdan ayrılanda hər dəfə
Gül anamın yaş üzünü görmüşəm.
Daşdan keçən alın yazım olmayıb,
Adamların daş üzünü görmüşəm.

Çox çalışdım, çoxu tapdım azımda,
Yuxu gördüm hərəsi bir yozumda.
Qar yağdıran baharımda, yazımda
Qismətimin qış üzünü görmüşəm.

Aylar, illər belə getdi, neyləyim?
Yaddaşımda hansı günü əyləyim?
Dilim gəlmir bircə dəfə söyləyim:
-Mən bu ömrün xoş üzünü görmüşəm.

ULU TANRIM NƏ VERMƏDİ

Ulu Tanrım nə vermədi-
Adamlara ağıl verdi.
Torpaq Vətən olsun deyə
Yer üzünə oğul verdi.

Ulu Tanrım nə vermədi-
Yeri verdi, göyü verdi.
Göy zəmilər üzə güldü-
Daş üstündə düyü verdi.

Ulu Tanrım nə vermədi-
Kainata nəfəs verdi.
Canlı canından bezəndə
Yaşamağa həvəs verdi.

Ulu Tanrım nə vermədi-
Sevgi adlı atəş verdi.
Gecələrə ay-ulduzu,
Gündüzlərə günəş verdi.

Ulu Tanrım nə vermədi-
Dərd verdisə dərman verdi.
Fərman verən zalım şahın
Ölümünə fərman verdi.

Ulu Tanrım nə vermədi-
Ruzimiz Allahdan gəlir.
Əyri şeytan əməlidir,
Düzümüz Allahdan gəlir.

BİR KƏND BAXIR YUXUMDAN

Bu dözümdə, ilahi,
Daş-qaya parçasıyam.
Ruhumun söz bulağı
Misra novalçasıyam.

Səbrimin sonu - sonsuz,
Uduram bu ahları.
Üfüq çəhrayı doğur
Açılan sabahları.

Yağışlar duzlu yağır
Torpağa göz yaşıtək.
Saçıma qar ələnir
Ömrün vaxtsız qışıtək.

Tanrım «qismət» adında
Nə biləsən nə verir?!
Kefi – arsız-gorsuza,
Dərdi – çəkənə verir.

Elə bil yer kürəsi
Çıxıbdır öz oxundan.
Üzünə qan çilənmiş
Bir kənd baxır yuxumdan…

16.01.2014

MUROVUN BAŞINDA ULAYAN BAYQUŞ

Murovun başında ulayan bayquş,
Ula, fürsət ikən ula, həyatdır…
Viranə yerlərdir yurd yerim, ay quş,
Diyəsən kefin kök, yerin rahatdır.

Murovun başında ulayan bayquş,
Dağılmış Kəlbəcər de, nə biçimdə?
Həsrətim uzanır, uzanır yay, qış,
Sən kef içindəsən, mən dərd içində.

Murovun başında ulayan bayquş,
Üzünə gülürmü xarabalıqlar?
Görəsən Tərtərə yağanda yağış
Yenə üşüyürmü körpə balıqlar?

Ulartın kəsməyir de görüm nədən,
Nəyi qandırırsan indi sən, bayquş?
Özgə yuvasında bala böyüdən
Bayquş bir millətin himnisən, bayquş!

Hacıkənd, 12.08.2013

BAĞLI İT

Baxırsan ki, bu itin
Azadlığa çıxmağa
Arzusu var, əhdi var.
Zəncirini qırmağa
Çabası var, cəhdi var.
Səmə gəzən itlərə
Baxaraq köks ötürür.
Qarqaradan zəncirə
Günlərini bitirir.
Ulayaraq dartınır
Azadlığın eşqinə.
Zəncirlənmək çıxıbdır
Onun tale püşkünə.
Dartındıqca düşünür –
Yəqin zəncir qırılır.
Daha bilmir yazıq it
Öz boğazı cırılır.

Hacıkənd 10.08.2013

AL ÇALA BİR DƏ

(təcnis)

Alın al yeri var, çalın çal yeri,
Gərək qarışmasın al çala bir də.
Solub bu yamacın qızıl laləsi,
Çətin ki, bu çəmən al çala bir də.

Göyün bəzəyidir durna qatarı,
Sən də başımızı yerdə qat, arı.
Namusa, qeyrətə həm də qat arı –
Alçaqlar qarşında alçala bir də.

Bu dünya fanidir, ötən il ani,
Bizə xatırladır bəzən il anı.
Yaxşı tanımırsan qızıl ilanı –
Sən qorx ki, adamı al çala bir də.

Gecə xoş keçəndə dönər gündüzə,
Çiçəklər açılar düşsə gün düzə.
Hanı o günlər ki, günə gün düzə,
Adili o günə al, cala bir də.

8.II.2014

HƏBSXANADA

Dustaqlar günləri sayır,
Rəis dustaqları.
Yeganə ümid –
qaçıb qurtulmaq.
Yeganə qorxu –
bir də tutulmaq…

2013

NİKBİN ADAM

Professor dostum Kamran İmranoğluna

Mən səni həmişə gülərüz gördüm,
Kədəri gizlətdin baxışlarında.
Könlünü əbədi bahara verdin,
Göyərdin baharın yağışlarında.

Qəriblik ovqatı gətirən payız
Rəngini qatmadı ruhuna sənin.
Özünə çəkilib qalanda yalqız
Yenə bahar girdi yuxuna sənin.

Sevgidən bal tutdu ömür pətəyin,
Əyilmək bilmədin uca dağ kimi.
Kiminsə əlinə keçsə ətəyin
Səni buraxmadı xeyirxah kimi.

Düzünü deyim ki, bu saflığınla
Sən - birsən, sən - pirsən, ocaq kimisən.
Əziz dost, nəfsinə yasaqlığınla
Altmış yaşında da uşaq kimisən.

Elm ilə ölçülür sərvətin, varın,
Elmsiz bir insan getməz uzağa.
Yaşamaq haqqı var yaşadanların,
Ömrün uzun olsun, a Kamran qağa!

2013

GÜZƏRAN GÜM-GÜMƏSİ

Az qalır yıxa məni –
Külək o külək deyil.
Bu tabsız tavanıma
Ümidim dirək deyil.

Çıxıb gedib çoxusu,
Qaçıb kəndin yuxusu.
Uçub təndir qoxusu –
Çörək o çörək deyil.

Var-dövlətin var isə
Vəsiyyət et varisə.
Sonrakı «mübarizə»
Kiməsə gərək deyil.

Qəlbinə kin hopursa,
Zülmün səni tapırsa,
Ruhun candan qopursa
Günahkar fələk deyil.

Bayır – çöldür, çöl-bayır,
Gəl bunları sən ayır…
Gah vurur, gah vurmayır,
Ürək o ürək deyil.

2013

BİR DƏLİ SEVGİDƏN GÖYƏRİB DÜNYA

MƏHƏBBƏT

Yerin-göyün hikmətini bilənlər
Bilməz hansı yaşatandı məhəbbət.
Cavan eylər yetmiş yaşlı qocanı -
Yaş üstündən yaş atandı məhəbbət.

Könül varmı - budağını əyməsin?
Ürək varmı - qapısını döyməsin?
Eşqi üçün başı daşadəyməzin
Arxasınca daş atandı məhəbbət.

Bir qaladır - tayı deyil Əlincə,
Bir bəladır - bəxt gülməz o gülüncə...
Sevən qəlbdə alışandı ölüncə,
Dəli başda başatandı məhəbbət.

Dumanı var, çiskini var, çəni var,
Səksən səmtə axarı var, yönü var.
Qış günündə yay gətirən günü var -
Öldürəndi, yaşadandı məhəbbət...

1984

NİYƏ KÖVRƏK YARANMISAN

Qara gözlər fikir-xəyal dənizi,
Kirpikləri göz yaşının dəlisi.
Bənzəyirsən yaz buludlu göyə sən -
Belə kövrək yaranmısan niyə sən?

Baxışına yığışan o dumanla,
Göz yaşına sığışan o tufanla
Az qalırsan qamətimi əyəsən-
Belə kövrək yaranmısan niyə sən?

Dindirirəm qəhər qonur səsinə...
Öz «yağışın» bəs etməyir özünə;
İstəyirsən buludları geyəsən-
Belə kövrək yaranmısan niyə sən?

Bir taleyin yolçusuyuq daha biz,
Gəl olmayaq belə qəlbi yuxa biz,
«Kövrək» dedim kövrəlirsən deyəsən?
Belə kövrək yaranmısan niyə sən?

1980

DEMİŞƏM

Mən səni baharda tapmışam, gülüm,
Dərdimi bahara, yaza demişəm.
Neçə ki titrəmir əlimdə qələm
Bu dəli eşqimi yaza, demişəm.

Çevrildin şerimin alov sətrinə,
Qovuşdum eşqinin çiçək ətrinə...
Qara gözlərinin əziz xətrinə
Dözərəm hər cürə naza, demişəm.

Bu sevda nə yaman tutdu gözümü?
Sanki unutmuşam özüm özümü...
Mənə elə gəlir ürək sözümü
Dünyada ən gözəl qıza demişəm.

1980

İŞIQLI GECƏLƏR

Ömür-gün yoldaşıma

Yazmaq istəyirəm, doludur sinəm
Nə yaza bilirəm, nə də yatıram.
Yazdığım nə varsa halal et mənə,
Çünki bal yuxuna haram qatıram...

Arzu bir, otaq bir, eyni də çıraq,
Mürgülü gözünə təpilir işıq.
Mənimsə əlimdə «şumlanır» varaq,
Mənimsə misrama səpilir işıq.

Dərin dəryalara bənzəyir gecə
Bir acgöz rəssamam-nə var çəkirəm.
Gecə bir dəniz ki üzən evimə
Titrək qələmimlə avar çəkirəm.

Düşürəm xəyalın macərasına,
Şirincə yuxumdan əl çəkirəm mən.
Qaranlıq evimin pəncərəsinə
Ulduz işığından yol çəkirəm mən.

Bir gilə ümidin bircə anıyla
Arzular od-ocaq çatır sinəmdə.
Ayı, ulduzuyla, kəhkəşanıyla
Gecə xumarlanıb yatır sinəmdə.

Hələ «yaralarım» sağalmayıbdır,
Varlığım «qələmə sarılım» deyir.
Neçə ki, dan yeri ağarmayıbdır
Bu bəyaz varaqlar «qaralım» deyir.

Beləcə çırpınır sinəmdə ürək,
Ömrümü beləcə yaşayıram mən.
Sübh çağı gözümdə-könlümdə fərəh
Gecə növbəsindən evə qayıdan
Yorğun bir fəhləyə oxşayıram mən.

1980

GƏLİRSƏN YUXUMA

Həsrətin buraxmır tanış yaxamı
Könlümdən bir nəğmə qopana qədər.
Uzanır ömrümün yuxu davamı,
Səni öz yuxumda tapana qədər.

Gəlirsən yuxuma sən gülə-gülə,
İlıq təbəssümün axır ömrümə.
Bahar yağışının notları ilə
Şaqraq gülüşlərin yağır ömrümə.

Adını adıma bağlamaq üçün
Məhəbbət ünvanlı bir ömürəm mən.
Səni yuxumda da saxlamaq üçün
Yuxumdan oyanmaq istəmirəm mən.

1980

BU, SƏN DEYİLSƏN

Bahar gözləyirəm buz ürəyindən,
Bilmirəm nə keçdi qız ürəyindən.
Daha yollarımı gəzən deyilsən
İnana bilmirəm, bu, sən deyilsən.

Ömrümü uzadan görüşün ilə,
Yanıma qəfləti gəlişin ilə
Daha ürəyimi üzən deyilsən,
Yox-yox, inanmıram, bu, sən deyilsən.

Vüsalın ulduzu göydən qopdumu?
Həsrətin naləsi neydən qopdumu?
Sən ki,and içmişdin küsən deyilsən...
Küsmüsən, deməli, bu, sən deyilsən.

Adını çəkməsəm, alışar dilim,
Kövrək ürəyini bilirəm, gülüm
Sən də bu həsrətə dözən deyilsən,
Əgər dözə bilsən, bu, sən deyilsən...

1980

APARMA

Sən gedirsən... gözlərindən asılan
O işıqlı gündüzümü aparma.
Əllərimin yaddaşına yazılan
Əllərinin istisini aparma.

Yarpaqlamaz sənsiz sevgi puçurum,
İnsafdırmı puçur ikən puç olum?
Qollarını açar mənə uçurum,
Yollarımın ütüsünü aparma.

Küsməyinə inanmıram, dön, barış-
Aramızda yol qalıbdır bir qarış...
Ürəyimin alovuna gəl qarış,
Taleyimin tüstüsünü aparma.

1980

MƏNİM GÖZLƏRİMLƏ BAXSAN DÜNYAYA

Mənim gözlərimlə baxsan dünyaya,
Mənim ürəyimlə duysan dünyanı,
Bax,onda dəyişib mən olarsan sən,
Bax, onda özünü yanılarsan sən.

Başqa cür qaynayar damarında qan,
Dəyişər gözündə bu yer, bu səma.
Mənim gözlərimlə baxsan dünyaya
Dönüb saray olar kasıb bir koma.

Mənim gözlərimlə baxsan dünyaya
Məni qınamazsan, mənim əzizim...
Torpağı iz tutan yollardan keçmir
Mənim daşdan keçən cığırım, izim...

Ərimək bilməyən qaranlıqları
Bu odlu, bu aydın baxışla yardım.
Dünyaya baxsaydın mənim gözümlə
Sənə gözlərimi bağışlayardım.

1980

QƏRİBƏSƏN

Qoyma yağış döyə məni,
Qoyma külək əyə məni,
Zalım, qəlbin niyə məni
Özün kimi zalım sanmış,
Zalımsanmış.

Qəlbim doldu, dil vermədin,
Həsrət verdin, gül vermədin,
Ürəyində yer vermədin
Adil kimi qəribə sən,
Qəribəsən...

1974

HANI O DÜNƏNKİ MƏHƏBBƏTİMİZ

Yoxsa ürəyindən silinib adım?
Bilməzsən qəlbimdən keçəni, heyif...
Mən sənin yolunda saç ağartmadım,
Ağartdım nə qədər gecəmi, heyif...

...Yolumu gözlərdin yollarım üstdə,
Boynunu bükərdin bənövşə kimi.
Əzizim, mən səni qollarım üstdə
Qaldırmaq istərdim günəşə kimi...

Beləcə axardı ömrün anları,
İndi saçlarıma düşür təzə dən...
O anlar bir anlıq dönəydi barı,
Sevib oxşayaydım səni təzədən...

Hanı o dünənki məhəbbətimiz,
Hanı gözlərindən boylanan istək?
Dumanlı günlərdə azdı əhdimiz,
Alışdıq ocaqtək, soyuduq buztək...

1980

MƏN SƏNİN ÜÇÜN...

Musiqisi Nadir Əzimovundur

Bizim eşqimizin göyləri bulud,
Orda günəş də var, leysanlar da var.
Gəl, yaxın oturaq, hər şeyi unut,
Dünyada bizimtək insanlar da var.

Bir gilə ümidin işartısında
Neçə arzularım doğula bilər.
Gözünün bir damla yaşartısında
Bütün ümidlərim boğula bilər.

Gəl, duyaq dünyanı, dünya duyanın...
Yerin də, göyün də çox sirləri var.
Unutma, a mənim ömür həyanım,
Hər ömrün nə qədər fəsilləri var.

Bizim göyümüzdə ulduzlar yanır,
İşıqdır qüvvətim, inamdır gücüm!
Günəş dünya üçün gündüzlər yanır,
Gecələr yanıram mən sənin üçün...

1978

TAPDIQ

Tapdıq adlı bir kişi yaşayırdı. Üzündəki topa saqqal, gözündəki kədər, yerişindəki hüzn onun qəmli taleyindən xəbər verirdi... Camaat danışırdı ki, Tapdıq dəlicəsinə sevdiyi qızın ölümündən sonra hamıdan ayrılıb xəlvət bir komada dərd-qəmiylə qalası olub... Bu yaxınlara da eşitdim ki, nakam Tapdıq dünyadan köçüb...

Cavankən solsa da son yarpaq kimi
Sevgi budağından qopmadı Tapdıq.
Son ucu sonsuzluq içində itən
Bu sevda yolundan sapmadı Tapdıq.

Gözləri qalmadı özgə qadında,
O qızdan qalanlar qaldı yadında.
Təzədən məhəbbət, sevgi adında
Bir duyğu yoğurub-yapmadı Tapdıq.

Baxışı ağlatdı daşı, qayanı,
Odlu xatirələr oldu həyanı...
Dünyadan köçüncə gəzdi dünyanı,
İtən itkisini tapmadı Tapdıq.

Dağları, düzləri gəzdi piyada,
Qocaldı əlində körpə paya da...
O qıza qovuşub barı röyada
Atlanıb atını çapmadı Tapdıq.

Dağ kimi gəzdirdi sinə dağını,
Onu axıtmadı fikir axını...
Taleyin daşına çırpılmağını
Fələyin üzünə çırpmadı Tapdıq.

Bir axşam üzülüb üz tutdu göyə,
Qaraldı ocağı, soyudu dəyə...
O qızı gözündə aparsın deyə
Öləndə gözünü qırpmadı Tapdıq...

1981

NƏ VAXTSA, HARDASA

Ömrüm başdan-başa xəyal yığını...
Gör mənim ömrümə nələr sığınır?
Elə ki duymaram yaxınlığını
Qaçaram, qaçaram uzaqlaşaram.

Yolumuz birləşər bir yol başında,
İtərik çəmənin gül yaddaşında...
Ömrümün, günümün sevgi yaşında
Nağıla dönərsən, uşaqlaşaram.

Ağ bulud dağların başına gəlsə,
Göy meşə yüyürüb qarşına gəlsə,
Bir qovaq ağacı xoşuna gəlsə
Bir bulaq başında qovaqlaşaram.

Yarımçıq nəğməyəm, bitmək istərəm,
Yanğılı kamanam, ötmək istərəm.
Nə vaxtsa gözündən itmək istərəm,
Hardasa sənlə qabaqlaşaram...

1976

OD İLƏ OYNAMAQ OLMAZ

Düşüb həsrətinin ağ dumanına
Səni tapmaq üçün azmaq istərəm,
Qorxuram yayınıb yan durasan sən...
Sığınıb bir eşqin son gümanına
Mən səni bağrıma basmaq istərəm,
Qorxuram bağrımı yandırasan sən,
Neyləyim, məni də qınamaq olmaz,
Sən odsan, od ilə oynamaq olmaz...

1982

QALA QAPISINDA AĞLAYAN QARI

Qala qapısında ağlayan qarı,
Bəlkə ağlayarsan öz keçmişinə?
Bəlkə ağlayırsan qız keçmişinə;
Yadına düşübdü qız yaşın sənin,
O yaşdan yol gəlir göz yaşın sənin...

Qala qapısında ağlayan qarı,
Bəlkə sevdiyinin ruhu burdadır,
Bəlkə hey gördüyün yuxu burdadır?...

Bilmirəm, bilmirəm, ay qarı nənə,
Kimə ağlayrsan, nəyə yanırsan,
Yanığın yoxdusa niyə yanırsan?..

Qısılıb qalanın divarına sən
Özün boğulursan öz «yağışında».
A kövrək, a ipək, a çiçək nənə,
Uzaqdan elə bil qara kölgəsən,
Ay qara çadrada ağbirçək nənə...

Ağlama, ağlama, bir də ağlama
İçərişəhərin içindən keçən
Gənclik illərinin uzaqlığına,
Sevgi günlərinin yazıqlığına...
Ağlama, elçisi atangillərdən
Səni «qoparmayan» oğlan üçün sən.
Ağlama bu manşır qala dibindən
Səni aparmayan oğlan üçün sən...

«...Bu qala, daşlı qala,
Çınqıllı, daşlı qala».
İnsafmı ömrün boyu
Gözlərin yaşlı qala?!

1982

İLK MƏHƏBBƏTİMƏ

Mən səni sevirdim bu dünya qədər,
Körpə varlığıma od ələyirdin.
Əriyib gedirdi gündüzüm hədər,
Gecələr gözümdə gecələyirdin.

Bir səhər «Vağzalı» tutdu əlindən,
Tutulan könlümü seçə bilmədin.
Köçdün ər evinə ata evindən,
Amma ürəyimdən köçə bilmədin.

Biz yenə üz-üzə gəlirik hərdən,
Sinəmdə həsrətdən ocaqların var.
Onda uşaq idim, lal olurdum mən,
İndisə nə deyim? Uşaqların var...

1975

SƏNİ BELƏ GÖRMƏYƏYDİM

Musiqisi Razim Paşayevindir

Təbəssümün qış günəşi,
Gedib girdi buludlara.
Ay bəxtimin od-atəşi,
De, sən hara, bulud hara?
Səni belə görməmişdim,
Səni belə görməyəydim.

Qaşların qəm haləsiydi,
Baxışların küskün idi.
Heç bilmirəm bu gördüyüm
Yalan idi, düzgün idi?
Səni belə görməmişdim,
Səni belə görməyəydim.

İstədim ki, dilə gəlib
Bu sükuta səs çiləyim.
İstədim ki, ürəyimlə
Ürəyini elçiləyim,
Bacarmadım, ay çiçəyim,
Səni belə görməmişdim,
Səni belə görməyəydim...

1980

HEYİF O GÜNLƏRİN ŞİRİNLİYİNƏ

Bir zaman uçmağa göyümüz vardı,
Zirvələr aşmağa heyimiz vardı...
Bizim bizdən özgə nəyimiz vardı?
Heyif o günlərin şirinliyinə.

Günlər keçirərdik şuxluq içində...
Varımız var idi yoxluq içində.
Yaşardıq biz gözütoxluq içində,
Heyif o günlərin şirinliyinə.

Bir duyğu axardı iki ürəkdə
Ömür qabaqdaydı, arzu bələkdə...
Sanki bal dadardı yavan çörək də-
Heyif o günlərin şirinliyinə...

Qab-qacaq yığardın mizimin üstə,
Yazardım şerimi dizimin üstdə...
Sənə yer verərdim gözümün üstdə-
Heyif o günlərin şirinliyinə...

Bizim pəncərədə pərdə yox idi,
Çörək pulumuz da hərdən yox idi.
Beləcə bir ömrün dərdi yox idi-
Heyif o günlərin şirinliyinə...

Qoşa qafiyəydi izinlə izim,
Qoşalıq sehriylə sınardı tilsim.
Nə gördük o zaman gördük, əzizim,
Heyif o günlərin şirinliyinə...

Sən dağ bənövşəsi-boynu bükülü,
Mən aran düzüyəm-qoynu bürkülü...
Bizə gün vermədi bu günlər, gülüm,
Heyif o günlərin şirinliyinə...

SƏN MƏNİ UNUT

Qoy qalım ömürlük səndən uzaqda,
Gələsi deyiləm yaxına bir də.
Məni xatırlama məndən uzaqda-
Girəsi deyiləm yuxuna bir də,
Sən məni, sən məni unut, əzizim.

Ömrümdə kök atıb pöhrələndin sən,
Gül açdı bəxtimin gülən baharı.
Hicran nəfəsiylə qəhr elədin sən
Vüsal havasıyla gələn baharı,
Sən məni, sən məni unut, əzizim.

Nəfəsi alovlu o məhəbbəti
Kül altda köz kimi qorumadıq biz.
Yarımçıq sevgimiz susdu əbədi-
Elə «yar-yar» dedik, yarımadıq biz,
Sən məni, sən məni unut, əzizim.

1984

TALE QAYIQ,
ÜMİD YELKƏN

Göz yaşın oydu köksümü,
Oyulmazdım-oymasaydın.
Bu möhnətə, bu zillətə
Qıyılmazdım-qıymasaydın.

Əyrilmişəm yun yerinə,
Üyünmüşəm un yerinə...
Sevgimlə Məcnun yerinə
Qoyulmazdım-qoymasaydın.

Göyərtmisən sətrimi sən,
Ümman sığan qətrəmisən?
Bilirsənmiş qədrimi sən-
Sayılmazdım-saymasaydın.

Tale-qayıq, ümid-yelkən,
Dərya dərin, ümidim kəm.
Doydun məndən belə erkən
Doyulmazdım-doymasaydın.

Şölələndim sənə doğru,
Söndürmədin yanan bağrı.
Ürəyimdən ağrı-ağrı
Soyulmazdım-soymasaydın.

1985

GÜRCÜ QIZI

(zarafat)

Baxışların baxışımı
Nişan alan qızıl oxdur.
Elə baxma, gürcü qızı,
Bu sevdanın sonu yoxdur.

Bu sevdanın sonu yoxdur,
Sonu yoxdur, ilki yoxdur.
«Yox» deyirəm, bil ki, yoxdur...

İkimizə bir gün «biçən»
Ölçü yoxdur, ülgü yoxdur.
Aç qəlbini özgəsinə-
Məndən sənə sevgi yoxdur.

Özün belə gözəl ikən,
Od saçırkən, közərirkən
Tutuşmadım alovuna-
Bəlkə ürəyin ovuna...

Salma məni, gürcü qızı,
Gəl dumana, çənə burda.
Gəncə qapısı deyiləm
Əsir olum sənə burda...

1985

ON BEŞ YAŞIN SƏRGÜZƏŞTİ

O qız mənim olmalıydı,
Mənsiz günü, ayı keçdi.
Onsuz keçən ömrüm-günüm
Elə bil havayı keçdi.

Qovuşmadı qollarımız,
Buz bağladı yolları, buz.
Keçilmədi yollarımız-
Ömrün qışı, yayı keçdi.

Tale məni sıxdı küncə,
Açılmadı dür-düyünçəm.
Mən ağıllı düşününcə
Dəli vurub çayı keçdi...

...Toy günü qəsdən oynadı,
Qəzəbdən, hirsdən oynadı.
Göz yaşı gözdə oynadı-
Yas içində toyu keçdi...

1985

İLK MƏHƏBBƏT YARASI

Sevinc şeh damcısı kimi bir anlıqdır, gülümsünəndə tələf olur. Qəm-qüssə möhkəm və davamlıdır. Qoy sənin gözlərində kədərlə dolu məhəbbət yaşasın.

Taqor

İllər keçir, gənclik köçür, yenə də
O məhəbbət qanımda dövr eləyir.
Çalın-çarpaz dağ çəkilən sinəmdə
Yar yarası yamanca qövr eləyir.

Soruşuram səni səndən xəbərsiz,
Bulud gözlüm, gün baxışlım, hardasan?
Sevgi böyük, tale dönük, mən fərsiz,
Ha üzsəm də əl çatmayan adasan.

O illərin ürəyimdə odu var,
Görən haçan sönəcəyəm-bilmirəm.
Fağır Qeysin yenə Məcnun adı var,
Bəs mən kiməm, mən nəçiyəm-bilmirəm.

Nə tez uçdu quş qanadlı bu illər,
Boynu bükük lal bənövşəm, hardasan?
Dəyişsə də aylar, illər, fəsilllər
Elə bilmə dəyişmişəm, hardasan?

...Dəli sevda başımızdan sovuşmur,
Yaşayırıq xatirələr xətrinə.
Nə yaxşı ki sevən kəslər qovuşmur,
Qovuşanın qiyməti nə, qədri nə...

1984

GÖZƏL OYNAYAN GÖZƏL

Mərmər döşəmə üstdə
Bir ürkək gözəl oynar.
Gözəl bu gözəl rəqsi
Hamıdan gözəl oynar.

Süzər ceyran sayağı,
Büdrəsə yox dayağı...
Yerə dəyməz ayağı,
Havada yüz əl oynar.

Olar canlı bir əsər,
Bu sarayı o bəzər...
Başımda sevda gəzər,
Ruhumda qəzəl oynar.

Yox imanı, yox dini,
Milyonların qəlbini
Köksündən üzər oynar,
Gözəl nə gözəl oynar...

1984

BAĞIŞLA, MƏN SƏNİ SEVƏ BİLMƏDİM

Sən elə ağıllı, elə gözəldin
Sevib-sevilməyə haqqın var idi.
Eşqimin oduyla nahaq közərdin,
Qəlbinə dəysə də qəlbim qar idi-
Bağışla, mən səni sevə bilmədim.

Könlümdən könlünə uzanan yolda
Yaşıl işıq idi yaşıl gözlərin.
Yenəmi qalmısan o xam xəyalda,
Yenəmi sellənib daşır gözlərin?..
Bağışla, mən səni sevə bilmədim.

Sən necə yaxındın, sən necə uzaq,
Sevgi dünyasında mürgülü idin.
Tale göy vermədi birlikdə uçaq,
Sən dibçək çiçəyi, ev gülü idin,
Bağışla, mən səni sevə bilmədim.

...Uzaqdan-uzağa kül eyləyirmiş,
Yaxına gələndə itirmiş sevgi.
Əlçatmaz yerlərdən əl eyləyirmiş,
Uçrumlar ağzında bitirmiş sevgi...
Bağışla, mən səni sevə bilmədim.

Nə bilim, kim bilir-bəlkə də mənə
Bir heykəl qoymusan ürək ahımdan-
Baxırsan işıqda, kölgədə mənə;
Yalvarır heykəlim:-Keç günahımdan,
Bağışla, mən səni sevə bilmədim...

1984

GƏLMİŞƏM

Aman, dilbər, düşdüm şahlıq taxtından,
Qapınızda qul olmağa gəlmişəm.
Sən bir odsan mən yazığın baxtından,
Atəşində kül olmağa gəlmişəm.

Gözüm qalıq sənin kimi göyçəkdə
Yalan olmaz gözlər görən gerçəkdə.
Nəfəsinlə güllər açan dibçəkdə
Elə mən də gül olmağa gəlmişəm.

Yollarımda qalan deyil gözlərin-
Hər nə deyir, yalan deyir gözlərin.
Məndən ötrü dolan deyil gözlərin,
Gözlərində sel olmağa gəlmişəm.

1985

SƏNDƏN ÖTRÜ

Çiçək olsan, bahar ollam-
Solmağa qoymaram səni.
Bulud olsan, günəş ollam,
Dolmağa qoymaram səni.

Bulaq olsan, çəmən ollam-
Sinəm üstdən yol salarsan.
Üzdə xalını görməsəm
Ürəyimə xal salarsan.

Tərlan olsan, göyün olub
Mən sənə qanad verərəm.
Yaşa mənim ömrümü də-
Mən sənə həyat verərəm.

Dəniz olsan, sahil olub
Tufanına sinə gərrəm.
Bu dünyadan gedəndə mən
Sən çağırsan, yenə gəlləm.

1986

SAÇI ŞƏLALƏM

(Nəğmə)

Baxışların can alır,
Gözlərini süzmə, gəl.
Yolumu yoxuş edib
Nəfəsimi kəsmə, gəl.

Saçı şəlaləm,
Yanağı laləm.
Dönər zülmətə
Sənsiz bu aləm.

Bu ilahi gözəllik
İlahidən pay düşüb.
Belə gözəl qız olmaz-
Göydən yerə ay düşüb...

Saçı şəlaləm,
Yanağı laləm.
Dönər zülmətə
Sənsiz bu aləm.

1985

ON ALTI YAŞIMDAN BOYLANAN GÖZƏL

Ömrün o başından boylanan gözəl-
On altı yaşımdan boylanan gözəl,
Boylanma, boyunu görə bilmərəm,
İkiyə ayrılan o məhəbbətin
Birləşən toyunu görə bilmərəm...

Ey məni qərq edən sevgi ümmanım,
Ey məndən məhəbbət, sevgi umanım,
Qulac hörüyünü hörə bilmərəm.
Qaranlıq gətirib həsrət dumanı,
Səni bu dumanda görə bilmərəm...

Gözümə tuşlayar uşaq yaddaşım
Görmək istədiyim gözləri yenə.
Kürün sahilində on altı yaşım
Yəqin yollarını gözləyir yenə...

On altı yaşımdan boylanan gözəl,
Kürün işığında aylanan gözəl,
Mən sənin oduna elə yanmışam,
Deyirəm, nə yaxşı kül olmamışam...

...Yazımdan, qışımdan boylanan gözəl
On altı yaşımdan boylanan gözəl...

1983

KİRPİYİN OLSAYDIM

Kirpiyin olsaydım, tutaş kirpiyin,
Qoymazdım gözünə başqa göz dəyə.
Olardım gözünün bulud örtüyü
Qıymazdım baxasan məndən özgəyə.

1980

BƏXTƏ BAX Kİ...

O dağlarda bir binə var
Çiçəyi yarpıza dönüb.
Mamır telli Qaraqaya
Qış günü Qar qıza dönüb.

Gedən ömür gözləməyir,
Sevən ürək gizləməyir.
Niyə məni səsləməyir-
Yoxsa ki yar buza dönüb?

Gözlərimdə qalıb arzum-
Nə uddum ki, nə uduzum...
Bəxtə bax ki, bəxt ulduzum
Bir sönük ulduza dönub...

1983

TAPIŞMASAYDIQ

İllər özümüzdən qopardı bizi,
Apardı, harasa, apardı bizi...
Eh, kimlər, kimsələr tapardı bizi-
Tapışmasaydıq.

Baharlı duyğular qarda qalardı,
Ürək məhəbbətsiz darda qalardı,
Gül açan arzular harda qalardı,
Tapışmasaydıq?

Odlu baxışlardan heyrət tapmazdıq,
Sevib-sevilməyə fürsət tapmazdıq,
Nə vüsal, nə də ki, həsrət tapmazdıq-
Tapışmasaydıq.

Yoxuşlu yolları ötməzdik bu gun,
Vədələr yerində «bitməzdik» bu gun,
Axtara-axtara itməzdik bü gün-
Tapışmasaydıq...

1977

BELƏMİ SEVİRDİN

Yaxın gəl, hesablaş sinə dağımla...
Sən ki zəhərsənmiş bal dadmağınla.
Yazıq ürəyimi aldatmağınla
Köhnə dünya kimi devirdin məni-
Ay zalım, beləmi sevirdin məni?

Bəzən həqiqət də nağıl olurmuş,
Bəzən məhəbbət də paxır olurmuş...
Aldanmaq nə yaman ağır olurmuş-
Cansız oyuncağa çevirdin məni-
Ay zalım, beləmi sevirdin məni?...

Mən necə yaşayım bu qara günlə,
Yanıram, könlümdən keçəni dinlə:
O saxta sevginlə, məhəbbətinlə
Sənə kim deyirdi sevindir məni-
Ay zalım, beləmi sevirdin məni?...

1981

SƏNSİZ SƏNLİ YERLƏRDƏ

Yadına gəlirmi, il yarım qabaq
Yarpağa bənzəyən qulaqlarıyla
Bizim sevgimizi dinlədi bu bağ?
İndi tək gəlmişəm, tənha gəlmişəm,
İndi neyləyim ki, bugünkü səndən
Dünənki xatirən əzizdir mənə.
Hər yarpaq-budaqdan baxan xatirə
Hər damla xatirə-dənizdir mənə...
...Gəlmişəm, yenə də o yerdir elə,
Küləklər at çapır belədən-belə.
Yenə də o torpaq, yenə də o göy,
Bir yanım söyüddür, bir yanım qovaq-
Bax elə burdaca il yarım qabaq
Bu torpaq var idi, bu göy var idi.
Bizim eşqimizə kənardan baxan
Doğmalar var idi, ögey var idi...
Bu qəfil gəlişdən, bu tək gəlişdən,
Görüş yerimizlə bu tək görüşdən
Görəsən dənizin xəbəri varmı?...
...Kiminə pay verir güllü baharı,
Qarlı qış yetirir tale kiminə...
Deyirəm bəlkə də bu qağayılar
Yığışıb qəlbimin təlatümünə
Qaytarmaq istəyir ötən günümü-
Tale tufanında itən günümü...
Yoxsa ki, bu haray, bu həşir nədir?
Qorxub iki qəlbin ayrılığından
Yoxsa yer göy ilə birləşir, nədir?..

1979

GÖZ YAŞIMDAN GÖL YARANIB

Göz yaşımdan göl yaranıb,
Sən bu gölün sonasısan.
Hara uçsan gəlib yenə
Ürəyimə qonasısan.

Heç tükənmir sinəm ahı-
Sevən kəsin nə günahı?!
Son sözümün son pənahı,
İlk eşqimin anasısan.

Hara getdim, hara baxdım
Açılmadı qara baxtım...
Dağ başında qara baxdım
Qorxdum ki, sən donasısan...

1978

BU ÜMMANDA MƏN BİR ADA

Kim deyib ki, kipriyini
Gözlərinə çəpər eylə?!
Kiprik qalxıb od yağanda
Alışaram - xəbər eylə.

Pünhan eşqim gəlmir vecə,
Yeyir məni dərd gizlicə.
Sənsiz günüm qara gecə -
Bu gecəni səhər eylə.

Qəlb gözünlə bax həyata,
Yatmış bəxtim qoyma yata.
Bu ümmanda mən bir ada,
Bu "adaya" səfər eylə.

2011

SƏNƏ ÇİÇƏK GƏTİRMİŞDİM

Öz əlimlə bir dəstə
Boyçiçəyi dərmişdim.
Uzaq-uzaq ellərdən
Görüşünə gəlmişdim.

Dağlardan gətirdiyim
Nəfəs bildim çiçəyi.
Bu dünyada hər şeyə
Əvəz bildim çiçəyi.

Sən çiçəyə baxmadın-
Ləçəkləri qurudu;
Axı dağlar müqəddəs,
Axı çiçək uludu...

Gözlərindən gün doğan
Ləçəyi bəyənmədin.
Çiçək bildiyim gözəl,
Çiçəyi bəyənmədin...

1978

TƏCNİSLƏR

1.AY AZDI

Gözlərinin şöləsindən çaşaraq
Göy üzündə günəş batdı, ay azdı.
Buludlar da səcdə edib hüsnünə
Dağıldılar-səma necə ayazdı...

Mələkdonlu yaranmısan gülüm, sən,
Yalvarıram, qəmli durma, gülümsən...
İlk açılan çiçəyimsən, gülümsən,
Çıx görüşə-ilk bahardı, a yazdı!

Səni sevdim, düşdüm dildən a dilə,
Öyünürəm mən bu gözəl ad ilə.
Gəl sevgilim, gəl həmdəm ol Adilə
Ömür keçir-il gödəkdi, ay azdı...

1977

2.AXŞAMLAR

Cərgələnər bulaqların başına
Kəndimizin gözəlləri axşamlar.
Nəzər salıb orda səni görməsəm
Könlüm qüşü qəm içində axşamlar.

Sənsiz keçən bircə anım andımı?
Ömrüm boyu unutmaram andımı...
Söylə, gülüm, qəlbin məni andımı-
Pərvanəni kül edəndə ağ şamlar?

Qəm oduna çox yandırma gəl məni,
Dinləməkçün şirin-şirin kəlməni
Gözləyirəm görüşümə gəlməni-
Həmdəmimdir göy çinarlar, ağ şamlar...

1977

3. OD ƏLƏ

Gözlərinə pərdə çəkmə şüşədən,
Baxışınla ürəyimə od ələ.
Elə yandır günəş məndən güc alsın,
Düşməz bir də belə atəş, od ələ.

Bu xınaya heç oxşamır o xına,
Sevən ürək gərək gözdən oxuna.
Qəlbim-hədəf kirpiyinin oxuna,
Haqqı var ki, ürəyimi o dələ.

Adil bilir həyat necə şirindi,
Şirinlikdən çox yaşayır şir indi.
Elə bilmə meydan hər vaxt şirindi,
Bu şiri də yıxar bir gün o dələ.

2006

SƏNİ GÖZLƏYİRƏM

Yenə doğma çinar, yenə doğma yer...
Doymuram adını əzizləməkdən.
Sənə doğma çinar, sənə doğma yer
İlk dəfə yad oldu bu gözləməkdən.

Gəl, qoyma sevincim qəmə boyana,
İntizar qəlbimə xal saldı, tez gəl.
O qədər gəzdim ki, o yan-bu yana
Ayağım yollara yol saldı, tez gəl.

Şübhə pəncəsinə verdim gümanı,
Ümidim salamat qalaydı barı...
İtəydi gözümdən həsrət dumanı
Tapaydım qəlbinə gedən yolları...

Bəlkə yadlarıma doğmadır adın...
Deyirsən bu gündən izləyəm səni?
Bir günlük gözlədim gəlib çıxmadın,
Qorxuram ömürlük gözləyəm səni.

1977

ULDUZLU GECƏMİZ

Gecə sehrlidir, gecə gözəldir,
Göyün qübbəsindən baxır ulduzlar.
Bu payız gecəsi necə gözəldir,
Bir bax, karvan-karvan axır ulduzlar...

Danış, doymamışam lətif səsindən...
Özgə səs hissimi apara bilməz.
Bir cüt gözlərinin cazibəsindən
Məni milyon ulduz qopara bilməz!

1977

GƏZİRƏM

Bir keçilməz dağ olubdur vüsalın,
Gül eşqimi təpə-təpə gəzirəm.
Ürəyimə ələdiyin həsrəti
Gözlərimdən səpə-səpə gəzirəm.

Sən dünyanın buz qütbüsən gözümdə-
Məhrəm olsan, əriyərsən közümdə.
Mən Fərhaddan dözümlüyəm dözümdə-
Əzabından öpə-öpə gəzirəm.

Sənsiz necə darıxmasın bu ürək,
Gəl qovuşaq-bir körfəzə tökülək...
Sən-dərindən dərin dəniz,mən-külək,
Ləl eşqimi ləpə-ləpə gəzirəm...

1978

UDDUĞUM HAVASAN, ALDIĞIM NƏFƏS

Ürək də başlasa parçalanmağa
Mən buna məhəbbət demərəm daha

Məmməd İsmayıl

Acı bilməmişəm şirin dərdini-
Fərhad çəkməlidir Şirin dərdini...
Udduğum havasan, aldığım nəfəs-
Mən buna məhəbbət deməyimmi bəs?

Yer üzü, Göy üzü nə işıqlıdır,
Bu dünya sənlə yaraşıqlıdır.
Közərir köksümdə bir dəli həvəs-
Mən buna məhəbbət deməyimmi bəs?

Aylarım, illərim tərs dolanırsa,
Dərdimin üstünə dərd qalanırsa,
Çəkdiyim ağrılar olursa əbəs,
Mən buna məhəbbət deməyimmi bəs?

Göyün qübbəsindən səda gəlirsə,
Ayrılıq yetişib, vida gəlirsə,
Alovsuz, ocaqsız yanırsa bir kəs
Mən buna məhəbbət deməyimmi bəs?

Sərhədlər düşünüb yolumu kəsmə,
Əlindən tutmamış qolumu kəsmə,
Bəsimdir qəlbimi döyündürən səs-
Mən buna məhəbbət deməyimmi bəs?

1989

NAĞIL SEVGİ

Sən məni yaşadan şirin nağılsan-
Bənzəyir bir şirin nağıla sevgim.
Elə «qurmuşam» ki, dünya dağılsa
Çətin parçalanıb dağıla sevgim.

Göylərim tutulsa gürşad oluram,
Ya qəmli oluram, ya şad oluram.
İndi bilmişəm ki, yaşa doluram-
Çağırır kamala, ağıla sevgim.

Ölçüyə gəlməyir, ülgü bilməyir,
Heç qorxu bilməyir, ürkü bilməyir...
Həyat «ümmanında» üzgü bilməyir,
Qorxuram qəfildən boğula sevgim.

Gəlmişəm hüsnünə nəğmə qoşmağa,
Həyadan bürünüb ipək yaşmağa.
Deyirəm: güc olsun dağlar aşmağa,
Demirəm: aşılmaz dağ ola sevgim.

Çarə yox dünyanın olacağına:
Bir gün xəzan dəysə ömrün bağına,
Qoşulsa Günəşin qürub çağına
Dan üzü təzədən doğula sevgim.

1990

XƏBƏRİN YOX

Gözlərimə baxan gözəl,
Ürəyimdən xəbərin yox.
İnsan olan çətin dözər-
Gileyimdən xəbərin yox.

Qulağımda bu səs nədir,
Sevgi deyilsə, bəs nədir?...
Bu istəyə əvəz nədir-
Diləyimdən xəbərin yox.

Yağış olub çilənmişəm,
Çəmən olub güllənmişəm.
Üyünmüşəm, ələnmişəm-
Ələyimdən xəbərin yox.

Bu qüdrətdə sən bir mələk,
Qarşında diz çöküm gərək...
Saydığını sayır fələk-
Fələyimdən xəbərin yox...

1989

SEVƏRƏK YAŞAMAQ

Sən ey xəyalıma bürünən gözəl,
Məhəbbət insanın xatası deyil.
Mələk timsalında görünən gözəl,
Əllərim əlinə çatası deyil.

Günbəgün çoxalır kədərim, qəmim,
Bu dərdi çəkəcək bilmirəm kimim.
Dəryada tufana tuş gələn gəmim
Demə ki, boğulub batası deyil.

Yollarım dirənir üzü bozluğa,
Gah oda düşürəm, gah da buzluğa.
Gözlərim öyrəşib yuxusuzluğa-
Sevən kəs gecələr yatası deyil.

Gülüm, doğma olma yağıya, yada-
Təkcə mənim olsun bu naz, bu əda.
Yoxsa ürəyini tərpədən səda
Mənim ürəyimin sədası deyil?..

Əzablar qoynunda doğulur insan-
Sevərək yaşamaq deyilmiş asan.
Hər şeyi unudub bu şeri yazan
Elə bil üç uşaq atası deyil...

1989

SƏNİ GÖRMƏK ÜÇÜN GƏLDİM DÜNYAYA

Musiqisi Nadir Əzimovundur

Ey mənim gözümə görünən butam,
Əllərim çatmayır əlindən tutam,
Dönmüsən əlçatmaz ulduza, aya-
Səni görmək üçün gəldim dünyaya.

Niyə gizlənirsən gözümdən mənim,
Oxü ürəyimi üzümdən mənim...
Bilməm həqiqətsən, yoxsa ki röya-
Səni görmək üçün gəldim dünyaya.

Taleyin qəribə işləri varmış-
Bir üzü gün imiş, bir üzü qarmış.
Ayrılıq az qalır ruhumu soya-
Səni görmək üçün gəldim dünyaya.

Ürək dolu ikən mən necə susum,
Bu kədər dərindir, bu həsrət uzun.
Neyləyim, heç məni salmadın saya-
Səni görmək üçün gəldim dünyaya.

Ömrümə od saçan baxışlar yağır,
İlahi, nə qaynar «yağışlar» yağır-
Az qalır damlası sinəmi oya-
Səni görmək üçün gəldim dünyaya.

Sən mənim bəxtimə biçilən nursan,
Bir dəfə dinmərəm min yara vursan.
Çətin ki, gözlərim gözündən doya-
Səni görmək üçün gəldim dünyaya.

Gülərəm taleyin gülüşünə mən,
Peşiman deyiləm gəlişimə mən-
And olsun Günəşə, Torpağa, Suya
Səni görmək üçün gəldim dünyaya...

1989

GEC OLMAMIŞ

Bir qulaq as ürəyimə-
Arzularım puç olmamış.
Bu günlərə «ömür» deyim,
Ömrüm-günüm heç olmamış.

Hicran yükü kürəyimdə,
Qandallar var biləyimdə...
Yəqin sənin taleyində
Belə insan heç olmamış.

Sinəmdəki köz dərində,
Gözüm qalıb gözlərində.
Heç vaxt mənim dizlərimdə
Belə taqət, güc olmamış.

Gümanım yox günə, aya...
Gülüm, məni sal bir saya-
Bu dünyadan o dünyaya
Vaxt-vədəsiz «köç» olmamış...

Bu sevgidən yarımadım,
Özgəsini aramadım.
Ay mələyim, ay muradım,
Gəl tələsək-gec olmamış...

1988

SƏNİ DÜŞÜNÜRƏM SƏNİN YANINDA

Əllər soyuq oldu-davam gətirdim,
Sözlər soyuq oldu-dözə bilmədim.
Ömrümü-günümü başa yetirdim,
Sevdiyim çiçəyi üzə bilmədim.

Qəfildən sıyrılıb çıxdı qarşıma
Duman bilə-bilə, çən bilə-bilə.
Onsuz da bələdsən qarlı qışıma-
Mənə sual vermə sən bilə-bilə.

Heç məni üşütmür bu soyuq-sazaq,
Sən odsan qəlbimin həyəcanında.
Nə qədər yaxınsan, nə qədər uzaq-
Səni düşünürəm sənin yanında...

1988

BİRDƏN-BİRƏ

Musiqisi Cabbar Musayevindir

Heç bilmirəm necə oldu-
Sevdim səni birdən-birə.
Ağ gündüzüm gecə oldu-
Sevdim səni birdən - birə.

Bir kəs duymaz min ahımı,
Çağırıram Allahımı...
Üzürlü say günahımı-
Sevdim səni birdən-birə.

Səhra kimi qovruldum mən,
Çeşmə kimi duruldum mən.
Gözlərinə vuruldum mən-
Sevdim səni birdən-birə.

Bağışlasın bu yol-ərkan,
Mənim eşqim bir yuxukən-
Sənin üçün mən yox ikən
Sevdim səni birdən-birə...

1988

SƏRHƏD

Bizim dünyamızın öz sərhəddi var,
Tikanlı məftildən «Siz» sərhəddi var.
Sənə bundan belə demərəm mən «Siz»-
Sənə «Siz» deyəndə oluram sənsiz.

Axır damarımda dəli duyğular,
Mənim ürəyimdə iki duyğu var;
Birisi hörmətdir, biri məhəbbət,
Hörmət-məhəbbətə çəkilən sərhəd...

1988

XOŞBƏXT O KƏSDİR Kİ

Kim deyir məhəbbət zamanı deyil?
Sevginin həmişə zəmanəsi var.
İnlərəm, sızlaram mən için-için-
Sinəmin ürəkdən kəmanəsi var.
Ruhum bədəndə yox, ağlım başımda-
Odlu gözlərinin divanəsi var.
Sənin atəşinin, sənin odunun
Mənimtək biçarə pərvanəsi var.
Hələ gün keçirmək ömür-gün deyil,
Xoşbəxt o kəsdir ki, sevən kəsi var...

1989

UZAQDAN-UZAĞA

Baxışım utanır baxışlarından,
Sənin gözlərinə gözlərim əsir...
Qəfil zəlzələdən özüm bir yana,
Dağlarım titrəyir, düzlərim əsir.

Uzaqdan-uzağa baxıb gedirəm,
Özümü yandırıb, yaxıb gedirəm.
Elə ki, baş alıb çıxıb gedirəm
Ayağım büdrəyir, dizlərim əsir...

Sevənin qəlbində həmişə yazmış,
Bu yaz buludları necə bəyazmış...
Bir sözü deməyə bir ömür azmış-
Dilimin ucunda sözlərim əsir...

1988

ÜRƏYİM

Qalıb intizarda, qalıb həsrətdə
Yetim quzu kimi mələ, ürəyim.
Nə bilim başıma nələr gələcək,
Nələr var qarşıda hələ, ürəyim...

O qız gələn deyil haraya, haya-
Sevməyən sevəni salarmı saya?..
Sığışa bilməyib bu gen dünyaya
Qurmusan özünə tələ, ürəyim.

Sinəmdə alışan odsan, ocaqsan,
Üzüldün, süzüldün-saçaq-saçaqsan,
Neçə ki, mən varam sən yanacaqsan,
Təki dönməyəsən külə, ürəyim.

Elə dərdlisən ki, ovutmaq olmur,
Vəfasız yarından yarıtmaq olmur.
Səni unudanı unutmaq olmur-
Necə daş olasan, pilə ürəyim?

Yas tutar gözümün yaşına gələn,
Buz tutar ömrümün qışına gələn.
Məcnunun, Kərəmin başına gələn
Qorxuram başıma gələ, ürəyim...

1988

ÜRƏYİMİN ÇATINA BAX

Bu dünyada bir mələyin
Qolu bağlı dustağıyam.
Yamacımda güllər açmaz-
Mən əriyən duz dağıyam.

Mələksima qadına bax-
Gözlərinin oduna bax...
Ürəyimin çatına bax-
Alov saçan köz dağıyam.

Bir yay kimi gərilmişəm,
Mən ölmüşəm, dirilmişəm.
Kəlmə-kəlmə hörülmüşəm-
Misra-misra söz dağıyam.

Məhəbbətdir qalam, bürcüm,
Son nəfəsim, axır gücüm...
Yaşayıram sevgim üçün,
Sevgisizə göz dağıyam...

1989

SƏNDƏN AYRI

Musiqisi Nadir Əzimovundur

Səndən ayrı boğuluram
Sudan ayrı balıq kimi.
Həsrətin azdırır məni
Bir yaşıl ovalıq kimi.

Göydə olsan göyə gəlləm,
Bir soruş ki, niyə gəlləm?
Mən səni səcdəyə gəlləm-
Xəlq eləyən xaliq kimi.

Ayrılıqlar əsrindəyəm,
Zalım zaman qəsrindəyəm.
Dönük dövran kəsrindəyəm-
Qalmalıyam qalıq kimi.

Ürəklər var-qonağı yox,
Sevgilər var-sınağı yox...
Bir kimsənin yanığı yox-
Sinəmdəki yanıq kimi.

Pərvanətək yandım oda,
Kül olmamış sal bir yada.
Yaşayıram bu dünyada
Öz yarama sarıq kimi...

1989

QƏZƏL

Nə qədər zalım ürəksən, gözəlim, kaş biləsən,
Yerinə olsa əgər yumşalardı daş, biləsən.

Ağarınca dan üzü gözlərimin ağı gedir,
De, rəvamı, mələyim, mən yazığı çaş biləsən?...

Gündüzüm gecə olub, soruş ki, bir necə olub,
Gecə-gündüz nə çəkib bu sevdalı baş biləsən.

Üzülən qəlbim elə bil ki, üzük haləsidir,
Bu üzükdə közərən eşqimi sən qaş biləsən.

Daha ömrün bu bahar çağlarına əlvida-
Kəsdirib astanamı qar gətirən qış, biləsən.

Demə ki, böylə niyə kövrək olub Adil Cəmil,
Ayrılıq çeşməsidir gözlərimdə yaş, biləsən...

1990

MƏHƏBBƏTİM

Bu könlümü yarpaq kimi
Hey əsdirən məhəbbətim.
Axşam-səhər məni sənə
Tələsdirən məhəbbətim.

Taleyimi parçalayan,
Ürəyimi sıxçalayan,
Gah günümə gün calayan,
Gah «bezdirən» məhəbbətim.

Yığışar ağrı-acıma,
Sığışar ürək «ovcuma».
Ağ sığal çəkib saçıma
Əl gəzdirən məhəbbətim.

Gah ruhumu alışdırar,
Gah yuxumu qarışdırar.
Görən haçan barışdırar
Bu küsdürən məhəbbətim...

1989

O GÖZLƏRƏ BAXA BİLƏM

Baxışınla buz ürəyim isindi,
Danışmadıq-üzdü məni üzüntü...
Yaman yerdə yaman düşdüm dərdə mən-
O gözlərə baxa biləm bir də mən...

Gözlərini gözlərimdə saxladım,
Üzdə gülüb ürəyimdə ağladım,
Bilmədim ki, göydəyəm, ya yerdə mən,
O gözlərə baxa biləm bir də mən.

Tale mənim, ömür mənim, gün mənim,
Bu dünyada mən kiminəm, kim mənim?...
Araz olub əriyirəm Kürdə mən-
O gözlərə baxa biləm bir də mən...

1989

QINAMASIN MƏNİ BU EL

Bu dünya bir gülüstandır,
Ən ətirli çiçəyi-sən.
Bu ömür-gün bir nağıldır,
Yalanı sən, gerçəyi-sən.

Sənə «ömrüm» deyən kəsin
Ömrü-günü kəm olarmı?
Aman, Allah, bu nə sevda-
Belə şirin qəm olarmı?...

İstəmirəm qanun qoyan
Sərhədləri aşıb keçəm.
İstəmirəm dağ seli tək
Bənd-bərəni daşıb keçəm.

İstəmirəm, istəmirəm...
İstəyirəm səni fəqət.
Qınamasın məni bu el,
Qınamasın bu məmləkət.

Sən göyümdə tənha ulduz,
İşığına üz tutmuşam.
Bil ki, səni tapan gündən
Mən özümü unutmuşam...

1989

BİR BELƏ GÜN ÜÇÜN

İlahi, belə də sevgi olarmı-
Qoymadı daşımı daşımın üstdə.
Niyə mən fağırın üzü danlanır
Karıxmış ağlımın, huşumun üstdə?

Boş keçən illərə ömrümü qıydım,
Bir belə gün üçün günləri saydım.
Sevdalı ürəyim, gözlərin aydın-
Bahar gül açıbdır qışımın üstdə.

Əriyən şam kimi ömür sozalır,
Bu gündən sabaha güman azalır...
Bir yandan bəxtimə sevgi yazılır,
Bir yandan yaş gəlir yaşımın üstə.

Alışıb yanıram, köz tuturam mən,
Görəsən bu yolu düz tuturam mən?..
İnan ki, hayana üz tuturam mən
Xəyalın dolanır başımın üstə.

1988

GÖRƏN OLAR EŞQİMİ

Məhv eləsin qoy məni bu «zəlzələ»-
Dağlarımı, düzlərimi saxlama.
Ağ varağı kəfən bilib bükülən
Boynu bükük sözlərimi saxlama.

Kim gətirdi bu çovğunu, boranı-
Qarışdırdım mən dağ ilə aranı.
Sağlığımda sağalt mənim yaramı,
Məndən sonra izlərimi saxlama.

Axı ürək necə olsun daş kimi?..
Qınamıram, qınamıram heç kimi.
Yalvarıram, görən olar eşqimi-
Gözlərində gözlərimi saxlama.

1989

GÜNAHIM NƏYMİŞ

Səhər-səhər gün çıxmamış
Günçıxandan yarım çıxdı.
Bu sınaqdan kim çıxmamış-
Yarsız ömür yarımçıqdı...

Bir gül açar hər izində,
Günəş doğar tər üzündə.
Özüm qaldım yer üzündə,
Göyə ahu-zarım çıxdı.

Soruşmadı «ahım» nəymiş,
Umudum, pənahım nəymiş...
İlahi, günahım nəymiş-
Sevdiyim qız zalım çıxdı?...

1988

ÖZÜMÜ İTİRDİM

Yıxıldım qurumuş palıdtək,
Yox oldum bir əlçim buludtək-
İtirdim, özümü itirdim.

Yoxsa bu taleyin əmrimi-
Şam kimi əritdim ömrümü,
İtirdim özümü, itirdim.

Köz tutdum-alovdan qorxmadım,
Buz tutdum-qırovdan qorxmadım-
İtirdim, özümü itirdim.

Puç imiş dünyanın hər üzü,
Yerindən oynadı Yer üzü-
İtirdim, özümü itirdim.

Süzüldü, sozaldı bu yollar,
Üzümə bozardı bu yollar-
İtirdim, özümü itirdim.

Ürəyim ağrıda, tələşda,
Gözümdən yaş axır bu yaşda-
İtirdim, özümü itirdim.

Bu ömür nə yaman qısaymış,
Məhəbbət bir şirin «qəzaymış»-
İtirdim, özümü itirdim.

Payızam-saralır dözümüm,
Gözlərin bağladı gözümü-
İtirdim, özümü itirdim.

A gülüm, nə günüm ta bunca?
Ölərəm özümü tapınca-
İtirdim, özümü itirdim...

1988

ÜRƏYİM BOŞ SƏHRA İDİ

Ürəyim boş səhra idi,
Gülşənə döndərdin, gülüm.
Kərəmin qarlı dağına
Məni də göndərdin, gülüm.

Bu dumanda mənəm azan,
Dərd əlində oldum ozan.
Həsrətin bir qaynar qazan-
Üstümə əndərdin, gülüm.

Məntək boynu bükülün var,
Gözü yola dikilin var.
Ürək adlı bir «gülüm» var-
Onu da sən «dərdin», gülüm.

Dərd verirsən bilə-bilə,
Əriyirəm gilə-gilə...
Havalandım eşqin ilə,
Vurub yerə sərdin, gülüm.

1989

BİR EŞQİ YAŞADAN

Bir eşqi yaşadan xatirələrdə
Ayları, illəri əyləyə billəm.
Bu da bəxt işidir, tale payıdır-
Sən məni sevmədin-neyləyə billəm?

Sinəmə o qədər dağ çəkmisən ki,
Mən kimə dərdimi söyləyə billəm.
Məhəbbət həmişə özxoşunadır,
Sən məni sevmədin-neyləyə billəm?

Bu qəm atəşində bir ömür boyu
Mən yanıb-yaxılıb, göynəyə billəm.
Olmaz buz ürəkdə qaynar məhəbbət-
Sən məni sevmədin-neyləyə billəm?..

1989

SƏNİN «YERİN»

Bu dünyada mənim dərdim
Sənin dərdi-sərin imiş.
Ömür qısa, arzu böyük,
Yaralarım dərin imiş.

Gözüm ovu gözəl pərim,
Gözəlisən gözəllərin.
Sənin o bəyaz əllərin
Bilsən necə sərin imiş.

Gül bitirməz qış qalan yer,
Bəxtim qışa tuş qalan yer.
Ürəyimdə boş qalan yer
Demə sənin yerin imiş...

1990

SƏN ÖZGƏ, MƏN ÖZGƏ

Bilirəm gözlərin nə deyir mənə,
Qəlbindən keçəni oxuyuram mən.
Haqqın var güləsən düşdüyüm günə-
Şirin sözlərinə çox uyuram mən.

Bir kəlmən isidir bütün ömrümü,
Bir sözün çevrilir alın yazıma.
Salma çətinliyə çətin ömrümü,
Sən Allah «toy» demə mənim «yasıma».

Səndən yaxını yox, səndən uzağı,
Can verən bir eşqin son nəfəsiyəm.
Sən özgə ocağın şamı, çırağı,
Mən özgə ocağın pərvanəsiyəm.

Ömür o deyil ki, bir yerdə olaq,
Sən varsan, əzizim, demək mən varam.
Sən özgə zirvədə çağlayan bulaq,
Mən özgə zirvədə əriyən qaram.

Sevgi həqiqətmiş, məhəbbət gerçək,
Eşqindən od alan odlu baxışam.
Sən özgə çəməndə açılan çiçək,
Mən özgə çəmənə yağan yağışam...

1989

SƏN GƏLDİN

Sən gəldin ömrümə bir payız çağı,
Apardın yamyaşıl bahara məni.
Sinəmdə qalayıb sevgi ocağı
De, hara çəkirsən, de, hara məni?

Sən gəldin ömrümə-ömrüm dəyişdi,
Çıxdı məcrasından dürğun illərim.
Özüm də bilmirəm, Allah, nə işdi-
Təzədən göyərdi solğun illərim.

Sən gəldin ömrümə-gəlişin səssiz,
Bəs niyə qəlbimdə fırtına qopdu?
Sənsiz ürəksizəm, sənsiz-nəfəssiz,
Eşqin iliyimə, qanıma hopdu...

1989

İNCİMƏ

Sənini ki uçmağa qanadların var,
Qanadı qırılan mənəm, incimə.
Taleyin tufanı qəhr edir məni-
Bir belə ömürəm, günəm, incimə.

Mənə dərd verirsən sən bilə-bilə,
İqbalım bu imiş, qismətim belə.
Ruhumu yandıran həsrətin ilə
Çarpaz dağlanıbdır sinəm, incimə.

Soyuqdur hicranın qışı, bilirəm,
Donar gözlərimin yaşı, bilirəm.
Sənin yollarında yaxşı bilirəm-
Haçandır dumanam, çənəm, incimə.

Dünyanın vədəsiz solan yazıyam,
Üzünü görməyə mən tamarzıyam.
Bir dəfə qəlbinə dəydim, razıyam,
Min dəfə başına dönəm, incimə.

Mən sənə vermişəm öz ürəyimi,
Parçala köksümü, üz ürəyimi.
Deməsəm yandırar söz ürəyimi-
Gəl mənim sözümdən sənəm, incimə...

1989

ÖLÜMDƏN ÇOX AYRILIQDAN QORXURAM

Gələn gəlir, gedən gedir beləcə,
Bu ömür-gün bilinməyən bilməcə,
Mən dünyaya başqa gözlə baxıram,
Ölümdən çox ayrılıqdan qorxuram.

Məhəbbətin yazı nədir, qışı nə?
Pərvanətək dolanıram başına.
Hey özümü yandırıram, yaxıram,
Ölümdən çox ayrılıqdan qorxuram.

Qorxuram ki, o gözlərdən ayrılam,
Məni çəkən «dənizlərdən» ayrılam...
Fikir-xəyal məcrasında axıram-
Ölümdən çox ayrılıqdan qorxuram...

1989

QAYIDIB GƏLMİŞƏM YENƏ

Bir yuxu «tapmışdım» ötən gecədən,
Görüşdük-gör necə yuxum çin oldu.
Gördüm gözlərində həsrətimi mən,
Sənin bu kədərin sevincim oldu.

Bildim ki, bu həsrət nə qədər uzun-
Yol çəkən gözlərin «ləpələnirdi».
Aylarla, illərlə susan bir qızın
Gileyli sözləri səpələnirdi:

«Hardasan, bəs niyə yoxa çıxmısan?
Hardasan, insafın, mürvətin varmı?
Dərəyə enmisən, dağa çıxmısan?
Xəbərsiz ayrılıb getmək olarmı?..»

Bəli, ayrılmışdım xəbər-ətərsiz,
Səndən uzaqlarda sən mənim idin.
İzinlə qoşaydı açdığım hər iz,
Çöllərdə çiçəyim, çəmənim idin...

Səhərlər doğulan qızıl günəşim,
Gecələr ən yaxın ulduzum idin.
Məni bu yollara kim salmışdı, kim?
Ayrılıq yolları nə uzun idi...

Qayıtdım özümə, qayıtdım sənə,
Qayıtdı ürəyim öz ahənginə.
Bu mənəm-qayıdıb gəlmişəm yenə,
Qurbanam gözünün bulud rənginə...

1990

SEVDANIN SONU VARMI

Sevincin sonu qəhər,
Gecənin sonu səhər.
Hər şey belə, bu təhər,
Sevdanın sonu varmı?

Ayların sonu ildir,
Alovun sonu küldür.
Taleyim mənə güldü:
-Sevdanın sonu varmı?

Dünyamız bölüm-bölüm,
Həyatın sonu-ölüm.
Ölsəm sonumdur, gülüm,
Sevdanın sonu varmı?

Durnalar öz köçündə,
Qarışqa fil gücündə...
Bu sonsuzluq içində
Sevdanın sonu varmı?

Ay ürək, elə sev ki
(Günüm keçdi heyf ki...)
Hay salsın məcnun sevgi:
-Sevdanın sonu varmı?..

1990

YARICİDDİ

Hal bilən ariflər hardadır, Allah?
Nadanlar əlində girinc olmuşam.
Rəngimi, ruhumu dəyişib zaman-
Turşuya tökülən zirinc olmuşam.

Bir vaxtlar mənim də bir dünyam vardı-
Görüşə gecikəm tufan qopardı...
Qızıl günlərimi qızlar apardı,
Saçım ağardıqca bürünc olmuşam.

Gəlir nəsil-nəsil, gəlir gözəllər,
Gözəl olduğunu bilir gözəllər.
Məni görən kimi gülür gözəllər-
Deyəsən bir azca gülünc olmuşam...

2002

BU NECƏ SEVGİDİR

Musiqisi Ramiz Mustafayevindir

Bir ömür yaşadım xatirələrdə,
Bir ömür yaşadım-dadı bilinməz.
Bu necə sevgidir, necə məhəbbət-
Ünvanı bilinməz,adı bilinməz.

Ay ürək, sən məni yandırıb-yaxma,
Boş keçən günləri başıma qaxma.
Doğmaya yad oldum,yadlara doğma,
Bu ömrün doğması, yadı bilinməz.

Sərhədlər bilinər, sədlər bilinər,
Məhəbbət utansa hədlər bilinər.
Dünyada çarəsiz dərdlər bilinər-
Sevən bir ürəyin çatı bilinməz.

Sən mənim şipşirin dərdim, məlalım,
Gündüz günəşimsən, gecə hilalım.
Dolanır göyləri fikrim, xəyalım-
Göylərin yeddinci qatı bilinməz.

2002

SƏN AYRILANDA

Gedirsən... ürəyim qopur sinəmdən,
Ürəksiz oluram sən ayrılanda.
Sönür gözlərimdə arzım, diləyim-
Diləksiz oluram sən ayrılanda.

Təzə dərd gətirir köhnə muradım,
Özüm günahkaram-bəxti qınadım...
Elə bil qırılır qolum, qanadım,
Dirəksiz oluram sən ayrılanda.

Ürəyin məhəbbət yaddaşı varmış,
Gözlərə yaraşan göz yaşı varmış.
Sən demə hər anın öz yaşı varmış,
Köməksiz oluram sən ayrılanda.

Solan gəncliyimə illər qənimdir,
Ağaran saçlarım duman-çənimdir.
Səninlə bir yerdə dünya mənimdir,
Gərəksiz oluram sən ayrılanda.

2002

SƏN

Sən bir tənha ulduzsan
Göylərin göy düzündə.
Sən bir yalqız ağacsan
İlğımlar vadisində.

Sən bir qərib qonaqsan
Ürəyimin başında.
Ağlasan qəhr olaram
Gözlərinin yaşında.

Sən bir qəmli nəğməsən-
Dilimdən düşməyin yox.
Özün bir od parçası-
Alovda bişməyin yox.

Gah bahar günəşisən,
Gah bir əlçim buludsan.
Sevgilər sona yetər
Bir gün məni unutsan.

2006

MƏHƏBBƏT GÜNƏŞDİR

Bu dünya yox imiş sevgidən əzəl,
Məhəbbət günəşə çevrilib gəzər.
Cavabsız sualdır gözlərim, gözəl,
Cavab sənə qalsın, soruşmaq mənə.

Günlərin bir günü qovuşa bilək,
Sənlə qaynayıb qarışa bilək.
Küsəndə elə küs barışa bilək,
Küsmək sənə qalsın, barışmaq mənə.

Sənlə birlikdə bir gün bir andır-
Zamanı dayandır, vaxtı dayandır...
Sevən ürəyimi gəl elə yandır
Baxmaq sənə qalsın, alışmaq mənə.

1998

BU DƏNİZ DİBSİZ

Sən cavab vermədin dəli sevgimə,
Ürəkdə doğulan ürəkdə qaldı.
Boğdun bu sevdanı beşikdə ikən-
Körpə məhəbbətim bələkdə qaldı.

Donmuşdum, qəfildən gün vurdu məni-
Gözlərin yandırıb qovurdu məni...
O günlər bu günə qovurdu məni-
Son sözüm arzuda, diləkdə qaldı.

Gördüm mən atılan bu dəniz dibsiz,
(Qorxulu nağıllar olarmı divsiz?!)
Şipşirin sözlərim qaldı sahibsiz-
Necə ki arılar pətəkdə qaldı.

Qəhr olsun bu eşqin behi, bazarı,
Qalıb aramızda həsrət hasarı.
Bir addım atmadın sən mənə sarı,
Hamı cütləşəndə bir tək də qaldı.

2000

MƏNİ BAĞIŞLAMA

Məni bağışlama, mənim əzizim,
As məni eşqimin dar ağacından,
Ya da bir gəminin dor ağacından-
Yellənim, çırpılım açıq dənizə,
Əbədi qərq olum, çıxmayım üzə.

Məni bağışlama, mənim mələyim,
Bu alın yazıma düzəliş eylə,
Ömründə bir dəfə gözəl iş eylə:
Cəllad kötüyünə qoydur başımı
Qan tutsun pozulmuş qan yaddaşımı.

Məni bağışlama, mənim gözəlim,
Havayı insafa, imana gəlmə,
Səndən son məhəbbət umana gəlmə-
Güclüdür sonuncu şöləsi şamın,
Qədrini bilmərəm bu ehtişamın.

Məni bağışlama, mənim ürəyim,
Günlər aya döndü, aylar il oldu,
Alışan sinəmdə sən də kül oldun,
Əllərim çatmır ki, bir ağ buluda,
Qara gecələrdə məni ovuda...

2003

NİYƏ GƏLMƏDİN

Şirin xəyalımda bəslədim səni,
Səsim yetməsə də səslədim səni.
Bir ömür boyunca gözlədim səni,
Bəs niyə gəlmədin, niyə gəlmədin?

Dönüb yuvasına durnalar gəldi,
Sənsiz yaşamağım mənə ar gəldi.
Bəlalı başıma hər nə var gəldi,
Bəs niyə gəlmədin, niyə gəlmədin?

Qoyuldum bir dəli dərviş yerinə,
Soyuldum meşədə göyrüş yerinə,
Pıçıltın gül açan görüş yerinə
Bəs niyə gəlmədin, niyə gəlmədin?

Niyə xilaf çıxdın söylə, əhdinə,
Həsrətin çevrildi saçımda dənə.
Bu eşqin yolunda imana, dinə
Bəs niyə gəlmədin, niyə gəlmədin?

Yaşayan ruhumdur, daha canım yox,
Vəslinə yetməkçün ağ yalanım yox...
Sənsiz mən ölmüşəm-ağlayanım yox,
Bəs niyə gəlmədin, niyə gəlmədin?

2008

MƏN VƏ SƏN

Mən ki oynamıram duyğularınla,
Demirəm bağışla, ya da ki, əfv et.
Qəlbində, ruhunda varamsa əgər
İnciyən deyiləm, sən məni məhv et.

Mən kiməm, sən kimsən-hələ bilinmir,
Durmuşam qarşında bir əmma kimi.
Baş açа bilmirəm bu doğmalıqdan,
İlləri yaşadıq müəmma kimi.

Çox da ki, çox şeyə mən tələsmirəm,
Tələsən ömrümdən daha nə qaldı?
Qovuşmaq arzusu alınmayanda
Ayrılıq adında bəhanə qaldı.

Hərəmiz bir yolun yolçularıyıq,
Hardasa qovuşan yollar da bizim...
Mən sənə, sən mənə qucaq açanda
Qəfildən qırılan qollar da bizim.

Görürəm, beləcə görk edir fələk,
Taleyin görünməz görkü bizimdir.
Bütün sevgilərdən başda dayanan,
Amma başaçılmaz sevgi bizimdir.

2008

MƏN ÖLSƏM

Əzizim, bu mehri çox gördün mənə-
Boynuma dolanan qollar ayrıldı.
Düşmən də düşməsin düşdüyüm günə-
Bizim aramızda yollar ayrıldı.

Gah ümid verirsən, gah da dərd, ələm,
Çəkdiyim ağrılar havayı, əbəs.
Bəlkə istəyirsən uğrunda öləm?
Mən ölsəm bu eşqi kim yaşadar bəs?

2008

NƏDİR QƏSDİN

Alışıb yanmaq istədim,
Sənə bənzər köz tapmadım.
Yer üzündə çöhrən kimi
Mələksima üz tapmadım.

Xəyalımda yollar yordum,
Xəzan vurdu-erkən soldum.
Mən bir gizlin Məcnun oldum-
Dolanmağa düz tapmadım.

Bu da qismət, bu da yazı-
Uzun ömrün qalıb azı.
Gözlərin atəş yuvası-
Belə qaynar göz tapmadım.

Gəl sənə deyim düzünü,
Günlərim həsrət düzümü.
Bədirlənmiş ay üzünü
Vəsf etməyə söz tapmadım.

Yaşayıram bu biçimdə,
Heç bilmirəm günah kimdə.
Ölüb-getdim öz içimdə,
Bükülməyə bez tapmadım.

De, mənimlə nədir qəsdin,
Bu yaşda yolumu kəsdin?
Sən gecikdin, mən tələsdim
Niyə səni tez tapmadım?..

2006

DAĞLAR GÖZƏLİ

Bir qərib yolçuyam bu yollara mən,
Qoşulub gedirəm xəyallara mən.
Bilmirəm neyləyim bəxti qara mən,
Onsuz da köksümdə ocaq közərir,
Dağlama sinəmi, dağlar gözəli.

Daha bölünəsi payım qalmayıb,
Yaylağa çağıran yayım qalmayıb.
Bulağım quruyub,çayım qalmayıb,
Görünmə gözümə çiyni kuzəli,
Dağlama sinəmi, dağlar gözəli.

Sındırıb qəlbimi bir şüşə kimi
Niyə boylanırsan bənövşə kimi?!
Həsrətin canıma əndişə kimi
Hər gün hücum çəkər oxlu, nizəli,
Dağlama sinəmi, dağlar gözəli.

Əllərim çatmayan arzu-diləksən,
İnsanlar içində bəlkə mələksən?
Səni xəlq eləyən Tanrıya əhsən-
Rəsmini çəkibdir haqqın öz əli,
Dağlama sinəmi, dağlar gözəli.

Mən qara günümün qara daşıyam,
Ölüncə bu adı gərək daşıyam.
Kədərin dostuyam, qəm sirdaşıyam,
Ömrüm keçməyibdi meyli-məzəli,
Dağlama sinəmi, dağlar gözəli.

Göylərdən gələndir sevgi, biləsən,
Sevgi nə bəladır-sev ki biləsən...
Mən belə görürəm-sən ki beləsən
Hicrandan başlayır eşqin əzəli-
Dağlama sinəmi, dağlar gözəli.

2006

BİR DƏLİ SEVGİDƏN GÖYƏRİB DÜNYA

Sənsiz darıxıram, şükürlər olsun,
Deməli ürəyim boş deyil hələ.
Bizim qarşımızda neçə bahar var,
Payız gəlməyibdi, qış deyil hələ.

İllər toxumadır, ömür qurama,
Duzlu sözlərini səpmə yarama.
Mənə divan tutub məni arama-
Sənin ki ürəyin daş deyil hələ.

Gözlərin yol çəkir sevda düzündə,
Ay doğub, gün çıxıb nurlu üzündə.
Kədəri qıvrılan gördüm gözündə,
Bu həyat mənə də xoş deyil hələ.

Bir dəli sevgidən göyərib dünya,
Zaman dükcəsini əyirib dünya.
Qəribə dünyadır bu qərib dünya,
Sən demə yaşamaq yaş deyil hələ...

2006

SEVMƏYƏ TƏLƏS

İçinin yanğısı gözündə şölələnən,
amma «heç kimi sevmirəm» deyən bir gəncə

Ayların, illərin qısadır ömrü,
Bəzən bir baxış da uzadır ömrü.
Sevgidir insanı yaşadan həvəs-
Sevgi yaşındasan, sevməyə tələs.

Bir də baxırsan ki, ömür yarıdır-
Saçların dağların bəyaz qarıdır.
Bu gözəl illəri ötürmə əbəs-
Sevgi yaşındasan, sevməyə tələs.

Təbəssüm qonanda dodaqlarına
Gülüşün nur saçır yanaqlarına.
Sənə dediyimi deməyib heç kəs-
Sevgi yaşındasan, sevməyə tələs.

Sevəndə duyğusuz adamı sevmə,
Səni anlamayan nadanı sevmə.
Dünya sənin üçün olar bir qəfəs-
Səni sevən kəsi sevməyə tələs.

2005

GÖZƏL

Bizim bulaqlardan su içmisən sən,
Gözlərin dupduru çeşmədi, gözəl.
Qaynar baxışların yağdı üstümə,
Nə yaxşı ürəyim bişmədi, gözəl.

Dünyanı dəyişər sənintək mələk,
Duruşun şahanə, ürəyin kövrək...
Sevgi toxumu səp, eşq ağacı ək-
Qəlbim bir sevdaya təşnədi, gözəl.

Sevgidən asılıb cismani dünya,
Sevgi dünyasıdır ürfani dünya.
Kimlərə qalıbdır bu fani dünya-
Ömür dedikləri heç nədi, gözəl.

Sevən ürəyimə sinəm bir qəfəs,
Bəlkə də bu ürək çırpınır əbəs.
Səni xəyalında əzizləyən kəs
Heç sənin yadına düşmədi, gözəl.

2005

QƏZƏL

Məni atma, gözəlim, dərdlərimin dəryasına,
Qapqara saçlarımı bir gecədə qar eləmə.

İstəməm məhbəs olan külli-kainatı görəm,
Bu geniş dünyamızı aşiqinə dar eləmə.

Eşqi pünhan bilirəm, sevgimizi gizli, gülüm,
Aləmə salma səda pünhanı aşkar eləmə.

Nə günah sahibiyik, gəl bölüşək duyğumuzu,
Sevgini vergi bilib heç utanıb, ar eləmə.

Bu cahan mülkünə bax - Adil olan azdı, gözəl,
El-oba içrə məni yalvarıram, xar eləmə.

2012

BELƏ SEVƏN TAPILMAZ

Vuruldum -
Özü də ürəkdən.
Bu eşqi gəzdirirəm
Qəlbimdə qəlpə kimi.
Belə sevən tapılmaz
Şərqdən Qərbə kimi.

Qoymur bu sevgi
Əməlli duram,
Əməlli yatam.
"Qəlpəli" qəlbimin
Ehtiyacı var
"əməliyyata".

*201*1

SÖYLƏ, MƏHƏBBƏTMİSƏN

Çıx mənim canımdan yersiz məhəbbət,
Sən bir az sevgisən, bir az da şəhvət.
Bu hissin əlindən vallah dəliyəm,
Bəlkə də aşiq yox, öyrəncəliyəm.
Zirvələr dumana öyrəşən kimi,
Adamlar zamana öyrəşən kimi,
Asiman günəşə öyrəşən sayaq,
Pərvanə atəşə öyrəşən sayaq
Sənə öyrəşmişəm, sən öyrətmisən,
Söylə, bu biçimdə məhəbbətmisən?!

2011

HƏSRƏT ALOVUYAM

Günəşə yaxından baxmağa nə var,
Sənin gözlərinə baxa bilmirəm.
Çay olub ümmana axmağa nə var,
Sənin ürəyinə axa bilmirəm.

Üz-üzə gəlmişik xoşbəxtlər kimi,
Mən ki, özüm boyda hicran dağıyam.
Sən mənim qəlbimin sərbəst sakini,
Mən sənin qəlbinin yad qonağıyam.

Məni söndürməyə bil ki, gücün yox,
Həsrət alovuyam, dil-dil yanıram.
Mən sənin qoluna girmək üçün yox,
Qəlbinə girməkçün dalğalanıram.

1998

HARDASAN

Biz görmüşdük "yar qadasın yar alar",
Heç sağalmır o vurduğun yaralar…
Söylə, sənə məskən oldu haralar,
Ayazımır duman-çənim, hardasan?
Ömür keçir, ömrüm-günüm, hardasan?

Aramızda həsrət adlı bir hasar,
Mən yazmasam bu dərdləri kim yazar?
Didir məni aslan dişli intizar,
Çatmır sənə səsim, ünüm, hardasan?
Ömür keçir, ömrüm-günüm, hardasan?

Axıb gedir aylar, illər, sənələr,
Həsrət məni bir nar kimi dənələr.
Bu ayrılıq saçlarıma dən ələr,
Qəlbdə ahım, saçda dənim, hardasan?
Ömür keçir, ömrüm-günüm, hardasan?

Sən gedəli bahar gedib, qış qalıb,
Ürəyimdə isti yuvan boş qalıb.
Gözlərimdə iki damla yaş qalıb,
Heç demirsən geri dönüm, hardasan?
Ömür keçir, ömrüm-günüm, hardasan?

27.04.11

TAPŞIR GÖZLƏRİNƏ TƏK MƏNƏ BAXSIN

"Tapşır gözlərinə mənə baxmasın" deyən
bir şairə dolayı cavab

Ömrümsən, günümsən, səadətimsən,
Tapşır güzlərinə tək mənə baxsın.
Sən mənim Tanrıdan son qismətimsən,
Tapşır gözlərinə tək mənə baxsın.

Qəlb qırar bu umu, bu küsü birdən,
Sınar xəyalımın güzgüsü birdən, -
Pozular misramın düzgüsü birdən -
Tapşır gözlərinə tək mənə baxsın.

Alovdan-atəşdən yoğrulub mayam,
Gündüzlər Günəşəm, gecələr Ayam.
Eşqinlə Məcnuna, Kərəmə tayam,
Tapşır gözlərinə tək mənə baxsın.

Ömür hədər keçsə vaxtım çevrilər,
Sənsiz sultan olsam taxtım çevrilər.
Baxsan başqasına baxtım çevrilər,
Tapşır gözlərinə tək mənə baxsın.

11.01.11

POEMALAR

İŞIQ ŞƏHƏRİ

Proloq əvəzi

Burda cavanların qolları dirək,
Göylərin qatına qalxar bu şəhər.
Nur olub bir dünya işıq selitək
Uzaq şəhərlərə axar bu şəhər.

Gündüzü günəşin gözündə gələr,
İşıqdan toxunar gecəsi onun.
Çox baxsan baxışın alışa bilər -
Ulduzdan salınıb küçəsi onun.

Çəkilməz başından bahar havası,
Bozdağ əzəmətli bir sahili var.
Burda qağayının dəniz yuvası,
Burda sevənlərin Kür sahili var.

Bəzən alışanda həsrəti ilə
Onu xəyalımda yaratmışam mən.
İşığın yayılma sürəti ilə
İşıqlı qoynuna can atmışam mən.

Bu nurlu diyara ürək vermişəm,
Vətənim hikmətdir, torpağım sirdir.
Harda bir yanımlıq işıq görmüşəm,
Sanmışam bir parça Mingəçevirdir.

Bizim küçə

Düşdüm səkisinə, qəlbim qızındı,
Çaşmıram, azmıram - yol toran deyil.
Küçə elə uzun, elə uzundu
Yeddi gün yol getsən qurtaran deyil.

Ayağının altı mərmər döşəmə,
Üstü kirəmitli binaya bir bax.
Bu küçə şəhəri çəkib döşünə -
Varlığı daş olan «anaya» bir bax.

Boyuna biçilib şeir də, söz də,
Bəxtinə nə qədər toy-nişan düşüb.
Elə bil küçə yox, torpağın üstə
Göylərdən bir qatar kəhkəşan düşüb.

…Məktəb çantasından yapışan zaman
Ayaq səslərimi içib bu küçə.
Boranla, tufanla çarpışan zaman
Mənim taleyimdən keçib bu küçə.

Bizim evimizin şüşə gözündə
Ağ çiçək sayağı açanda səhər
Mənə elə gəlib dünya üzündə
Nə belə küçə var, nə belə şəhər.

Görmüşük hər naza dözür küçəmiz
Hamı dəcəlləşib, hamı kürləşib.
O qədər demişik «bizim küçəmiz»
Axırda o küçə bizimkiləşib.

Gülləyə tutmuşuq «dava-davada»,
Öz daş zirehinə bürünüb küçə.
Kağız təyyarələr uçub havada,
«Yaralı əsgərtək sürünüb» küçə.

İşıqlı gecəsi çəkib qəlbimi,
Bu nurlu küçədə nurlanmışam mən.
Düşüb orbitinə planet kimi
Min dəfə başına fırlanmışam mən.

Gecələr gizlənpaç oynamışıq biz,
Qaranlıq sirr kimi gizləyib bizi.
Göylərə baxmaqdan doymamışıq biz,
Ulduzlar sabaha səsləyib bizi.

…Avqustlu günlərin hərarətində
Böyük şəhərlərə paylanıb küçə.
Yazılıb tələbə biletimə də
Şagird dəftərimdən boylanan küçə.

…Boylanıb keçmişə mən yana-yana
Gedirəm… getdikcə uzanır küçə.
Çatıram çiçəkli bir xiyabana,
Burdaca yorulur, usanır küçə…

Açılır önümdə yeni bir səhər,
Burda taleyindən hamı razıdır.
Bu şəhər torpaqdan «göyərən» şeir,
Bu küçə o şerin şah misrasıdır!

Ulduzlarin işığında

Torpağı titrədən qədəmləriylə
Gecə növbəsinə gedir fəhlələr.
Poladdan tökülmüş bədənləriylə
Dəzgahlar dalında «bitir» fəhlələr.

Kürəklər pencəyə sığışa bilmir,
Barmaqlar əlcəyə sığışa bilmir,
Fəhlələr gecəyə sığışa bilmir -
Kəhkəşan-kəhkəşan sökülür gecə.

Aydınlıq ələnib mavi Kürə də -
Bir ulduz işarır bircə gilədə…
Polad suya dönür qaynar kürədə -
Diksinib kənara çəkilir gecə.

Tuncbilək oğullar gəlir qeyrətə,
İgidlər qovuşur əbədiyyətə.
Puçur-puçur olub dönür zəhmətə -
Fəhlənin alnından tökülür gecə.

Qullələr az qalır buluda dəyə,
Tüstü burum-burum ucalır göyə.
Qaynar qəliblərdə yanmasın deyə
Dəmir varaqlara «bükülür» gecə.

…Belə gecələrdə ərzi oyadır
Neçə qəhrəmanın qəhrəmanlığı.
Belə gecələrin yaddaşındadır
Yaqubun, Sarvanın qəhrəmanlığı.

Qoy sizə Sarvanı xatırladım mən,
Dastanlar qoşulub adına onun.

Bir ölkə nur alır «şəfəqlərindən»,
Bir şəhər qızınır oduna onun.

Arzuları coşub-daşan,
Duyğuları dağlar aşan,
Əl qabarı medallaşan
Bir qəhrəman tanıyıram.

Kəmənd atıb nur ovlayan,
«Dəli» Kürü cilovlayan,
Zülmətləri «alovlayan»
Bir qəhrəman tanıyıram…

Qoy eşitsin Mil-Muğanı,
Mil-Muğanın gündoğanı,
Səməd Vurğun qəhrəmanı
Bir qəhrəman tanıyıram.

***

Mənim bu şəhərdə tanıdıqlarım
Xalqıma, yurduma tanınıbdılar.
Mənim bu şəhərdə sınadıqlarım
Hünər meydanında sınanıbdılar.

Doğulur hər ilin öz qəhrəmanı,
İndi də yayılıb Yaqubun adı.
Bilir ki, Vətənin torpağı sanı
Torpağa borcludur Vətən övladı.

Demirəm həlimdir - qəzəbi qında -
Qalın qaşlarının çatılmağı var.
Hamı iş başında sıralananda
Bir addım qabağa atılmağı var.
Vətən məhəbbəti hopub canına,

Əlləri zəhmətin xəritəsidir.
Qatıb nəfəsinin qığılcımına
Zülmət gecələri əridəsidir.

Qəlbi alovludur, sinəsi dolu,
Elimin yolunda ürək yandırır.
Gör necə xoşbəxtdir, tutduğu yolu
Uzaq ulduzlar da işıqlandırır.

***

Boz buludlar dağılarmış,
Qaranlıqlar boğularmış,
Təzə ulduz doğularmış
Ulduzların işığında.

Zülmət nura əl açarmış,
Lal gecələr dil açarmış,
Daş-qaya da gül açarmış
Ulduzların işığında.

Kürüm mənim

Şəhəri ikiyə bölüb Kür çayı,
Dalğa qoşun-qoşun, alay-alaydı.
Körpülər çitəyib o tay-bu tayı,
Kaş bütün sahillər belə olaydı…

Bu körpə şəhərdə mənim kimim var?
Özgələr nə bilər, özüm bilirəm.
Bu çayın ömründə ömrüm-günüm var,
Qalıb dalğasında səsim, bilirəm.

…Ötən çağlarıma qayıdıram mən…
Ehey! Ay uşaqlar, sayın yüzətən.

Çayın qıjovuna girim təzədən -
Titrəməz, büdrəməz dizim, bilirəm.

Bu çayın nə şirin qılıqları var,
Bu çayın nə qıvraq qayıqları var,
Bu çayın nə əlvan balıqları var -
Eninə-boyuna üzüb, bilirəm.

Suyun hiddətindən daş oyum-oyum,
Təbiət tamaşa, təbiət oyun…
Öləndə gözümə siz torpaq qoyun -
Doymaz bu torpaqdan gözüm, bilirəm.

***

Kür çayı unudub öz kürlüyünü,
Torpaqda göyərən arzuya dönüb.
Bilmirsən haradır axarı, yönü -
O quduz dalğalar quzuya dönüb.

Uzanıb gedirdi gümüş sim kimi,
Zaman bu gedişdən saxladı onu.
İnsan cəsarəti bir tilsim kimi
Əlini-qolunu bağladı onun.

Dəli dalğaların yolu bağlanıb,
Qanrılıb geriyə baxır ləpələr.
Çayın «ölümündən» dəniz yaranıb -
Özü öz qoynuna axır ləpələr.

Hər ləpə bir evdə közərən işıq,
Nazik naqillərə sığışıb bu çay.
Üstünə elə bir körpü salmışıq
Körpülər üstündən yığışıb bu çay…

***

Sahildən bir qoca boylanır Kürə,
Titrəyir qıçları…
çəlikdən başqa
Görünür əlindən tutanı yoxdur…
Başını bulayır o gülə-gülə:
- Kürə bax, dizinin tutarı yoxdur.

Sahildə soyuqdur…
üşümür qoca
(Kimi üşüdər ki, odlu bir ölkə?)
Uşaq heyrətiylə düşünür qoca:
- Gözümə görünən yuxudur bəlkə?..

Neyləsin?
O, belə görməyib Kürü,
Torpağı əkəndə gözü dörd olub,
Sünbül su yerinə qorxu içibdir.
Bəzən də əliylə əkdiyi yeri
O, macal tapmamış daşqın «biçibdir»…

Sahildə soyuqdur… üşümür qoca,
Ötən günlərini düşünür qoca.
Qoşulub bu çayın axarına o,
Qayıdır ömrünün baharına o.

***

Kiminsə çəkdiyi bircə ah ilə
Kür yanıb, dibində daşlar un olub.
Sevənlər o qədər gəlib sahilə
Çinarlar sevişib, qol-boyun olub…

Koroğlu qoludur çinar gövdəsi -
Kökləri torpağın dərinliyində.

Yaman böyük olur çinar kölgəsi -
Bir şəhər dincələr sərinliyində.

Çinar yarpaqları yuyunar çayda,
Balıqlar yamyaşıl geyinər çayda.
Elə bilərsən ki, balıqlar deyil,
Çinarın ürəyi döyünər çayda.

Yaşıl çinarların qolları üstdə
Bəzən Kür coşubdı, Araz daşıbdı.
Bu Kürlü, Arazlı yolların üstdə
Vətən məhəbbətim çinarlaşıbdı.

Baxıram torpağı yaşıl sahilə
Gözümdə dünyanın marağı yatıb.
Baxıram…
Kür çayı bu görkəm ilə
Elə bil pələngdir marığa yatıb…

…Uzanıb gedirdi gümüş sim kimi,
Zaman bu gedişdən saxladı onu.
İnsan böyüklüyü bir tilsim kimi
Əlini, qolunu bağladı onun.

Epiloq əvəzi

Torpağın dodağı çatlayan yerdə
İndii sıralanıb gül sətir-sətir.
Dönüb bu yerlərə baxıram bir də,
Bozdağ «Yaşıldağa» çevrilib, nədir?..

Uzaqdan çağırır məni qoynuna
Şoran torpaqların yaşıl görkəmi.
Durum qollarımı salım boynuna,
Öpüm, qucaqlayım belə ölkəni.

Öpüm göy dənizin «dodaqlarından»,
Öpüm xan çinarın budaqlarından.
Özüm də işığa dönüb,
kiminsə
Asılım qaranlıq otaqlarından.

Bilim ki, kiminsə yolunda yandım,
Bilim ki, nəyinsə uğrunda yandım.
Bilim ki, közərən ulduz sayağı
Qaranlıq gecənin bağrında yandım.

Ömrümün şəfəqli səhərləri çox…
Hələ açasıyam neçə səhəri.
Dünyanın işıqlı şəhərləri çox,
Fəqət bir şəhər var - İşıq şəhəri!

1978

AYRILIQ SƏNDƏN OLDU

Rəssam dostumun keçmiş ömür-gün yoldaşına məktubları əsasında

O gün gözlərinə qan sağılmışdı,
O gün qəzəbindən əlin əsirdi.
Qəlbində bir gizli nisgil qalmışdı,
Dillənə bilmirdin, dilin əsirdi.

O gün səngimirdi odun, alovun –
Külündən köz «daman» ocaq kimiydin.
Dedim: – özünə gəl, yalvardım: – ovun…
Sənsə qana qaçan bıçaq kimiydin.

O gün mən deyənə sən inanmadın,
Yalanlar, riyalar aldatdı səni.
Necə yazıqsanmış, ay yazıq qadın,
Yalançı röyalar aldatdı səni.

O gün məni yıxdı bu dərdi-sərim,
O günüm sonuncu günüm kimiydi.
Məhəbbət ünvanlı təzə əsərim
Üstünə aldığım günü kimiydi…

Demişdin: – Duyuram incəsənəti,
Rənglərin dilini tez qanıram mən.
Demişdin: – Gəl boşla bu məhəbbəti,
Çəkmə gözəlləri, qısqanıram mən…

…Barışa bilmədim o yalvarışla,
Bağışla, əzizim, məni bağışla…
…O gün günüm batdı göyün üzündə,
Xəyala qapılmaq «xəyanət» imiş…

Sənin nəzərində, sənin gözündə
«Gözəl şəkli çəkmək» cinayət imiş…
Hər şeyə sən baxdın şübhə gözüylə,
Hər şeyi özünə bir dərd elədin.
Qohum «öyüdüylə», qonşu sözüylə
Mərdi qova-qova namərd elədin.

Bir qəfil qış qondu ömrün yazına,
Ürək sızıldadı, qəlb parçalandı.
Beləcə yön aldıq uçrum ağzına –
Qoşa getdiyimiz yol haçalandı…

Çevrilib baxmadın qorxudan əsən
Körpə balamızın göz yaşına sən.
Danışdın… istədim sözünü kəsəm,
Baxmadın ömür-gün yoldaşına sən.

Niyə unuduldu bir an içində
Beş il bir yastığa baş qoyduğumuz?
Niyə unuduldu güman içində
Ev qurub, daş üstə daş qoyduğumuz?..

Ey mənim ürəyim, bu imiş demə
Görməli dünyada görəcəyimiz.
Ey mənim taleyim, bu imiş demə
Arzudan boylanan «gələcəyimiz»…

Bir zaman mən keçən yollar içində
Ağactək «bitdiyin» yadıma düşdü.
Hicranlı-vüsallı illər içində
Tapılıb-itdiyin yadıma düşdü.

Mən səni tanıdım belə bir vaxtda –
Eşqin yalan imiş, istəyin saxta.

Sozalıb, sönməyən məhəbbət haqda
«Çıxışlar etdiyin» yadıma düşdü.

«Vuruşub» qismətin dərd səriylə sən,
Barışıb taleyin kədəriylə sən,
O «dəli» eşqinin qədəriylə sən
Leylini «ötdüyün» yadıma düşdü.

Sən «qalib gələrdin» gələn «bəlaya»,
Qış yaza dönərdi, daxma «saraya».
Əlimdən yapışıb «bir boz səhraya»
Mənimlə «getdiyin» yadıma düşdü…

***

…Bəs o gün nə idi, nə idi dərdin,
De, niyə uymuşdun haya-küyə sən?
Bir vaxt özündən çox məni sevərdin,
İndi inanırdın o sevgiyə sən?

Bir vaxt məndən ötrü keçərdin candan,
Gərəksiz sözlərin kimə gərəkmiş…
Sən çıxa bilmədin bu imtahandan -
Sevən dil deyilmiş,
sevən ürəkmiş…

Özünün özünə çatmadı gücün,
Hamar yollarını daşa saldılar.
Bir baş azlıq etdi bir bədən üçün,
Səni neçə «başlar» başa saldılar.

Bu dərddən az qaldı ürəyim yata –
Ürək daş deyil ki, dəmir deyil ki.
Baxdım həyatıma, baxdım həyata –
İnamsız yaşamaq ömür deyil ki…

Mənə iananmadın, sən inanmadın -
Yalanlar, böhtanlar aldatdı səni.
Necə yazıqsanmış, ay yazıq qadın,
Namərdlər, nadanlar aldatdı səni…

Axdı ürəyimə odlu göz yaşım,
O gün od püskürdüm yanar dağ kimi.
Sinəmə əyilib yelləndi başım
Qələbə görməyən bir bayraq kimi.

Bəli, çıxmalıydım o gün o evdən,
Əriyib gedirdim yoxsa şam kimi.
Otuza çatmayan cavan ömrümdə
Axşam görməmişdim o axşam kimi.

Bürüdü göyümü qara buludlar,
Qapqara yağışlar yağdı ömrümə.
Bilsəm də qarşıda boran var, qış var
O gün qulaq asdım tale əmrinə…

Yığışıb qapıdan çıxmaq istədim,
Tutub ətəyimdən saxladı uşaq.
Dolanıb dizimə qoymadı gedim,
Böyük adam kimi ağladı uşaq…

Qaldı gözümüzdə uşağın gözü,
Heç vədə mən belə kiçilməz idim.
Bizi birləşdirən körpə körpüsü
Xudafərin kimi keçilməz idi…

Dedin: - Nə baxırsan, apar onu da,
Mənə gərək deyil uşağın sənin…
…Ağlıma gəldi ki, elə bu anda
Biz getsək qaralar ocağın sənin…

Geriyə dönməyə yolum yox idi,
Yapışdı əlimdən ağlayan uşaq.
- Atacan, gəl gedək, gəl gedək – dedi
Bayaq «getmə» deyib saxlayan uşaq.

…Biz hara gedirdik, o axşam hara?..
Evindən çıxana ev tapılarmı?
Baxırdım həsrətlə lap uzaqlara –
Bizi gözləyirdi yad qapılarmı?

Yox, yenə doğmalar duyardı bizi,
Düşündüm üz tutaq bacım evinə;
Axı bu uşaqdır yaramın gözü,
Bəlkə bacımgildə bir az sevinə…

Məni azdırırdı hər cığır, hər iz,
Bir yol axtarırdım yolların üstdə.
Dünyadan xəbərsiz, məndən xəbərsiz
Gül qızım yatmışdı qollarım üstdə…

***

Baş çəkən bəlanın izi silinmir,
Ürəkdə ağrısı, acısı qalır.
Dar gündə dost, qohum ələnir bir-bir,
Adama anası-bacısı qalır…

…Bacımın evində qalası olduq,
Balam da o evin balası oldu.
Nə «ana» istəyib qəhərləndi o,
Nə də ki, yadına salası oldu.

Elə ki, uşaqlar məktəbdən gəlib
O qərib uşağı dövrələyərdi,

Uzaqdan baxardım mən qərib-qərib,
Gizli yaralarım qövr eləyərdi.

Başını qatmağa oyuncaq aldım,
Gözləri hər şeydən doyunca aldım…
Fırlatdı yalançı yelləncəyini,
Ağlatdı güləyən gəlinciyini.

Baxdım gözlərinə bir də çevrilib,
Mənə güvənirdi o «qərib» uşaq.
Qəfil ayıldım ki, dərdə çevrilib,
Bağrımın başında «göyərib» uşaq…

***

Bir axşam dənizi mən «verdim» ona,
Qağayı səsinə qatdı səsini.
Ləpə döyən yerdə cavan bir ana
Bağrına basmışdı öz körpəsini…

O, baxdı – gözündə sönmüş arzu-kam,
Qəlbində həyatın amansızlığı.
Mənə elə gəlir qızım o axşam
İlk dəfə dərk etdi anasızlığı…

***

Bir parça uşaq hara,
Köksündəki dağ hara?
Yer-göy tutmaz bu ahı –
Uşağın nə günahı…

Duydu olub-keçəni,
Dərdli yatdı gecəni,
Qəmli açdı sabahı –
Uşağın nə günahı?

Hanı onu yaradan,
Yapışıb yaxasından
Soruşaydım mən: – axı,
Uşağın nə günahı…

…Mən – məğrur, sən – inadkar
İkimiz də günahkar,

Günahkarıq, ilahi,
Uşağın nə günahı…

***

Gəzdi ürəyimdə o uşaq «qəlpə»,
Beləcə ömürdən günlər ötüşdü.
Anası yadına düşməyən körpə
Bir gün anasının yadına düşdü.

…Sən gəldin bir dəli hayla, harayla,
Gözlərin dönmüşdü qan çanağına.
Görüşdü həsrətli «ana» balayla…
Axdı iki damla yaş yanağına.

Buludtək tutulan görüb üzünü
Bir az doluxsunub tutuldu uşaq.
Sonra gözlərindən çəkib gözünü
Qəfildən üstümə atıldı uşaq.

Sarmaşdı boynuma sarmaşıq kimi,
Baxdım həyatıma, baxdım həyata…
Parladı gözümdə bir işıq kimi:
– Mən sənin balanam, ata, ay ata…

Dedin: – Dərs keçmisən ona yanında,
Bala anasına yaxın getməyir.

Dedim: – O körpənin damarlarında
Ana məhəbbəti axıb getməyir…

Dedin ki, körpəyə ana qucağı
Ömürlük gərəkdir bir əlac kimi.
…Qopartdın köksümdə «bitən» uşağı
Kökü bərkiməyən bir ağac kimi…

Yenə də üstümə atıldı uşaq,
Qışqırdı: – Atamın balasıyam mən.
Uzaq ol, ay ana, sən bizdən uzaq,
Atamın yanında qalasıyam mən…

Sən dedin: – İstəmə belə atanı…
O mənə sarmaşdı, Yox - istəyirəm.
…Uşaq tutmayırdı onu atanı,
Deyirdi atamı çox istəyirəm.

Şığıdın üstünə qaraquş kimi,
Keçirdin körpəni «caynaqlarına».
Çırpındı əlində bala quş kimi,
Bu yaşda yaş yağdı yanaqlarına…

Nə olar, atamla qoy qalım – dedi,
Yalvarıb dil tökdü o dilsiz uşaq.
Mənimçün bir qədir ağacı idi,
Sənincün qiymətsiz, qədirsiz uşaq…

Taleyin oyunu məni qoydu mat,
Çevrilib olmuşdum canlı bir heykəl.
Əyəndə ömür-gün, yıxanda həyat
Kişisən qalxa bil, oğulsan dikəl…

***

Siz gedəndə yanar qəlbim üşüdü,
Çöldə payız, ürəyimdə qış idi…
Mən yaxına, sən uzağa baxırdın,
Uşaq mənə, mən uşağa baxırdım.

Gözləriylə məni gəzən balamı,
Əsəbindən tir-tir əsən balamı
İsitməyən «yad qucağa» baxırdım,
Uşaq mənə, mən uşağa baxırdım.

Bu dünyada bir də çətin sevinim,
Bəndə yıxdı fələkyıxmaz evimi;
Odu keçmiş bir ocağa baxırdım,
Uşaq mənə, mən uşağa baxırdım.

Gözümdəydi son payızın sarısı,
Qızımdaydı ürəyimin yarısı,
Dəli kimi sola-sağa baxırdım,
Uşaq mənə, mən uşağa baxırdım.

Siz gedəli yol üstündə dayanıb,
O axşamın qürubuna boyanıb
Sinəmdəki çarpaz dağa baxırdım,
O uşağa, o uşağa baxırdım…

***

Beləcə yaxınkən biz olduq uzaq,
Ömürdən il boyda günlər ötüşdü.
Hayana baxdımsa o qərib uşaq
Yadımdan çıxmamış yadıma düşdü…

Bəlalı balamçün bağrım göynədi,
Xəlvətə düşəndə çox ağladım mən.

Həyatda əlinə əlim dəymədi,
Yuxuda saçını sığalladım mən…

Getdim də, gəldim də çox yerlərə mən,
Fəqət öz yerimi tapa bilmədim.
Kədər məndən qopdu, mən bu kədərdən
Ayrıla bilmədim, qopa bilmədim.

Xəyallar özünə çəksə də məni
Yerdə gəzdiyimi göydə görmədim.
Çoxları tapdığı son təsəllini
İçkidə tapmadım, meydə görmədim.

Ürəyimdə qəm közərdi -
Közümdən qaça bilmədim.
Tək balamın nəm kiprikli
Gözündən qaça bilmədim.

Tale nəhri məni uddu,
Bəxt baxmadı, dost unutdu,
Hara qaçdım kimsə tutdu
Dizimdən, qaça bilmədim…

Bulud olub yağa-yağa,
Şimşək olub çaxa-çaxa
Mən dözdüm bu ayrılığa –
Dözümdən qaça bilmədim.

Yer üzünü dolaşsam da,
Cığır salıb yol açsam da,
Baş götürüb ha qaçsam da
Özümdən qaça bilmədim.

Bu dumandan, çəndən qaçdım,
Qaçan ömür-gündən qaçdım,

Səni görüb səndən qaçdım,
Qızımdan qaça bilmədim…

***

Başladı ömrümün yalqız günləri -
Ağac da talada yalqız olmasın.
Mehriban görəsən ulu göyləri,
Ulduzdan aralı ulduz olmasın.

Pis adam qalsa da quyu dibində
Çıxanda gedəcək köhnə dəbində…
O kəslər səadət tapar evində
Yanında qaynana, baldız olmasın.

Bu dərddən düşsə də saçlarıma dən,
Bircə gün ümidsiz olmamışam mən.
O vaxt üzülər ki, əlim ümiddən
Gecənin axırı gündüz olmasın…

…Qızılgül dən-dən oldu,
Dərmədim dən-dən oldu.
Mən səndən ayrılmazdım –
Ayrılıq səndən oldu…

1983

ŞƏKİLSİZ BİLET

1943-cü ilin may ayında Ukrayna torpağının ön cəbhə xəttində komsomola keçən şair Hüseyn Arifə 18039952 saylı üzvlük biletini şəkilsiz təqdim etmişdilər. Ona görə ki, güllə «boranı», mərmi «yağışı» nə şəkil çəkənə, nə də şəkil çəkdirənə fürsət verməmişdi…

Hüseyn müəllim o bileti qanlı illərin canlı şahidi kimi saxlayırdı…

Yer yanırdı,
göy yanırdı,
Dünya tüstü-duman idi.
Günəş göydən çəkilmişdi —
Bu da belə zaman idi.

Bu da belə bir gün idi —
Günəş göydən sürgün idi…

Tutulmuşdu üfüqlərin
Qaş-qabağı, bət-bənizi.
Qanımıza susamışdı
Hitler kimi qan hərisi.

Nə gəzirdi özgə eldə
El qənimi bu «elçilər»?
«Dünya mənim olsun» deyən
Bu hikkəli hitlerçilər…

Bu torpağa tor atmaqla
Bilmirdilər tutmaq olmaz.
Yağı daman tikə kimi
Bu ölkəni udmaq olmaz.

Bu ölkənin xalqı sayda
Bu davada əsgər vardı.
Biçənəklər cəbhə idi,
Şum yerində səngər vardı.

Döyüşürdü qadın-kişi,
Döyüşürdü uşaq-cavan.
Doğma elin özü idi
Yadellini eldən qovan…

Səma təyyarə tüstüsü,
Torpaq vulkan lavasıydı.
Bu davada bizim dava
Haqqımızın davasıydı.

Döyüşürdü haqq ordusu —
Didilsə də qəlpə-qəlpə.
Qızıl ordu yayılmışdı
Şimal-Şərqə, Cənub-Qərbə.

Uğuldayan Ukraynada
Hər addımda cəbhə vardı.
Bu torpağı ram etməyə
Hələ, hələ şübhə vardı…

Döyüşürdü Ukraynanın
İgid oğlu, mərd qızları.
Uzaqlarda sayrışırdı
Qələbənin ulduzları…

Bir orduda birləşərək
Döyüşürdü neçə millət.
Amal eyni, arzu birdi —
Ötə dava, keçə zillət.

Ukraynanın qan qoxuyan
Güneyində, quzeyində
Döyüşürdü bizim elli,
Vətən oğlu Hüseyn də…

Döyüşürdü cavan şair
Doğma yurdu düşünərək.
Azərbaycan torpağının
Sevgisiylə isinərək.

Qələmini süngü edib
O, gəlmişdi atışmağa.
Belə gündə,
belə vaxtda
Vaxt yox idi söz qoşmağa.

Odlu mərmi yağışında
Sünbül vaxtsız tel olmuşdu;
Qızıl buğda zəmiləri
Güllələnib kül olmuşdu.

O, gözünün qabağına
Ana yurdu gətirirdi.
Dodağına gələn şeri
Ürəyində bitirirdi…

Bu da belə bir gün idi –
Günəş göydən sürgün idi…

Hərdən döyüş səngiyəndə
Dneprə baxırdı o.
Oxşadaraq ana Kürə
Dalğasında «axırdı» o…

Buq çayını Araz bilib
İnanmırdı körpüsünə –
Qorxurdu ki, ayaq qoysa
Çat-çat olub körpü sına.

«Cənub Ordu qrupu»nda
Döyüşürdü Vətən oğlu.
Nə çox idi yurdumuzun
Bu davaya gedən oğlu…

Ukraynanın qara tüllü
Dumanında, çisəyində
Vuruşurdu xalqımızın
Şair oğlu Hüseyn də…

Vuruşurdu Həzi kimi,
Vuruşurdu Mehdi kimi.
Qələbəni gözləyirdi
Son arzusu, əhdi kimi.

Qəlbə yaxın bu qələbə
Şirin arzu-kam olmuşdu.
Cəbhə boyu sıralanan
Evlər istehkam olmuşdu.

Oğrun-oğrun boylanırdı
Tank lüləsi, top lüləsi.
Bir ömrə bəs eyləyirdi
Qurğuşunun bir giləsi…

Əsgər qanı bələdçiydi
Qələbəyə yedən yola.
Belə gündə Hüseyni
Keçirdilər komsomola.

…Yığıncaqda yerdən qalxıb
Nitq eyləyən komandiri
Mərmilər torpaq altına
Basdırmışdı diri-diri…

Həmin günü çox əlləşdi,
Çox çalışdı şəkilçəkən —
Tüstü-duman,
güllə-boran
Qoymadı ki, şəkli çəkə…

***

…Komsomolçu biletinə
Hüseynin şəkli düşmədi.
Güləyən cəbhə dostları
Bu biletə gülüşmədi…

Bizim əsgər bilirdi ki,
Hansı yola yolçu olub -
Yüzdən biri ola bilən
İgid komsomolçu olub.

Komsomolçu olanları
Ayağından asırdılar,
Kürəyinə beşguşəli
Ulduz - damğa basırdılar…

Bizim əsgər bilirdi ki,
Ələ keçsə var işgəncə.
Düşünürdü ölüm batmaz
Komsomolçu olan gəncə…

Düşünürdü bu elləri
Qoruyum yad tapdağından,
Bircə kəlmə sağ ol qopsun
Ana Vətən dodağından…

…Səma təyyarə tüstüsü,
Torpaq vulkan lavasıydı.
Bu davada bizim dava
Haqqımızın davasıydı…

Hava barıt qoxuluydu,
Üfüqlər qan qoxuyurdu.
Döyüşçülər bir ağızdan
Bu nəğməni oxuyurdu:
«…Rossiya Velika,
Otstupat ne kuda…»

***

Gəldi zaman,
yetdi vədə -
Bayrağımız dalğalandı
Dünya görən bir zirvədə.

Qana həris hitlerçilər,
El qənimi o «elçilər»
Torpağımdan küründülər,
Başı əzik ilan kimi
Berlinəcən süründülər…

Qələbəmiz göy üzündə
Ulduz-ulduz işıqlandı.
Ölkəmizin başı üstdə
Günəş boyda işıq yandı…

O davadan nişanətək
Hər əsgər bir yara aldı.
Şair Hüseyn Arifə
Bir şəkilsiz bilet qaldı…

1985

ZİRVƏDƏ GÖL

Qırğızıstanın şimal-şərqində İssık-Kul adlanan nəhəng və əfsanəvi bir dağ gölü var. Tanrı dağlarının zümrüd qaşına bənzəyən bu göl dəniz səviyyəsindən 1623 metr yüksəkdə yerləşir. Buna görə də o, dünyanın ən yüksək dağ göllərindən biri hesab olunur. İssık-Kul qırğız dilində «isti göl» deməkdir. Qış aylarında donmadığına görə ona belə ad verilib…

Qarlı dağlar dövrəsində
Mürgüləyir göl bacımız.
Tanrı dağın zirvəsində
İssık-Kuldur göy tacımız.

Bir bu gölün rənginə bax,
Elə bil göy qurşağıdır.
O – dağların zirvəsində,
Dağlar – ondan aşağıdır.

Bir bu gölün suyuna bax,
Elə bil ki, göz yaşıdır.
Hər ləpəsi qədimlərdən
Soraq verən iz yaşadır.

Bir bu gölün boyuna bax –
Dəniz kimi dalğalanır.
İssık-Kula layla çalan
Nənni dağlar yırğalanır.

Göy sularda gül ətri var,
Dağ gölündə dağ nəfəsi.
Sehirləyir bu dağ gölü
Görüşünə gələn kəsi…

Qışda donmaz,
yayda yanmaz,

Başdan-başa möcüzədir,
İssık-Kulu saxlayan dağ
Özü boyda bir kuzədir…

Sanki mavi göy parçası –
Göy ləpələr, mavi sular.
Göl üstündə cilvələnir
Qatar-qatar qara qular.

Mən qara qu görməmişdim,
Görmüşdüm ki, qu ağ olar.
Desəydilər qara qu var,
Deyərdim ki, bu ağ olar.

İndi mən öz gözlərimlə
Üzəndə gördüm onları.
Nizam ilə qatarlanıb
Süzəndə gördüm onları.

Sanki qara boyunbağı
Düşüb gölün güzgüsünə.
Heyran oldum bu quşların
Belə sakit üzgüsünə.

Gül-çiçəkli yal-yamacın
Əlvan rəngi gölə düşüb.
Bu göl sanki bir xalçadır –
Hər rəngdən bir gilə düşüb.

Göyqurşağı rəngindədir
Dağ gölünün ləpələri.
Dalğa kəsdikcə dalğanı
Sanki rənglər səpələnir.

Gölə baxan günəşin də
Sanki gözləri qamaşır.

İşıq seli, nur çeşməsi
Bu vadidə aşıb-daşır.

Bir ürkək maral kimidir
Bu vadinin göl balası.
Bir şirin xəyal kimidir
Bu dağların gül balası.

Qarlı dağlar öyünür ki,
Zirvəsində göl «tacı» var.
Yeddi zirvə – yeddi qardaş,
Gölə dönmüş bir bacı var.

Duman keçər, bulud gələr,
Yağış yağar, dolu döyər.
Göy ləpələr öz dilində
Nələr deyər, nələr deyər…

Mən bu göldən şirin-çəkər
Hekayətlər eşitmişəm.
Uzaq-uzaq keçmişlərdən
Rəvayətlər eşitmişəm.

Qoy söyləyim birisini –
Eşitmişəm bir babadan.
Deyirlər ki, yalan olmaz
Nə eşitsən el-obadan…

Bu vadidə göl yox imiş,
Gül-çiçəkli çəmən varmış.
Bu dağların aralığı
Başdan-başa çəmənzarmış.

Yastı-yastı alaçıqlar
Qırğız-qıpçaq yurdu imiş.

Bu vadinin sakinləri
Qılıncbatmaz ordu imiş…

O illərin bir günündə
Dağ başını duman alır.
Bu obanın göy üzünü
Qara bulud yaman alır.

Qoşun gəlir qarışqatək –
Nə qoşundur, necə deyim.
Sanki vahimə gətirir
Polad qalxan, dəmir geyim.

Bu ordunun sərkərdəsi
Məğlubolmaz İsgəndərdi.
Ölkələrə qılıncıyla
Diz çökdürən igid ərdi…

«İsgəndərin ordusuna
Bata bilən ordu hanı?»
Bəli, belə güman edir
Qoşunbaşı, ordu xanı..

İki düşmən, iki tərəf
Gəlib üz-üzə dayanır.
Bu vadinin gül-çiçəyi
Al-qızıl qana boyanır.

Bu vadinin yurddaşları
Yurdu üçün candan keçir.
Yerə-yurda bu məhəbbət
Kökdən gəlir, qandan keçir…

Vətənini qoruyanın
Gücü dönür fil gücünə.

İsgəndərin gücü çatmır
Sel gücünə – el gücünə.

Tanrıdağa hücum çəkən
Haqsız ordu qana batır.
Elə bil ki, İsgəndərin
Bu döyüşdə sonu çatır.

O görəndə əsgərinin
Tapdalanan cəsədini,
Elə bil ki, alov tutur,
Alışır imanı-dini.

Sehrlənmiş qılıncını
Qəzəblənib yerə vurur.
Qılınc yarmış həmin yerdən
Göy sular fəvvarə vurur…

Hər tərəfi su bürüyür,
Su altında qalır vadi.
Deyirlər bu göl yaranır
Belə asan, belə adi…

…Söylədiyim rəvayətdir,
Nə zamansa el uydurub.
İssık-Kulsa həqiqətdir –
Mənimlə üz-üzə durub.

Əfsanələr vadisində
Ləpələnən bir göldür o.
Elə doğma gəldi mənə,
Elə bildim Göy göldür o…

İssık-kul, 1987
Qırğızıstan

QAN BORCU

Azərbaycanın azadlığı uğrunda şəhid olan yurddaşlarımızın ölməz xatirəsinə

O gecənin əvvəli

(yaxud 19 yanvar)

Uğuldayır qədim Bakı –
Meydan tutmur izdihamı.
Bir qəzəbdən yoğrulubdur
Bu şəhərdə indi hamı.

Baxışlarda kədər eyni,
Ürəklərdə zillət birdir.
Dərd insanı birləşdirir –
Bu günlərdə millət birdir.

Nədir dərdi bu millətin? –
Doğma torpaq əldən gedir.
Zaman-zaman görmüşük ki,
Hər nə gedir, eldən gedir.

Zaman-zaman görmüşük ki,
Torpağımız kiçilməkdə;
Yurdumuz yad arşınıyla
Ölçülməkdə biçilməkdə.

Zaman-zaman görmüşük ki,
Əllərimiz daş altında.
Öz işini yaxşı görüb
Pərqu balış baş altında…

Bu da bizim Ana Torpaq,
Bu da bizə düşən dəniz.
Göz dağımız göz önündə –
Bu deyilmi xəritəmiz?...

Bu deyilmi Azərbaycan –
Ərdəbili, Zəncanı yox.
Bu deyilmi Azərbaycan –
İki candır, bir canı yox.

Əlim çatmır Təbrizimə,
Dərbəndimdən dərbədərəm.
Aman, Allah, mənim deyil
Mənim olan dağım, dərəm.

Nə günahın sahibiyəm –
Mənim deyil mənim olan.
Yad deyil düşmən kəsilən,
Mənəm mənə qənim olan.

Vallah, billah özgələrdən
Yoxdur mənim umu-küsüm.
Özüm özgə ola-ola
Özgəsindən umum, küsüm?

Mənəm hərrac bazarında
Tərəziyə torpaq qoyan.
Öz başına ləçək örtüb,
Yad başına papaq qoyan…

***

Qarabağa tor atıblar,
Yazıq millət əlhəşirdə.
Yuxarılar, aşağılar
Ayrılır da, «birləşir» də.

Mikrofonla bağırırlar –
Xalq inanmır bu birliyə.
Mükafatlar ayırırlar
«Təmkinliyə», «səbirliyə».

Ürəklərdə torpaq eşqi,
Ürəklərdə yurd sevgisi.
Damarlarda coşub-daşır
Müqəddəs Qorqud sevgisi.

Qarabağdan qanadlanan
Qan qoxulu xəbər gəzir.
Bu tələdən çıxmaq üçün
Xalq özünə rəhbər gəzir.

«Daha bəsdir bu fəlakət –
Qaçqın olduq, köçkün olduq.
Harayımız hara çatdı?
Hamı üçün heç kim olduq…

Daha bəsdir bu rəzalət –
Yaşamırıq, sürünürük.
Dədə-baba torpağından
Bir gecədə kürünürük…

Daha bəsdir bu cinayət –
Hanı bizim qeyrətimiz?
«Cəngi»miz var cəngə çıxaq,
Qoy çalınsın «Heyratı»mız…»

Belə deyir qəzəbli xalq,
Belə deyir dərdli millət.
Uzaq torpaqlardan gəlir
Torpağıma bu xəyanət.

Xəyanətin qabağında
Susmaq özü xəyanətdir.
Babamızdan qalan torpaq
Nəvəmizə əmanətdir.

Qarabağın hər qarışı
Ruhumuzun vətənidir.
O – çırpınan bir ürəkdir,
Azərbaycan – bədənidir.

Qoparsınmı yad caynağı
Bu bədəndən bu ürəyi?
Gözləyirik axı kimi,
Gözləyirik axı nəyi?..

Ana Yurdu qorumağa
Son məqamda süpər hanı?
Damarında YURD sevgisi
Axıb gedən rəhbər hanı?..

Xalq yığışır bir meydana,
İnsan dönüb ümman olur.
Alovlanıb coşan nifrət,
Daşan hiddət yaman olur.

Dərd – dözülməz, qəm – ağırsa,
Köksümüzdən qan axırsa,
Buludlardan gün doğursa,
O günümüz duman olur.

Danışmağa söz qalanda,
«Barışmağa» üz qalanda,
Millət çarəsiz qalanda
Şərdən xeyir uman olur.

Yurd yerimdə evlər yanır,
Göy tərpənir, yer fırlanır,
Tarix yenə təkrarlanır –
Ürəklərə daman olur…

Bayrağımın Ay-Ulduzu –
Azadlığın dadı, duzu.
Allah, bu yol necə uzun,
Mənzilim nə zaman olur?

***

Qarabağdan qanadlanan
Qan qoxulu xəbər gəzir.
Bu tələdən çıxmaq üçün
Xalq özünə rəhbər gəzir.

Uğuldayır dolu meydan,
Aşıb-daşır insan seli.
Xalq istəyir xilas edə
Ana yurdu, doğma eli.

Bir qəzəbdən yoğrulubdur
Bu meydanda indi hamı.
Kimsə quldur adlandırır
Bir milyonluq izdihamı.

Kimsə görüb din bayrağı
Çadraya qaytarır bizi.
Sıramızı sürü bilib
Qoyuntək otarır bizi.

Xəbər tutan Mərkəz buna
«Siyasi çevriliş» deyir.

(Bir nəfərin «çevrilməyi»
Siyasi çevriliş deyil…)
Xalqın səsi – haqqın səsi,
Bunun başqa bir rəngi yox.
Çevirməyə, devirməyə
Xalqın topu, tüfəngi yox…

Adımıza yazılanlar
Aman, Allah, daha nəymiş?
Nə biləydik qan tökməyə
Bütün bunlar bəhanəymiş…

O gecə

(yaxud 19-20 yanvar)

«Ordu Bakıya yeridilərkən konstitusiya qanunları pozulmuş, Azərbaycan Respublikasının suveren hüquqları vəhşicəsinə tapdalanmışdır…»
Qəzetlərdən

Yavaş-yavaş şər qarışır,
Yenə də qaynayır şəhər.
Demə özündən xəbərsiz
Od ilə oynayır şəhər.

Bu şəhərin yollarını
Kəsibdir insan «hasarı».
Başbilənlər başa düşmür
Nədir millətin azarı.

Nədir canlı «barrikada»,
Nə istəyir körpə, uşaq.
Toplaşıblar topa-topa,
Ortalıqda yanır ocaq…

Bu şaxtalı qış gecəsi
Bu adamlar üşümürmü?
Hara çəkir xalqı bu yol,
Görən kimsə düşünürmü?...

Bəli, bəli tədbir töküb
Düşünən var, daşınan var.
O gecənin zülmətində
Yaraqlanıb yaşınan var.

Nə biləsən başımıza
Yağmağa qurğuşun gəlir.
Qanımıza yerikləyən
Poladpaltar qoşun gəlir…

***

Tırtılların səsi yaxın…
İşıqlanır qara gecə.
Kimsə bilmir tank «karvanı»
Hardan gəlir, hara keçə.

Biz görmüşdük bu tankları,
Bu zirehli maşınları.
Görməmişdik qana həris
Bu əcayib qoşunları.

Çəhrayıya çalan sifət
Birgünlükdən qan-qan deyir.
Yazıq insan beləsinə
Nə ürəklə insan deyir?

Bu pələnglər pəncəsindən
Qurtulmağın çarəsi yox.

Yox, yox, onlar əsgər deyil –
Beləsinin anası yox…

Tez bölünüb dəstələrə
Yırtıcılar halay vurur.
İşıqsaçan odlu güllə
Qaranlığa qalay vurur…

Fəryad qopur gecəyarı,
Qaranlıqda qan tökülür.
Ağacdan yarpaqsayağı
Torpağa insan tökülür.

Yolda ocaq qalayanın
Qəfildən ocağı sönür.
Bir gecədə neçə ömrün
Qaynar gənclik çağı sönür.

Qardaşını itirən kim,
Yoldaşını itirən kim.
Bu qırğına inanmayıb
Öz başını itirən kim.

Haray çəkən adamları
Ağır tanklar əzib keçir.
Silahsız «yolkəsənləri»
Tırtılıyla kəsib keçir.

Güllələyib söndürürlər
İşıq saçan qəndilləri.
Sönmüş ocaq yerlərində
Ləpələnir qan gölləri.

Süngülərə keçirirlər
Qocaları, körpələri.

Xalqımın yol çəkən gözü
Görməliymiş gör nələri…

***

Göz açandan gözümüz yaş –
Bu dünyada nələr gördük.
Haqsızların pəncəsində
Haqqımızı mələr gördük.

Mənim kölə taleyimdə
Dərdimin ən ağırı – bu.
Azadlığa gedən yolun
Aqibəti, axırı – bu.

Kimdir mənim mənliyimi
Bu gecə sınağa çəkən?
Üzüyumşaq millətimi
Sola çəkən, sağa çəkən?

Kimdir mənim kürəyimi
Hədəf seçən, nişan edən?
Şəhərimin göylərini
Belə atəşfəşan edən?

Bir ölkədə biz biriksə
Axmayaydı bu qan gərək.
Bir gün sonra çıxmayaydı
Fövqəladə fərman gərək…

Ay-Ulduzu görən cəllad
Bayrağımı al-qan edir.
Qoşun «borcunu ödəyib»
Bizi qana qəltan edir.

Güllə yağır yağış kimi,
Evlər deşmə-deşmə olur.
Ahıl, uşaq, qadın, kişi –
Hamı dönüb «düşmən» olur.

Gülərüzlü bir millətin
Göz yaşları gilələnir.
Küçələrə çıxmayanlar
Öz evində güllələnir.

Haray çəkən yaralılar
Gah sürünür, gah dururlar.
Meyidləri odun kimi
Maşınlara doldururlar.

…Dilim gəlmir «meyid» deyəm
O gülüzlü cavanlara.
Dilim gəlmir «şəhid» deyəm
Açılmamış solanlara…

Yandırırlar ölənləri
Bu da təzə bir fənd olur.
Qaranlıqda doğma tüstü
Göy üzünə büləndolur.

Ölənlərə od vurmaqla
Qanlı quzğun iz itirir.
Düşünürəm… insanlığı
İnsan necə tez itirir…

Yaddan çıxır bir ölkənin
Süfrəsində çörək kəsmək.
Yaddan çıxır cəbhələrdə
«Qardaş» deyib kömək gəzmək.

Yaddan çıxır neftimizin
Tankları tərpədən səsi.
Yaddan çıxır o davada
Azərbaycan qələbəsi.

Yaman günə qoyub bizi
Elə belə yaxşılığım.
Bu gün məni kül eyləyir
Mənim kölə yaxşılığım.

Öyrəşmişəm itaətə,
Öz əlim, öz başım hanı?
Öz elində, öz yurdunda
Bir azad yurddaşım hanı?

«Torpaq» deyən torpaq olur,
Yurdu sevən yurdsuz qalır.
Axı necə od oğluyuq –
Ocağımız odsuz qalır?..

Azadlığa gedən yolum
Gəlib çıxır bu gecəyə.
Alovlanıb yer-göy yanır –
Millət düşür əsməcəyə.

***

Dirigözlü şəhidləri
Başqa səmtə döndərirlər.
Dənizdə «dəfn» etmək üçün
Gəmilərə göndərirlər.

Sağ qalanlar sürünürlər
Kolun-kosun arasına.
İnildəyən yaralılar
Məlhəm gəzir yarasına.

İşıq düşür… uzaqlardan
Ağ bayraqlı həkim gəlir.
«Qadağandır tibbi yardım» -
Güllələnir hər kim gəlir…

Yaralıya əl atana
Bu vəhşilər güllə atır.
Məni məndən «qoruyanlar»
Asıb-kəsir, qırıb-çatır.

«Bərpa edir asayişi»
Bu tökülən qan üstündə.
«Təzə ilim» gəlib çıxır
Bir təzə fərman üstündə.

***

Neçə-neçə xəstəxana
Doludur ağzına kimi.
Həkimlər göz yaşı töküb
Ağlayırlar ana kimi.

Əldə duruş gətirməyib,
Tİtrəyir cərrah bıçağı.
Yaşamaqdır yaralının
Bu bıçaqdan umacağı.

«Yaralıyam yatmaram,
Aya kəmənd atmaram.
Mən yaralı görmüşəm,
Yaralı oyatmaram».

Yardım edən maşınların
Biri gedir, biri gəlir.
Qan çilənmiş xərəklərdə
Ölü gəlir, diri gəlir…

Son nəfəsdə «Vətən» deyib
Gözlərini yumana bax.
Allah, göydən yerə enib
Dizə çıxan bu qana bax…

Birisinin sağı yoxdur,
Birisinin solu yoxdur.

Birinin qolu özgənin,
O birinin qolu yoxdur…

Ana yurdum, öz balanı
Bu görkəmdə tanı indi!
O gülüzlü cavanların
Hanı indi, hanı indi?..

…Dəhlizdə növbəyə durub
Yaralıya qan verən kim.
Son ayaqda son sözünü
Söyləmədən can verən kim…

Əldə duruş gətirməyib
Titrəyir cərrah bıçağı.
Yaşamaqdır yaralının
Bu bıçaqdan umacağı.

Söndürürlər işıqları
Göz gözü görməsin deyə.
O gecə şam işığında
Davam edir cərrahiyyə…

***

Bir gündə bələd olduq
Həyatın hər üzünə.
Gedənlərin yerinə

Təzə insan gəlirdi
O gecə yer üzünə.

O gecə doğulanın
Oğlan idi hamısı.
Gülləbaran altında
Doğulurdu elə bil
Bu torpağın namusu.
Analar körpəsinə
«Şahid» adı qoyurdu.
Beləcə ölmək üçün
«Şəhid» adı qoyurdu…

***

Yüz illər ağladan Füzuli babam
O gecə dözməyib özü ağladı.
Oxudum şerini təsəlli tapam,
Yaralı Sabirin sözü ağladı.

«Fitneyi-iblisi-məlunu» gördük,
Qətlimə fərmanda qolunu gördük.
Azadlıq, aşkarlıq yolunu gördük –
Şərqin gülümsəyən gözü ağladı.

Eşidib xalqının bu naləsini
Təzədən soyuldu sanki Nəsimi…
O gecə içinə çəkib səsini
Heykəl babalarım bizi ağladı…

O gecənin səhəri

(yaxud 20 yanvar)

Əriyir qara gecə,
Az qalıbdır səhərə.
Fövqəladə fərman var –
«Çıxmaq olmaz şəhərə».

Adamlar öz dərdini
Bölməyəmi tələsir.
Yoxsa canından keçib
Ölməyəmi tələsir?

«Dayan» deyir əsgərlər,
Dayanmayıb el axır.
Hardasa «göl» olmağa
Elə bil ki, «sel» axır.

«Çıxmaq olmaz şəhərə»,
Hara gedir bu axın?
Qanımızla yuyulan
Küçələrə bir baxın.

Çəkilməyib havadan
Hələ barıt qoxusu.
Güllələnib bu gecə
Bu şəhərin yuxusu.

Parçalanıb səkilər,
Ağaclar kökdən çıxıb.
Tanklar yeri şumlayıb
Elə bil ləkdən çıxıb.

Qanlı yollar boyunca
Səpələnib gilizlər.
Bu nəmərd gülləsindən
Solub neçə gül üzlər.

Kimin isə son sözü
Qanla yazılıb yola:
«Siz Allah qanımızı
Qoymayın yerdə qala…».

Şəhidlərin ayağı
Dəyən yerdə gül bitib.
Harda ki qan tökülüb
Orda qərənfil «bitib».

Abşeronun gülləri
Ayaq açıb şəhərə.
Qərənfillər ağlayır
Bu qaranlıq səhərə.

Asfaltın qara üzü
Qızarır tala-tala.
Bir dəli fəryad qopur:
- Anan ölsün, ay bala…

Ağı deyən o ana
Qara bulud parçası.
Daha bağlı qalacaq
Oğlunun toy boxçası…

«Əzizim, birdi narım,
Bir dinim, bir dinarım.
Əsmə, sabah yelləri –
Ağacda birdi narım…».

***

Yurda sevgi yurd yerinin
Torpağında, daşındadır.
Haray çəkən fağır ana,
Oğlun neçə yaşındadır?

Varmı onun günahı, de?
Buna qeyrət sınağı de…
Ana yurda sən ağı de –
Düşmən ocaq başındadır.

Tək qalmışıq, Allah, təkcə,
Bu dərd yalqız, bu ah təkcə.
Elə bilmə günah təkcə
Bu qaniçən qoşundadır…

***

Bu fələyin qəfil gələn
Xətasından aman-aman.
Yuxumuzu qarışdıran
«Butasından» aman-aman.

Çağıran var: «Gəl, hürriyyət,
Xalqım sənsiz çəkir zillət…».
Ad çıxaran belə millət
«Atasından» aman-aman.

O deyilmi vaxtsız daşan,
Hərdən pələng, hərdən dovşan.
Bizi quyruqlara qoşan
«Modasından» aman-aman.

Qaç bu millət «öncülündən» -
Zəhər damır əncirindən.

Beləsinin zəncirindən,
«Xaltasından» aman-aman.

Ağlı dizdən olanların,
Dərdi üzdən olanların,
Sapı bizdən olanların
Baltasından aman-aman…

Haqqa bayraq nəyimiz var? –
- Ay-Ulduzlu göyümüz var…
Bu torpaqda bəyimiz var,
Gədasından aman-aman.

***

Millət axır bir meydana
Bu meydan o meydan deyil.
Yurd boyanıb nahaq qana –
Bu meydan o meydan deyil.

Oğul gəzən ana qaçır,
Qara bayraq qanad açır…
Beyni qanlar qana qaçır –
Bu meydan o meydan deyil.

Qoşun tutub dörd tərəfi,
Oğulsan aç bu «kələfi».
Hanı bizi çalan əfi –
Bu meydan o meydan deyil.

Görünməyib belə dağlar –
Kim insanı belə dağlar?..
İnanmazdım millət ağlar –
Bu meydan o meydan deyil.

Aramızda var qara əl,
O əllərdən gəlir əngəl.
Dayan, qardaş, özünə gəl –
Bu meydan o meydan deyil.

Gələn yoxdur gedənlərdən,
Xəbər yoxdur itənlərdən.
Nə qalıbdır ötənlərdən?
Bu meydan o meydan deyil.

***

Tanklar gəlir – bu qəzəbli
İzdihamı dağıtmağa.
Havalanmış «cəngavərlər»
Atəş açır sola, sağa.

Bax, bu zaman bir nəfər də
Öz yerindən tərpənməyir.
Kişiləri kişi görüb
Qadınlar da ürpənməyir.

Tanklar, toplar bu millətin
İnadını qıra bilmir.
Mənliyini nişan alıb
Vüqarını vura bilmir…

Geri dönür tank «karvanı»,
Vaxtsız ölüm aralanır.
Bu imtahan meydanında
Yenə kimsə yaralanır…

Davam edir sərt nümayiş –
Güllə batmır sıramıza.
Azadlığı axtarırıq –
Məlhəm olsun yaramıza…

***

Azadlıq! Mən səni başımın üstdə
Günəşə çevrilib güləndə gördüm.
Azadlıq! Mən səni şirin yuxuma
Dəvətsiz qonaqtək gələndə gördüm.

Azadlıq! Mən səni öz torpağımda
Özümü məhbəsdə biləndə gördüm.
Azadlıq! Mən səni göz yaşlarımı
İşıqlı güllələr siləndə gördüm.

Azadlıq! Mən səni qan borcu kimi
Xalqıma paylayıb, böləndə gördüm.
Azadlıq! Mən səni görə bilmədim,
Görə bildimsə də öləndə gördüm…

Dünya bizdən danışırdı

(yaxud 20-21 yanvar)

Dünyaya səs yayılmışdı,
Dünya bizdən danışırdı.
Qazancımız – qara bayraq,
İtkimizdən danışırdı…

«Bi-bi-si»yə, «Ey-bi-si»yə,
«Azadlıq»a qulaq asan
Bilirdi ki, bu cəfanı
Çəkə bilmək deyil asan…

Şərq ağlayır, Qərb gülürdü
Bəxtimizə düşən paya.
Qırğınımız təsəlliydi
Elə bil ki, Avropaya.

Müsəlmanıq – günahkarıq;
Milyard yarım sayımız var.
Buş xoflanır, Tetçer qorxur –
Planetdə payımız var…

…Okeanın o tayında
Əl çalırdı Amerika.
Uca-uca kürsülərdə
Alçalırdı Amerika:

Ağ ev qara günlərimi
Çapan çalıb alqışlayır.
«Bundan sonra» Qarabağı
Ermənіyə «bağışlayır».

Bu «cənablar» yoxsa bizi
Zənci bilir, qara bilir.
Qarabağı «bağışlayan»
Bu torpağı hara bilir?..

Okeanın o tayında
Torpağımız parçalanır.
Günümə bax, aman, Allah,
Qəm üstünə qəm calanır…

Dalğalarda dərdimizə
Ortaq olan axtarırıq.
Qana qəltan haqqımıza
Bayraq olan axtarırıq.

Bir səs gəlir, doğma bir səs:
«Danış, bacım, de, qardaşım…».
Bu doğmalıq harayından
Yan, ürəyim, ax,göz yaşım…

Bakımızın «dili» yoxdur,
Danış, danış, Mirzə Xəzər.
Mlyonlara sənsən doğma,
Sənsən tanış, Mirzə Xəzər.

Dirigözlü şəhidləri
Gəmilərə yüklədilər.
Danış, qardaş, tək qalmışıq –
Bizi yaman təklədilər…

İtkinlərə gor olandan
Baxa bilmir bizə Xəzər.
Danışmağa dilimiz yox,
Danış, danış, Mirzə Xəzər.

«Qu» desən qulaq tutular,
Sorağımı hardan alım?
Bu milləti bu quyunun
Dibindən çək, qadan alım…

Danış, danış, Mirzə Xəzər,
Dağlar boyda dərdimi de.
Bu cəfanı, bu zilləti
Çəkən bir xalq nərdimi, de?

***

…Dalğalarda səsimizə
Səs verənlər çoxalırdı.
Qürbət elli həmvətənlər
Danışdıqca yuxalırdı.

Pərən-pərən Azərbaycan
Səsimizə səs verirdi.
Uzaqlardan gələn bu səs
Bizə can, nəfəs verirdi…

Matəm günü

(yaxud 22 yanvar)

Azalıb dünya işığı –
Yer qaradır, göy qaradır.
Bayraq – qara, insan – qara,
Allah, bu yerlər haradır?..

Bu dünyanın harasında
Belə matəm, yas olubdur?
Qəfil düşən qaranlıqda
Bakı tanınmaz olubdur.

Qırmızı tabutlar üzür
Qapqara «ümman» üstündə.
Qərənfillər qan ağlayır
Günahsız insan üstündə.

***

Fağır ana, öz oğlunun
Gəl son dəfə boyuna bax.
Toysuz gedən tək balanın
Millət gələn «toyuna» bax…

Ağlama ki ağrın qalır,
Paralanmış bağrın qalır…
Gör nə qədər oğlun qalır –
Sən bu xalqın sayına bax.

Bu qırğını hara yozaq,
Haq divanı gözdən uzaq…
Nə udduq ki, nə uduzaq –
Ulu tanrım, oyuna bax…

***

Haray çəkir Şeyxül-islam,
Əzan verir müəzzinlər.
Ağlar görüb milyonları
Vətən ağlar, torpaq inlər:

«Əzizinəm yasa bax,
Bülbül ağlar – yasa bax.
Dərd məni öldürəcək –
Ya bu gündür, ya sabah…»

Göy Xəzərdən göyə qalxır
Gəmilərin «iniltisi».
Şəhidləri olan xalqın
Var sabahı, var indisi.

Qırmızı tabutlar üzür
Qapqara «ümman» üstündə.
Bu küçələr görməmişdi
Bu qədər insan üstündə.

Hara axır bu «qara çay»,
Nə qalıbdır son mənzilə?
Dağüstü park – məzarıstan
O nəsilə, bu nəsilə.

Yetmiş ildir şəhid olan
Babamızın ruhu burda.
Azadlığa gedən yolda
İtənimin çoxu burda.

Parka dönən bu torpağın
Altı məzar, üstü meşə.
Qurumadı ağacları –
Ya rəb, necə dözdü meşə?..

Şəhid baba, şəhid nəvə
Qovuşurlar bir torpaqda.
Düşünürəm… belə «görüş»
Görən varmı hər torpaqda?

Bu qış günü yaza dönür
Ruzigarın sərt havası.
Təbiəti dəyişdirir
Qəm göynəyi, dərd havası.

***

Daha bəsdir bu göz yaşı,
«Ayağa qalx, Azərbaycan!».
Səni belə yandıranı
Yandırıb yax, Azərbaycan!

Dərd üstündə köklənmisən,
Qəm şələsi yüklənmisən.
Parçalanıb təklənmisən –
Taleyə bax, Azərbaycan!

Unut «dostun» vəfasını,
Dağıt ilan yuvasını…
Döy haqqının davasını –
Haqqa bayraq Azərbaycan!

İgidlərin qəfəsdədir,
Sürgündədir, məhbəsdədir.
Kim yaralı, kim xəstədir-
Yoxdur soraq, Azərbaycan!

O qandırmı nar bağında,
Rəngi qandır yarpağın da…
Qonaqpərvər torpağında

Özü qonaq Azərbaycan…
Niyə gəldi köç günləri,
Niyə gördün köçkünləri?
Taleyindən küskünləri
Solğunyanaq Azərbaycan.

Bu dərdlərə nər dayanmaz,
Pələng dözməz, şir dayanmaz.
Yurd yerində bir də yanmaz
Sönmüş ocaq, Azərbaycan!

Qartalları qalxıb, enən,
Bəxt ulduzu yanıb, sönən,
Bir gövdədən şaxələnən
Milyon budaq – Azərbaycan!

Xalqın sənə qan borcu var,
«Can» deyənə can borcu var,
Son beşiyə son borcu var,
Ana torpaq – Azərbaycan!..

Şəhidlər Xiyabanı

(yaxud and yerimiz)

Dağüstü park - dağdan ağır
Dərdi-sərin xiyabanı.
Dağüstü park – dağ çəkilən
Şəhidlərin xiyabanı.

Bu torpağın şəhidləri
Ən uca torpaqda yatır –
Bakımızın başı üstdən
Bizə baxan dağda yatır.

Dağüstü park – and yerimiz,
Axı-axın gəlin bura.
Öz eşqinə and içməyə
Gəlsin bəylə gəlin bura.

Burda keçsin «tarix» dərsi,
Bu gün burda sabahlansın.
İllər boyu gecikmişik,
Zaman burda qabaqlansın.

Üzümüzə doğan günəş
Doğur burda, batır burda.
Azadlığa gedən yolun
Yolçuları yatır burda…

Qərənfillər qucağında
Xalqa dayaqlarım yatır.
Yurdun yaşıl bucağında
Ruhu oyaqlarım yatır.

«Yük üstündə pərdə mən,
Qəfil düşdüm dərdə mən.
Yazıq canım cavandır –
Necə yatım yerdə mən?..».

Bu xiyaban heykəlləşən
Müqəddəslik məbədiymiş.
İlham ilə Fərizənin
Məhəbbəti əbədiymiş…

On üç yaşlı Larisanın
Baxışından nur tökülür.
On dörd yaşlı İlqarımın
Üzündən qürur tökülür.

Şəhidlərin cavanı var,
Qocası var, körpəsi var.
Azadlığa \gedən yolun
Demə «şəhid körpüsü» var…

Dağüstü park – gözümüzün
Qabağında göz dağımız.
Dağüstü park – özü boyda
Bir azadlıq bayrağımız…

İyul - 1990

«KÖLGƏSİZ» ŞÖHRƏT

Şan-şöhrətli,
Ər qeyrətli
Ata öldü.

Sözü ötkəm,
Özü möhkəm
Ata öldü.

Adlı-sanlı,
Şair qanlı
Ata öldü.

Qəlbi köyrək,
Dostu seyrək
Ata öldü.

Çatmaqaşlı,
Ata yaşlı
Ata öldü.

***

Ölümündən bir gün sonra
Yurda qalan tək oğlunu,
«Ata» deyib ağlamaqdan
Üzülmüş kövrək oğlunu

Gözündə yaş qurumamış,
Üzündə qəm qarımamış,
Çağırdılar,
Bağırdılar:
- Ərizə yaz,
İşləmirsən,
Belə olmaz…

…O duruxdu,
O, karıxdı –
Havalanıb başdan çıxdı…
Axır yazıb bir ərizə
«Öz xoşuyla» işdən çıxdı…
…İş dalınca süründü o,
Bu aydan o aya qaldı.
Düşmənləri bir tərəfə,
Atasının «dostları» da
Neçə yerdə, neçə dəfə
Onun üstə ayaq aldı…

Üzü üzlər gördü onun,
Gözü gözlər gördü onun.
Ağacın son yarpağıtək
Saralıb titrədi oğul.
Çatmadı ata əlləri –
Atasız büdrədi oğul,
Arxasız büdrədi oğul.

Yıxılıb, durub, yeridi,
Yolları yarıb yeridi.
Bir də gördü çatdığı yer
Hər şeyin qürub yeridi.

İnsanlığın dan yerində
Yaxşı-yaman batabatda,
Arzu-güman batabatda.
Həyat boyu bilməmişdi
Nələr vardır bu həyatda…

O,duruxdu,
O, karıxdı…
Köks ötürdü keçmişinə,
İnildədi indisinə,

İsinmədi bircə kəsin
Ürəyinin istisinə…

Bir vaxt üzündən öpənlər
Üzünü çevirdi yana.
…Ürək dönür, üz çevrilir
Lazım gəlsə bircə ana…

O, alışdı için-için:
Ax, bu üzüdönükləri,
Qalstuklu kötükləri
Duymamışam mən nə üçün?..

Buz bağlamış ürəyindən
Qara qanlar axdı onun.
Xəyalının üfüqündən
Son gümanı baxdı onun…

Oğul getdi atasının
Axırıncı iş yerinə…
Onu taleyi gətirdi
Bu qəmli görüş yerinə…

Atasının stulunda
Əyləşən özgəsi idi…
Bu ki mərhum atasının
Bir zaman kölgəsi idi…

«Kölgə» başını qaldırıb
Soruşdu: - Nəyə gəlmisən?
Bir sözün var bəlkə bizə,
Dillənsənə, heykəlmisən?..

…Bu «sazaqlı» sözdən sonra
Söz demədi sözlü oğul.

«Öz içində dəfn olundu» -
Öldü dirigözlü oğul…

Görünməyən bu «ölümü»
«Kölgənin» gözü görmədi.
Bir ölkə şöhrəti olan
Atanın tək övladını
Ölkənin gözü görmədi…

İnsanların arasında
Dərdli oğul yalqız oldu.
Çox boylandı, bu qübbədən
Görünməyən ulduz oldu…

O, çırpındı çıxammadı
Sıldırımlı yoxuş yolu.
Bildi ki, bu yoldan özgə
Dünyasında yoxmuş yolu…

Bozarmış üzlərdən qaçıb,
Qızarmış gözlərdən qaçıb,
Tikanlı sözlərdən qaçıb,
Qürub çağı yana-yana
Gəlib çıxdı qəbristana.

Qucaqladı atasının
Buzdan soyuq başdaşını.
Ürəyinin leysanıtək
Səpələdi göz yaşını.

Duz damcılı bu «yağışda»
Yuyunub islandı məzar.
(Quruca daş, torpaq deyil –
İnsançün insandı məzar.)

Qəfildən o daş məzara
Elə bil ki, nəfəs gəldi.

Daş üzlü torpağın altdan
Qulağına bir səs gəldi…

Bu səs ata səsi idi,
Bu səsi səslədi oğul.
Səsə dönmüş atasını
Həsrətlə gözlədi oğul.

Bu doğma səs səs-səmirsiz
Torpaqdan «göyərib» çıxdı.
Oğlunu ağlayan görüb
Görüşünə gəlib çıxdı…

Səs danışdı, dedi: - Oğul,
Bica yerə ağlama heç.
Şöhrətimi «xərcləməyi»
Sən gətirmə ağlına heç…

O şöhrəti sən yaşda mən
Qabar-qabar,
Damar-damar
Əllərimlə qazanmışam.
Döyüş dolu aylarımla,
İllərimlə qazanmışam…

Atam kasıb kəndli olub –
Kasıbın şan-şöhrəti nə?
Göz dükmişəm mən atamın
Axı hansı şöhrətinə?

Hansı şöhrətin kölgəsi
Çatdırıb şöhrətə məni?
Mərdanə ol, göz yaşınla
Gətirmə heyrətə məni.

Bu dünyada şan-şöhrəti
Özün qazan, özün, oğul.

Səndən şöhrət gözləyirəm,
Canım oğul, gözüm oğul…

***

…Səs yox oldu səs-səmirsiz,
Sanki qəbristan dəyişdi.
Təzələndi miskin oğul –
Damarında qan dəyişdi…

Yerdən qalxıb yeridi o,
Qaranlığı yara-yara.
Kişi kimi üz tutdu o,
İşıq gələn uzaqlara…

1983

DƏDƏ OCAĞININ ODQORUYANI

Kəlbəcərin qara günlərində faciə qurbanına çevrilmiş Aşıq Şəmşir nəslinin yenilməz oğlu, vəfalı və səxalı yurddaşım Cavid Qurbanova ithaf edirəm

Proloq

İnsan dedikləri gəldi-gedərdi,
Gedəni saxlamır bu gidi dünya.
Yaxşılıq bacaran ər oğlu ərdi,
Unutmaz xeyirxah igidi dünya.

Elini-gününü sevən adamlar
Xeyirxah əməldən pərvəriş tapar.
Dönər ağ saraya qapqara damlar,
Kimsə çörək tapar, kimsə iş tapar.

Yerini, yurdunu unutmayan kəs
Tanrının verdiyi çörəyi bölər.
"El" deyər, "yurd" deyər aldığı nəfəs,
O, öz sinəsində ürəyi bölər.

Beləcə yaşayar xeyirxah insan,
Doğular ər kimi, gedər ər kimi.
"Uf" deməz xalqının yolunda yansa
Yandıqca yaşayar Səməndər kimi.

Oxucum, başqadır mənim niyyətim,
Bir insan haqqında söz deyəsiyəm.
Ürəkdən süzülür bu ülviyyətim,
Mətləbə keçincə döz, deyəsiyəm.

Mənim də yoluma çıxıb xəbislər,
Nə qədər nadanlar, naşılar gördüm.
Saya gəlmədikcə bu qədər pislər
Barmaqla sayılan yaxşılar gördüm.

Gördüm dünyamızın hər üzünü mən,
Saxsı heykəl bildim saxta insanı.
Mən silmək istədim bu yer üzündən
Ürəyi duyğusuz taxta insanı.

İnsan da gördüm ki, zaman içində
Yaratdı özünün zəmanəsini.
El-oba azanda duman içində
Xalqının səsinə qatdı səsini.

...Ocağı sönmədi Dədə Şəmşirin,
Ömürlük bu ocaq səngiməsin qoy.
Ruhuna qarışdı yazdığım şerin
Bizim Qənbər oğlu Cavid Qurbansoy.

***

Zirvələr oğlunun el qabağında
Alnı açıq oldu, üzü ağ oldu.
Qaçqın obaların dərdli çağında
Kürəklər söykənən uca dağ oldu.

İnsanlar sınanır darda, çətində,
Qorxağa çevrilir bəzən mətin də.
Nəslində, kökündə, nəcabətində
Ərənlik var deyə o, qoçaq oldu.

Yaşadı elinin dərdi-səriylə,
Yurdsuza yurd saldı öz əlləriylə.

Dostu sevindirdi əməllərilə,
Düşmənin gözünə bir bıçaq oldu.

Həsrətlə boylandı o, Murovdağa,
Titrəyən ürəyi döndü yarpağa.
Kəlbəcər deyilən ulu torpağa
Qayıtmaq Tanrıdan umacaq oldu.

Doğmalar itirər yad qoruyanı,
Allah da qoruyar ad qoruyanı.
Dədə ocağının od qoruyanı
Axırda özü də bir ocaq oldu.

İlk addımlar

Dedilər ki, muştuluq ver –
Oldu oğul nəvən, Dədə.
Sərvətində, dövlətində
Çatışmırdı "dəvən", Dədə.

Gözlərindən günəş baxır,
Baxışları ürək yaxır.
Böyüyəcək əvvəl-axır –
Bu körpəyə güvən, Dədə.

Dönəcək nəslin tacına,
Xəbər ver qardaş-bacına.
Gəlib ömür arğacına
Naxış vuran həvən, Dədə.

...Görüb nəvə muradını,
Duyub körpə fəryadını
"Cavid" çağırdı adını –
Cavidi[1] çox sevən Dədə.

[1] Hüseyn Cavid nəzərdə tutulur

***

Buluda baş vuran dağlar qoynunda
Qayğısız böyüdü, boy atdı Cavid.
Həyatı görənlər dərs verdi ona,
Dedilər büdrəmə, həyatdı, Cavid.

Zəkalı beynini qoymadı dincə,
Çəkildi xəlvətə, qapıldı küncə.
Oxudu, oxudu gözü görüncə,
Nə çimir eylədi, nə yatdı Cavid.

Ömrünü sevincək yaşadı bir gün,
Gördü qismətiylə qoşadı bir gün.
Tələbə adını daşıdı bir gün,
Yatmış arzuları oyatdı Cavid.

***

Dağlardan gəlmişdi bu dağlar oğlu,
Qartal yuvasıydı yurdu, yuvası.
Darıxdı "ucqarlar", "uzaqlar" oğlu,
Sıxdı ürəyini şəhər havası.

Körpülər salmağa, yollar çəkməyə
Qəlbən bağlanmışdı — qərarı qəti.
Yaman tələsirdi qurub-tikməyə,
Mühəndis olmaqdı onun niyyəti.

Ayları, illəri sovdu beləcə,
Oxudu, bir kamil mühəndis oldu.

Düşündü torpaqda iz qoysun necə,
Onun zəhmətiylə dərə düz oldu.

Verdi ürəyini bu torpağa o,
Çiynində çox ağır bir yük göründü,
Bənzədi yenilməz uca dağa o,
Kiçik işində də böyük göründü.

Vətənə qeyrətli vətəndaş oldu,
Qeyrət eldən gəlir, obadan gəlir.
Hünərvər insanlar ona qoşuldu,
Kəramət dədədən, babadan gəlir.

Bacardı işini, bildi yerini,
Vəzifə daşıdı çox cavan ikən.
Amma qan tutmadı bəbəklərini
Belə cavan ikən, beyni qan ikən.

Küçə qəzetləri yazdı iftira,
Yalan ayaq tutdu – qalmaqal oldu.
O, önəm vermədi bu böhtanlara,
Gənc ikən çevrilib ağsaqqal oldu.

Ağardı qəfildən şəvə saçları,
Mən onu görəndə dən düşməmişdi.
Hələ yağmamışdı taleyin qarı,
Gənclik zirvəsinə çən düşməmişdi.

Həyat dedikləri sınaq meydanı,
Zaman qalibləri qaldırar göyə.
Yaradan yaradıb cini, şeytanı
Mələyin qədrini biləsən deyə.

Bu ömür yolunda illər üyünür,
Şirə toplayırıq ac arı kimi.
Hər kəsin köksündə bir qəlb döyünür –
Mlyon arzuların açarı kimi.

Sərvətin boldusa, səxan yoxdusa
Nə fərqi –istəyir yaşa da, öl də.
Xəsisin dili də, cibi də qısa,
Səxalı kişilər sayılar eldə.

O, ürək gəzdirdi – ərdlərə dözən,
Dost-tanış görəndə açdı cibini.
Kasıba-kusuba payladı bəzən
Özünün halalca məvacibini.

Vallah qınamıram mən təbiəti,
Qartalın səması əngin olmalı.
Heçdi bu dünyanın varı, dövləti,
İnsanın ürəyi zəngin olmalı.

O, layla nəfəsli, bayatı ruhlu,
Qoşma qanadlıdır, saz havalıdır.
Ucalıq sakini, zirvələr oğlu
Elə qış günü də yaz havalıdır.

Onun ürəyində sənət eşqi var –
Müxəmməs, gəraylı, bayatı sevir.
Hər gilə qanında həyat eşqi var –
Bu gözəl, bu zalım həyatı sevir...

Babası Şəmşirdi, atası Qənbər –
O, sözdən, kəlmədən, kəlamdan boldu.
"Həyat yollardadır" deyib Peyğəmbər,
Onun qarşısında həmişə yoldu...

İşğaldan əvvəl

Bir el yaşayırdı dağlar qoynunda,
İnsanlar şad-xürrəm, bəxtəvər idi.
Ulular daş qoyan ulu yurdumun
Torpağı cavahir, daşı zər idi.

Zirvələr qalxmışdı günəşə kimi,
Meşəmi var idi o meşə kimi?..
Nərgiz, boyçiçəyi, bənövşə kimi
Hər kəsin ruhu da təzətər idi.

Beləcə illərə dönürdü aylar,
Artıb çoxalırdı ağban saraylar.
Zümzümə edirdi nəğməkar çaylar,
Oxuyan gah Tutqu, gah Tərtər idi.

Bu cənnət məkanda ölənmi vardı,
Başına qəzalar gələnmi vardı?
Dünyada dərd nədir bilənmi vardı –
Dərdsizlik ən böyük dərdi-sər idi.

Kimsə ayırmazdı yaxın, uzağı,
Hamıya bir idi dağlar qucağı.
Üstdə dava düşən Allah qonağı
Evin yiyəsindən mötəbər idi.

Şimşəyin qılıncı bulud sökərdi,
Bulud gözlərindən leysan tökərdi.
Dağlar el-obaya keşik çəkərdi –
Qolboyun zirvələr səfərbər idi.

İnsanı ürəkdən duyardı insan,
Ahılda, cahılda olmazdı nöqsan.
Yoxdur yer üzündə belə bir məkan –
O, mənim torpağım Kəlbəcər idi...

***

Qara bulud aldı dağlar başını,
Dövran dönük çıxdı, zaman dəyişdi.
Yenə silkələyib qan yaddaşını
"Mehriban" qonşumuz yaman dəyişdi.

"Qarabağ bizimdir" – deyib xor ilə
Durdu üzümüzə qəfil erməni.
Şikara çıxmışdı təzə tor ilə,
Kəsdi yolumuzu səfil erməni.

Kolluqda gizləndi saqqallı kafir,
Doldu quldur ilə dağ, dərə yolu.
Burda yaralandı neçə müsafir,
Qan-qada yoluydu Ağdərə yolu.

Kəlbəcər qalmışdı mühasirədə,
Gedənlər, gələnlər əzab çəkirdi.
Deyən vaxt yetişib, gəlmişdi vədə –
Kafirlər bizimlə hesab çəkirdi...

Karvan düzəldərək rus qoşunları
Bizi o itlərdən ötürürdülər.
Pusqulu yolları etməmiş yarı
"Vəzifə borcu"nu bitirirdilər.

Gəldi el-obanın dərdi, bəlası,
Yurdun ağarmayan gecəsi oldu.
Bir gün də Şəmşirin Çimnaz balası
Bu qanlı "körpüdən" keçəsi oldu.

... O günün ovqatı başqaydı bir az,
O gedən karvanı əcəl apardı.
Düşmən gülləsinə tuş gəldi Çimnaz,
Dədənin lal ruhu fəryad qopardı.

Göylərə dirəndi amanlar, ahlar,
Çəkdi imtahana gör zaman kimi...
Qatil qabağından qaçmadı Şahlar[1],
Döyüşdü sonacan qəhrəman kimi.

Murdar kafirləri nişan alanda
Səngərə yatmadı, daşa çıxmadı.
İgidlik göstərdi Şahlar o anda –
Bircə gülləsi də boşa çıxmadı.

Kol-kosun dibində gizlənib, pusub
Onu kürəyindən yaraladılar.
Bir ana qəlbinə çarpaz dağ basıb,
Bir ata qəlbini paraladılar.

...Beləcə qan yudu karvan yolunu,
Kəlbəcər çırpındı matəm içində.
Düşmənlər bir az da açdı qolunu,
Bizlər qərib olduq vətən içində.

Belə bir iz qoydu doxsanıncı il,
Çox gördük o ilin qan-qadasını.

[1] Azərbaycanın Milli Qəhrəmanı Şahlar Şükürov nəzərdə tutulur.

Adamlar hay salıb, çalsa da təbil
Mərkəz eşitmədi el sədasını.

Gündəmə gəlmişdi "böyük siyasət"
Qarabağ ustufca təmizlənirdi.
Düşmən tərəfini tuturdu dövlət,
Bakıda erməni əzizlənirdi.

Daha bağlanmışdı Ağdərə yolu,
O yol döyüş yolu, dava yoluydu.
İstər Cavanşir ol, istər Koroğlu
Yeganə təsəlli hava yoluydu.

Gözlər dikilmişdi bir vertalyota,
O da görünmürdü duman olanda.
İnsan nifrət edir vallah həyata –
Haqsıza haq verən zaman olanda.

Kəlbəcər qalmışdı mühasirədə,
Orda çörək dərdi, orda un dərdi.
Çəkilən deyilmiş müharibədə
Arvadın, uşağın, cocuğun dərdi...

Bakıda yaşayan kəlbəcərlilər
Gecəli, gündüzlü narahat idi.
Dərdlinin halını dərdlilər bilər –
Əlçatmaz doğmalar sanki yad idi.

Toplaşıb "Murovdağ" cəmiyyətinə
Yurddaşlar qalırdı yurdun hayına.
Yardım yığılırdı hey dönə-dönə,
Verirdi nə düşsə kimin payına.

Cavid var-gəl edir, düşünür nəsə,
Hamıya fikrini bildirir kəsə:

– Ağdərə dönübsə girov yoluna
Çarəmiz qalıbdır Murov yoluna.
Bu yoldan keçməli ərzaq karvanı –
Ac qoya bilmərik eli, obanı...

Məşvərət gününün ertəsi günü
Sınır intizarın polad hasarı.
Çəkir ağır-ağır, çəkir yükünü –
Bir karvan yollanır Murova sarı.

O qarlı, o buzlu dağ gədikləri
Sanki yerləşirdi bəyaz kürədə.
Nə idi Cavidin istədikləri:
El aclıq çəkməsin mühasirədə.

Görürdü dəhşətin o, son ucunu,
Qaramat yağırdı belədən belə.
Vermək istəyirdi övlad borcunu
Onu oğul kimi böyüdən elə.

Qaytarmaq istəyib haqq-sayını
Vururdu özünü əlli yerə o.
Ayda neçə dəfə yardım payını
Yollaya bilirdi Kəlbəcərə o.

Kəlbəcər deyilən gözdən uzağı
Yadına salmırdı Cəbhə öndəri.
Xalq elə bilirdi gələn ərzağı
Bakıdan "qayğıkeş" dövlət göndərir...

Arabir düşərək yolun ağına
Dağlara tuturdu üzünü Cavid.
Ehtiyac yox idi səs-sorağına,
Reklam eləmirdi özünü Cavid.

Nə tankın üstündə şəkil çəkdirir,
Nə də yapışırdı un kisəsindən.
Sonuncu bişirim çörək qalanda
Qorxurdu kəndinin[1] son kisəsindən.

Ərzaq daşınırdı çətin, birtəhər
O qarlı aşırım, buzlu yal ilə.
Göyündə ulduzu sönən Kəlbəcər
Barışa bilmirdi bu iqbal ilə.

El-oba qalmışdı mühasirədə –
Bunun ki, bir ayrı adı yox idi.
Elan olunmamış müharibədə
Həyatın əvvəlki dadı yox idi...

Bizi gözləyirmiş qəzavü-qədər,
Sən demə dastanlar, nağıllar varmış.
Yol çəkən gözlərə qonanda kədər
Yaxşı ki, Cavidtək oğullar varmış...

Dədəmiz Şəmşirin ruhu şad olsun –
Vaxtında vermişdi nəsihətini.
Bu da qismət imiş – Cavid doğulsun,
Çəksin el-obanın əziyyətini...

[1] Kəndi-un yığılan xüsusi dolab

Ağdaban faciəsi

(8 aprel 1992)

Bu erməni qovğası
Nahaq qandan başladı.
Kəlbəcərin işğalı
Ağdabandan başladı.

Dağlara təzə-təzə
Yaz nəfəsi dəyirdi.
Düşmənin cəhrəsində
Fələk dükcə əyirdi...

Saraldı birdən-birə
Çöl-çəmənin bənizi.
Daha dalğalanmadı
Gül-çiçəyin dənizi.

Qatı zülmət qarışdı
Elə bil ağ dumana.
Sən demə yol gəlirmiş
Kafirlər Ağdabana.

Yuxudaydı kənd-kəsək,
Az qalırdı səhərə.
Qəfil yer-göy tərpəndi,
Silkələndi dağ, dərə.

Bilinmədi bu toplar
Haçan, harda quruldu.
Haray salan insanlar
Yerindəcə vuruldu.

Çayqovuşan, Ağdaban
Keçdi düşmən əlinə.
İki kənd qurban getdi
Erməni əməlinə.

Qapımızda qul olan
Nökərlər qudurdular.
Qadın, uşaq demədən
Kim gəldisə vurdular.

Güllələmək bir yana,
Hələ baş da kəsdilər.
Kəndi yandırmaq üçün
Yamanca tələsdilər.

Yanan ot tayasına
Atdılar adamları.
Qoyun-quzu mələşdi
Od yaxanda damları.

Haray ərşə dirəndi,
Eşidən yox, bilən yox.
Bəlkə də yer üzündə
Bu əzabla ölən yox.

Dədə Şəmşirin yurdu
Alışıb külə döndü.
Kənddən salamat çıxmaq
Yaman müşkülə döndü.

Döyüşdülər kişilər,
Döyüşdülər sonacan.
Axırıncı gümana,
Sonuncu patronacan.

O gün sanki gecikdi
Günəşin də doğması.
Dədənin soy-kökündən
Getdi neçə doğması...

Axar bulaqların da
Suları durğun oldu.
Xocalı qırğınından
Betər bir qırğın oldu.

Beləcə məhv edildi
Çayqovuşan, Ağdaban.
Çaylar qırmızı axdı,
Dizə çıxdı dağda qan.

Düşmən topa tutanda
O güneyi, quzeyi
Alışıb külə döndü
Dədənin ev-muzeyi.

Bizə baha oturdu
Kafirin yol azması.
Yandı şair Qurbanın,
Şəmşirin əlyazması...

.

***

Gecikən deyildi səhəri açan
Qanpipik xoruzun banı bir belə.
Vaxtında Vətənə "can" desəydilər
Ağrılar çəkməzdi canı bir belə.

Buludlar içində günəş boğuldu,
Bulaqlar qurudu, çaylar soğuldu.
Dədə ocağında soyqırım oldu —
Dağlar görməmişdi qanı bir belə.

Bir kimsə bilmədi nə olan işdi,
Mərmilər yağdıqca kənd-kəsək bişdi.
Gilizlə, patronla "bəzənməmişdi"
Tərtərin sahili, yanı bir belə.

Çatmadıq qalanın haray səsinə,
Yetmədik ölənin son nəfəsinə.
Zəhər axıtmazdı bal əvəzinə
Perik beçələrin şanı bir belə.

Dağlar xəcalətdən xar olurdu, xar,
Zirvədə kövrəlib əriyirdi qar.
Bilməzdik xalqına biganə baxar
Ölkənin bəyləri, xanı bir belə.

Şeytan əməliydi yol gələn bu şər,
Qəfil dərd insanın bağrını deşər.
Fəlakət, müsibət, ey əhli-bəşər,
Hanı yer üzündə, hanı bir belə?..

***

Bakıda yaşayan yurddaşlarımız
Bu qandan, qadadan xəbərdar idi.
Ağlayıb-sızlarkən dağ-daşlarımız
Hərbi nazirimiz sanki kar idi.

Bir dəstə yollandı o nazirliyə,
Əvvəlcə gəlmədi görüşə nazir.
Qorxdu xəbər çata ən böyük bəyə,
Durduğu yerdəcə ilişə nazir.

Odur ki, saxladıb avtomobili
Çıxdı camaatın qabağına o.
Zalımın elə bil zəhərdi dili,
Qəti yaraşmırdı papağına o...

Cavid bu qırğından danışıb ona
Dedi silah verin döyüşə gedək –
Cavabdeh sizsiniz tökülən qana,
Millətin yanında diliniz gödək...

Nazirin saçı tək ağardı rəngi;
– Bizim nazirliyin silahımı var?
Cavid qəzəbləndi: – bir quş tüfəngi
Yoxdusa millətin günahımı var?

Nazir təkrar etdi: – danışma cəfəng,
Bacara bilmirsiz beş qotur ilə...
Yoxdusa avtomat, yoxdusa tüfəng,
Döyüşün lom ilə, armatur ilə...

Təzə dağ basıldı köhnə dağına
Bu sözdən qovruldu, ütüldü Cavid.
Saxta generalın çal papağına
Gözümün önündə tüpürdü Cavid.

Baxdıq ki, dodağı, əlləri əsir,
Mindi cin atına o, birdən-birə.
Bayaqdan bir güllə tapmayan nazir
Az qaldı bizləri güllələtdirə...

İzdiham tez onu aldı araya,
Heç kəsin ürəyi dolu qalmadı...
Nələr deyilmədi nazir qağaya —
Qaçmaqdan savayı yolu qalmadı...

Kəlbəcərin işğalı

(mart-aprel 1993)

Hələ sağalmamış Ağdaban dərdi,
Hələ qurumamış gözlərin yaşı,
Qəfil Kəlbəcərə bir bəla gəldi,
Fəlakət bürüdü o dağı, daşı.

Düşmən Kəlbəcəri saldı kəməndə,
Qara bulud qondu dağlar başına.
Elimə, obama Novruz gələndə
Göz yaşı qarışdı bayram aşına.

Göydən dolu kimi yağdı mərmilər,
Hər yandan yurduma atəş saçıldı.
Üzdü ürəkləri gündə bir xəbər,
Açılan səhərlər qanla açıldı.

Ölümdən qorxmadı igid oğullar —
Güllələr şığıyıb yanından keçdi.
Yurdunun yolunda şəhid oğullar
Ər kimi döyüşüb canından keçdi...

Hələ də danışır ellər, obalar
Tahirin, Mahirin şücaətindən,
Xilas eylədilər bu qəhrəmanlar
Nə qədər insanı dardan, çətindən.

Yurd sinə gərsə də gülləbarana
Daha tablamağın yeri yox idi.
El köçü başladı dağdan arana,
Daha ağlamağın yeri yox idi.

Bu günlər əsir də düşdü obalar,
Eşidən olmadı elin səsini.
Dünyada ən qəmli bir dastan olar
Mən yazsam Kəlbəcər faciəsini...

Beləcə kükrədi qaçqın dalğası,
Bir karvan uzandı məmləkət boyu.
Təzə ünvan oldu köçkün yuvası
Neçə şəhər boyu, neçə kənd boyu.

Çadır şəhərciyi yarandı belə,
İlanlar mələyən çöllər dəyişdi.
"Didərgin" kəlməsi gəldikcə dilə
İçi nifrət dolu ellər dəyişdi.

Daşdı el-obanın nifrəti, kini —
Ümmana dönürmüş o daşan zaman.
Bir görən olmadı kəlbəcərlini
Yardım növbəsində tutaşan zaman...

Bu ağır zamanda, bu dar ayaqda
Cavid unutmadı yurddaşlarını.
Qaçqına baş çəkdi qarda, sazaqda,
Sildi ağlayanın göz yaşlarını.

Suya həsrət qalan soydaşlarına
Buz tək su çıxartdı yerin təkindən.
Əl tutub bu bacı-qardaşlarına
Qurtardı onları dərd-qəm yükündən.

Bakıya axışan qaçqın-köçkünlər
Onun qayğısından faydalandılar.
Cavid el gözündə böyüyən günlər
Paxıllar, xainlər xırdalandılar...

Epiloq

Siz yaxşı tanıyan bir eloğlumu
İstədim təzədən tanıdım sizə.
Mənim yazdıqlarım yalan, doğrumu —
Özünüz baş vurun öz qəlbinizə.

O, mənim yurdumun sadə bir oğlu,
Yurda məhəbbətlə qaynayır qanı.
Demirəm Babəkdir, ya da Koroğlu,
Doğulur hər əsrin öz qəhrəmanı.

...Qarışıb elimin yası yasına,
Ayrılıq hər kəsin belini əyib.
Cavid məlhəm qoyub yurd yarasına,
Əlindən gələni əsirgəməyib.

Qızıl ürəyi var bu yurddaşımın,
Qızıldan, gümüşdən taxtı, tacı yox.
Qartal balasıdır dağlar başının,
Reklama, tərifə ehtiyacı yox.

Şairin səsini göylər eşidir,
Belə oğullara Tanrı yar olsun!
Bu yazı qəlbimin sifarişidir —
Yazdım ki, sabaha yadigar olsun...

Bakı, 2005

BİOQRAFİK BİLGİ

Adil Cəmil (Adil Savalan oğlu Cəmilov)

Adil Savalan oğlu Cəmilov – şair, ədəbiyyatşünas, tərcüməçi, filologiya üzrə fəlsəfə doktoru, Prezident təqaüdçüsü(2008), 1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 1979-cu ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvü.

1954-cü il oktyabrın 8-də Kəlbəcər rayonunun Kilsəli (sonradan Günəşli) kəndində anadan olmuşdur. Burada ibtidai məktəbi, Mingəçevir şəhərində isə 9 saylı orta məktəbi bitirmişdir. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır (1972-1977). Təyinatla «Yazıçı» nəşriyyatının sərəncamına göndərilmişdir.

1978-1990-cı illər arasında həmin nəşriyyatın Folklor və klassik ədəbiyyat, poeziya redaksiyalarında redaktor kimi fəaliyyət göstərmiş, onlarla kitabın tərtibçisi, yüzlərlə kitabın redaktoru olmuşdur. 1990-cı ildə «Həqiqət» qəzetinin baş redaktoru, 1992-ci ildə «Bakı», «Baku» axşam qəzetlərində mədəniyyət şöbəsinin müdiri, sonralar «Binəqədi» rayon qəzetinin redaktoru, «Maarifçi» qəzetinin baş redaktor müavini və b. vəzifələrdə çalışmışdır. 2002-ci ildən 2014-cü ilə qədər «Ədəbiyyat qəzeti» redaksiyasında poeziya, nəsr şöbəsinin müdiri olmuş, 2014-cü ildən baş redaktor müavinidir.

Hələ orta məktəb illərindən bədii yaradıcılığa başlayan A.Cəmilin ilk mətbu şeri «Bahar» 1970-ci il martın 22-də «Mingəçevir işıqları» qəzetində dərc olunmuşdur. O vaxtdan ardıcıl olaraq respublika mətbuatında – qəzet, jurnal və almanaxlarda çıxış etməyə başlayıb. 1980-ci ildə «İşıqlar, pərvanələr» adlı ilk şeirlər kitabı nəşr olunub. Şeirləri Rusiya, Türkiyə, İran və Orta Asiyada dərc olunub, bəzilərinə isə mahnılar bəstələnib.

A.Cəmil bədii tərcümə ilə də müntəzəm məşğul olur. Rus, belorus, özbək, qırğız, Latın Amerikası poeziyasından etdiyi tərcümələr qəzet, jurnal və tərcümə toplularında dərc olunmuşdur.

Həmçinin iyirmidən çox bədii filmi – «Samraat» (Hindistan), «13-cü nəvə» (Qırğızıstan), «Qayıtmağı unut» (Moldova) və b. doğma dilimizə çevirmişdir.

A.Cəmil 1987-ci ildən bu vaxta kimi ümumtürk folklorunun möhtəşəm abidəsi, böyük qırğız eposu «Manas»ın həm tərcüməsi, həm də tədqiqi ilə məşğul olur. «Manas»ın orijinalından poetik tərcümələri, eposun nəsr şəklinə salınmış yığcam variantı, eləcə də dastanın tədqiqi ilə bağlı monoqrafiyası müxtəlif vaxtlarda nəşr edilmişdir. «Manas eposu və türk dastançılıq ənənəsi» mövzusunda dissertasiyasını 2004-cü ildə Naxçıvan Dövlət Universitetinin Elmi Şurasında müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. O, həm də AMEA Folklor İnstitutunun ümumtürk folkloru şöbəsinin aparıcı elmi işçisi, İnstitut Elmi Şurasının üzvüdür. «Manas» eposunun Azərbaycanda yeganə tərcüməçisi və tədqiqatçısı A.Cəmil 1995-ci ilin avqust ayında ulu öndər Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan nümayəndə heyətinin tərkibində Qırğızıstanda keçirilən «Manas-1000» Beynəlxalq yubiley tədbirinin iştirakçısı olmuşdur. Müxtəlif vaxtlarda türk dastanlarının elmi analizi ilə bağlı düzənlənən uluslararası konfrans və simpoziumlarda manasşünas alim kimi məruzə etmişdir. Beynəlxalq Aytmatov Akademiyasının fəxri akademiki, TÜRKSOY-un Toktoqul Satılqanov mükafatçısıdır.

A.Cəmilin jurnalistika sahəsindəki xidmətləri «Qızıl qələm», «H.B.Zərdabi», ədəbi yaradıcılığı isə «Araz», «Qılınc və Qələm», Mədəniyyət və Turizm Nazirliyinin «Qızıl Kəlmə» mükafatları ilə dəyərləndirilmişdir.

Kitabları

1. «İşıqlar, pərvanələr», Bakı, «Yazıçı», 1980, 53 səh, 4500 nüsxə.
2. «Gündoğandan günbatana» B, «Yazıçı», 1983, 72 səh. 5000 nüs.
3. «Aylı gecə nağılı»,B, "Gənclik",1984, 104 səh. 4000 nüs.
4. «Sözümün canı var»,B, «Yazıçı» 1987, 112 səh. 3000 nüs.

5. «Yuxusunda gülən qız»,B, «Gənclik», 1989, 72 səh. 6000 nüs.
6. «Ürəyimdə bir haray var»,B, «Yazıçı», 1992, 192 səh. 5000 nüs.
7. «El üçün ağlayan gözüm»,B, «Azərnəşr» 1997, 208 səh. 1000 nüs.
8. «Manas eposu və türk dastançılıq ənənəsi»,B, «Elm» 2002, 204 səh. 300 nüs.
9. «Tanrı mənə yar olanda»,Bakı, «Avropa», 2004, 208 səh. 500 nüs.
10. «Hərənin öz həqiqəti»,B, «Avropa», 2004, 200 səh. 300 nüs.
11. «Dədə ocağının odqoruyanı»,B, «Adiloğlu», 2005, 36 səh. 500 nüs.
12. «Vaqifdən başlanan yol»,B, «Vektor», 2006, 84 səh. 500 nüs.
13. «Bir dəli sevgidən göyərib dünya»,B, «Çənlibel» 2009, 112 səh. 300 nüs.
14. «Эпос Манас и традиции тюркских сказаний», Baku, «Elm və təhsil», 2011, 180 s. 200 t.
15. « Эпос Манас и традиции тюркских сказаний», Бишкек, «Бийиктик», 2011, 184 s. 500 t.
16. «Manas eposu jana turk ulamıştarının salttarı» (qırğız dilində), «Бийиктик», 2012, 176 s. 1000 t.
17. «Çağdaş meyarlar mövqeyindən», Bakı, «Elm və təhsil», 2013, 180 s. 200 nüsxə.
18. «Yurd yerim – dərd yerim», Bakı, «Elm və təhsil», 2013, 192 s. 300 nüsxə.
19. "Qan borcu" (Poema) Bakı "Elm və təhsil", 2014, 54 səh. 200 nüsxə.

Tərcümə kitabları:

(Qırğız dilindən)
20 «Manas» (eposdan parça), B., «Səda», 32 səh. 500 nüs.
21 «Manas dastanı», B, «Nurlan», 292 səh. 300 nüs

Haqqında kitablar:

«Adil Cəmil mülahizələr müstəvisində»,B, «Elm» 2009, 208 səh. 300 nüs.
Allahverdi Eminov: «Sözün Adil Cəmili» B, «Elm və təhsil», 2014, 300 səh. 200 nüs.
Vaqif Yusifli: «Adil Cəmilin sənət yolu» B, «Elm və təhsil», 2014, 160 səh. 300 nüs.

Əlaqə üçün: adilcamil8@rambler.ru

KİTABIN İÇİNDƏKİLƏR

Tanrı mənə yar olanda

Əlli yaşıma epiqraf 5
Salam türk elləri 6
Bu köhnə dünyada 8
Yaşadım 9
Qocalır 10
Yazı 11
Onu bilirəm ki 12
Özümə elegiya 13
Allah uzaqda deyil 14
Gözüm su içmir 15
Sözün düzü 16
Dördlüklər 17
Ürəyindən gedən kişi 18
Ağlayana ağla, könül 19
Təsəlli 20
Xalq şairi Qabilə 21
Bir şəhidəm 22
Dünyadı 23
Hacı Sabir Həsənliyə 24
Tapmadım 25
Həyat savaş demək 26
Cavidin məqbərəsi önündə 27
Araz boyunda 28
Naxçıvanın dağları 29
Avtoportret 30
Məzarına baş çəkən insan 31
Müəmma 32
"Şübhəli adam 33
Ürəyim 34
Özünə qaldı 35
Bu ürək ki məndə var 36
Fəridə Ləman 37
Tanrı dağlarında bir şaman gördüm 38
Gürən 39
Eşidin bilin ərkimi 40
Üzü dan üzünə bənzəyən şair 41

İndiki zaman 42
Saxtadı 43
Qış gecəsinin trilogiyası 44
Dəvəsi ölmüş ərəb 47
Bölgü 48
Yaşamaq olmur 49
Bu mənim qatarım deyil 50
Mənim ürəyimə yaxın adamlar 51
Yarımçıq 52
Yaşıl haray 53
Qəlbimin seliyəm, gözümün gölü 54
Yıxılmışam öz içimdən 55
Bir gün qiyamət günü var 56
Varlılar, kasıblar 57
Suallı misralar 58
Təzadlı misralar 59
Ünvansiz şeir 60
Vaxt ələnir 61
Biz bir olsaq 62
Vətən mənə qürbət oldu 63
Görünməzlik 64
O- sən, bu – mən 65
Birisi var 66
Beləsini görməmişdim 67
Yer üzü odlu kürə 68
Davud Nəsib 69
Ağlaram 70
Dədə Şəmşir 71
Gəlmişəm 72
Bu ürəklə 73
Ağlama, Ana Torpağım 74
Alın yazım 75
Yaşamadım 76
Kəlbəcəri xatırlayarkən 77
Sən – uzağım, sən-yaxınım 78
Məmməd Aslan 79
Kəlbəcəri unutmayın 80
Unutmuşuq Qarabağı 81
Dünyam mənim 82
Görünür 83
Üzü dönüklərə 84
Millət vəkillərinə 85
Arxalı köpəyə 86

Bir də 87
Kəlbəcər 88
Şuşam, ay Şuşam 89
Bəhmən vətənoğluna 90
Özünü qayadan atan qızlara 91
Vətən oğlu, vətən sənin deyilmi 92
Anam həsrət qalıb ana yurduna 93
Qarlı qış gecəsi 94
Çıxıb getdilər 95
Çadır şəhərciyi qış günlərində 96
Mənim 97
Getdi əlimizdən, Kəlbəcər getdi 98
Vətən xaini 99
Vəzifə davası 100
İtən qeyrətim 101
İllər 102
Sücaətin məzarı önündə düşüncələr 103
Bir gün Kəlbəcərə qayıtmaq üçün 104

Yurd yerim – dərd yerim

Tanrıya xitabən 107
Yurda yalvarış 108
Bu dünya 109
Qarabağ 110
Dözülməz dözümə 111
Yurd yerim - dərd yerim 112
Atamin xatirəsinə 113
Ağlaya bilmirəm 114
Daha nə sən varsan, nə Kəlbəcər var 115
Təbrizə gəldim 116
Cinasli bayatılar 117
Bəxtin biçimi 131
Nəsə güzləyirəm mən bu həyatdan 132
Mən çəkəsi nə qaldi 133
Həyat yollardadir 134
Gerçəklik 135
Əridim ömür kimi 136
Kəlbəcərdə 137
Gileyliyəm 138
Hər xirmanda döyülmədim 139
Balası 140

Saxta adam 141
Ağı 142
Mənə sadiq dost tapilmaz 143
Çoxdur ağri-acimiz 144
Bizi yavaş-yavaş öldürün belə 145
Soyuq havalara 147
Günəşə məhəbbətlə 148
Adi heyrət 149
Bu ömür-gün 150
Indi 151
Bütün doğulanlar şair doğulsa 152
Bir dünyan var - türk dünyası 154
Arılar ömrünü toxuyar şana 156
Nəsihət əvəzi 158
Uzaqda bir işıq yanir 159
O zəmanə deyil 160
Kilsənin arqan musiqisi 161
Nə demək 162
Yazıq 163
Ömürnamə 164
Nə var, nə yox 165
Şeir yazmaq 166
Qlobal istilərə 167
Dağlarmi qəribdir, mənəmmi qərib 168
Bu karvan yolu 169
Yorğun qayiqçiyam 170
Xəstəxanada 171
Mənim ləzgi dostlarim 172
Kəpənəklər - gül ləçəyi 173
Yetimi ağlar görəndə 174
Bir səhra yolçusuyam 175
İşğal 176
Didaktik şeir 177
Bioqrafik etüd 178
Aşağı 179
Susmaq qisas deyil 180
Böyüdükcə 181
Kasib oğlu 182
Bu qış 184
Məni sevməyənlərə 185
Mən yaşamaq istədim 186
Bir dəfə 187

Haçansa 188
Bu havada 189
Gedən bərə qayitdi 190
Keçib gəldim 191
Gedirəm işıqgələnə 192
Sonuclama 193
Sevincimin ortağı ol 194
Görə-görə 195
Çökürkən yaşamaq 196
Bu yol 197
Ağdənizdə üzən gəmi 198
Bu adanın adamları 199
Şəhid gül 200
Yaridan keçib 201
Boğulan fəryad 202
Qışın oğlan çağı 203
Donmuş zaman məkanında 204
Tənhalıq hücrəsində 205
Dağıldı durna qatarı 206
Orta nəsil 207
Daha nə istəyim 207
Murovun bu üzündə 208
Sərhəd yurdun sipəridir 209
Çatdir 210
Öyrəndim 211
Paradoks 212
Görmüşəm 212
Ulu tanrim nə vermədi 213
Bir kənd baxir yuxumdan 214
Murovun başinda ulayan bayquş 215
Bağli it 217
Al çala bir də 217
Həbsxanada 218
Nikbin adam 219
Güzəran güm-güməsi 220

Bir dəli sevgidən göyərib dünya

Məhəbbət 223
Niyə küvrək yaranmisan 224

Demişəm 225
Işiqli gecələr 226
Gəlirsən yuxuma 228
Bu, sən deyilsən 229
Aparma 230
Mənim gözlərimlə baxsan dünyaya 231
Qəribəsən 232
Hani o dünənki məhəbbətimiz 233
Mən sənin üçün... 234
Tapdıq 235
Nə vaxtsa, hardasa 236
Od ilə oynamaq olmaz 237
Qala qapisinda ağlayan qari 238
İlk məhəbbətimə 239
Səni belə görməyəydim 240
Heyif o günlərin şirinliyinə 241
Sən məni unut 242
Tale qayiq, ümid yelkən 243
Gürcü qızı 244
On beş yaşin sərgüzəşti 245
Ilk məhəbbət yarasi 246
Gözəl oynayan gözəl 247
Bağışla, mən səni sevə bilmədim 248
Gəlmişəm 249
Səndən ötrü 250
Saçi şəlaləm 251
On alti yaşimdan boylanan güzəl 252
Kirpiyin olsaydım 253
Bəxtə bax ki 253
Tapışmasaydıq 254
Beləmi sevirdin 255
Sənsiz sənli yerlərdə 256
Göz yaşımdan göl yaranıb 257
Bu ümmanda mən bir ada 258
Sənə çiçək gətirmişdim 259
Təcnislər 260
1.Ay azdı 260
2.Axşamlar 261
3. Od ələ 262
Səni gözləyirəm 263
Ulduzlu gecəmiz 264

Gəzirəm 265
Udduğum havasan, aldiğim nəfəs 266
Nağıl sevgi 267
Xəbərin yox 268
Sevərək yaşamaq 269
Səni görmək üçün gəldim dünyaya 270
Gec olmamış 272
Səni düşünürəm sənin yanında 273
Birdən-birə 274
Sərhəd 275
Xoşbəxt o kəsdir ki 276
Uzaqdan-uzağa 277
Ürəyim 278
Ürəyimin çatına bax 279
Səndən ayrı 280
Qəzəl 281
Məhəbbətim....282
O gözlərə baxa biləm 283
Qınamasın məni bu el 284
Bir belə gün üçün 285
Görən olar eşqimi 286
Günahım nəymiş 287
Özümü itirdim 288
Ürəyim boş səhra idi 290
Bir eşqi yaşadan 291
Sənin «yerin» 292
Sən özgə, mən özgə 293
Sən gəldin 294
İncimə 295
Ölümdən çox ayrılıqdan qorxuram 296
Qayıdib gəlmişəm yenə 297
Sevdanın sonu varmı 298
Yarıciddi 299
Bu necə sevgidir 300
Sən ayrılanda 301
Sən....302
Məhəbbət günəşdir 303
Bu dəniz dibsiz 304
Məni bağışlama 305
Niyə gəlmədin 306
Mən və sən 307

Mən ölsəm 308
Nədir qəsdin 309
Dağlar gözəli 310
Bir dəli sevgidən göyərib dünya 312
Sevməyə tələs 313
Gözəl 314
Qəzəl 315
Belə sevən tapılmaz 316
Söylə, məhəbbətmisən 317
Həsrət alovuyam 318
Hardasan 319
Tapşır güzlərinə tək mənə baxsın 320

Poemalar

İşıq şəhəri 323
Ayrılıq səndən oldu 333
Şəkilsiz bilet 344
Zirvədə göl 349
Qan borcu 354
«Kölgəsiz» şöhrət 282
Dədə ocağının odqoruyanı 388
Bioqrafik bülgü 410

İki cilddə toplanmış seçilmiş əsərlərimin nəşr olunmasına maddi, mənəvi dəstəyini əsirgəməyən qayğıkeş yurddaşım, dəyərli millət vəkili Cavid Qurbanova dərin minnətdarlığımı, sayğı və ehtiramımı bildirirəm.

Müəllif

«Elm və təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Kompüter dizayneri: Zahid Məmmədov
Texniki redaktor: **Yadigar Bağırova**

Çapa imzalanmış **10.09.2014.**
Şərti çap vərəqi **26,5** Sifariş **№ 237**
Kağız formatı **60x90 1/16.** Tiraj 300

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32 511-37-82; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.